RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 89 (9256) 2 MAY 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Bakıda "Formula-1" Azərbaycan Qran-prisinin əsas yarışı keçirilib

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yarışa baxıblar



**Aprelin 30-da Bakı şəhər halqasında "Formula-1" üzrə Dünya Çempionatının dördüncü - Azərbaycan Qran-prisinin əsas yarışı keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yarışa baxıblar.**

→ 2

## Prezident İlham Əliyev Beynəlxalq Avtomobil Federasiyasının prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Bin Sulayemi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Beynəlxalq Avtomobil Federasiyası arasında uzun illər mövcud olan uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edildi.

Azərbaycanda "Formula-1" yarışlarının yüksək səviyyədə təşkil edilməsinin əhəmiyyəti qeyd olundu. Vurğulandı ki, ölkəmizin uzun illər dünya səviyyəli çox önəmli tədbirlərə, o cümlədən idman yarışlarına evsahibliyi etməsi beynəlxalq əməkdaşlığa mühüm töhfə verir.

Söhbət zamanı Azərbaycan ilə Beynəlxalq Avtomobil Federasiyası arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

## Azərbaycan Prezidenti İlham Əliyev "Boeing" şirkətinin icraçı vitse-prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da "Boeing" şirkətinin icraçı vitse-prezidenti, "Boeing Commercial Airplanes" şirkətinin prezidenti və baş icraçı direktoru Stenli Dili qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə "Boeing" şirkəti arasında 8 ədəd müasir "Boeing 787 Dreamliner" təyyarəsinin alınmasına dair bu yaxınlarda razılaşmanın əldə olunması mühüm hadisə kimi qiymətləndirildi. Azərbaycan ilə "Boeing" şirkəti arasında uzun illərdir uğurlu və etibarlı əməkdaşlığın həyata keçirildiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanda nəqliyyat sahəsində böyük işlərin həyata keçirilməsindən bəhs olundu, ölkəmizin mühüm beynəlxalq və regional nəqliyyat habına çevrildiyi, yeni hava limanlarının açıldığı qeyd edildi.

Qarabağda və Şərqi Zəngəzurda yeni hava istiqamətlərinin açılmasının önəmi vurğulandı, əməkdaşlıq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə "Formula-1" yarışının Azərbaycanda yüksək səviyyədə təşkil olunduğu bildirildi, ölkəmizə xeyli sayda turistin gəlməsinin önəmi vurğulandı. Azərbaycanın mötəbər tədbirlərin keçirildiyi məkana çevrildiyi və ölkəmizin beynəlxalq əməkdaşlıq işlərinə töhfə verdiyi qeyd edildi.

# Yeni intibah dövrünün müəllifləri və AYRILMAZ DOSTLAR



Qardaşlar həmişə dost olmurlar!

Həqiqi və səmimi dostlar isə bir-birilərini qardaşdan da artıq sevirlər!

*Qardaş qədər istədiyin səmimi və etibarlı dostun olması hər kəsə də nəsib olmur!*

*Bu, Allahın insanlara verdiyi böyük nemət və ərməğan sayılır.*

**Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluğunu və qardaşlığını bütün dünya görür və bilir.**

*Türkiyəni və Azərbaycanı sevənlər bu dostluqla sevinir, fəxr edir və qürur duyurlar.*

*Bədxahlarımız isə uzaqdan həsədlə, paxıllıqla, qibtə ilə baxır, pərişan olurlar!*

**Prezident İlham Əliyevin təbirincə desək, sevinən qoy sevinsin, sevinməyən isə kor olsun!**

**Həqiqət budur ki, müasir dünyada İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan kimi bir-birilərini sevən, hörmətlə və ehtiramla yanaşan, dar gündə bir-birinin yanında olan nə dövlət başçıları var, nə də həqiqi və səmimi dostluğun şirin barından bəhrələnən dövlətlər!**

→ 4

## Entoni Blinken İlham Əliyevə zəng edib

**Aprelin 30-da ABŞ Dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Entoni Blinken Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların əhəmiyyətini vurğulayıb, bu xüsusda ABŞ-nin dəstəyinin davam edəcəyini bildirib. ABŞ Dövlət katibi sülhün əldə edilməsinin mümkünlüyünə inandığını deyib və Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin qurulmasına toxunub.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan sülh gündəliyini dəstəkləyir, Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağın və münasibətlərin normallaşdırılmasının təşəbbüskarı məhz Azərbaycan olub. Bu xüsusda da Azərbaycan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip Ermənistana təklif edilib.

Azərbaycan-Ermənistan sərhədində "Laçın" sərhəd-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar Prezident İlham Əliyev bildirib ki, bu məntəqənin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib.

Azərbaycan Prezidenti vurğulayıb ki, məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə, nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir.

Telefon danışığı zamanı Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqlarının Azərbaycanın Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacağı qeyd edilib.

***Prezidentin Mətbuat Xidməti***

## Prezident İlham Əliyev Özbəkistanın "Uzavtosanoat" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədrini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Özbəkistanın "Uzavtosanoat" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Uluqbek Rozukulovu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ilk növbədə Özbəkistanda referendumun uğurla keçirilməsi münasibətilə Prezident Şavkat Mirziyoyevə təbriklərini çatdırmağı xahiş etdi. Referendumu qardaş Özbəkistanın hərtərəfli inkişafı və demokratiyanın möhkəmlənməsi istiqamətində mühüm addım kimi dəyərləndirən Azərbaycan Prezidenti qeyd etdi ki, bu referendum eyni zamanda Özbəkistan Prezidentinin həyata keçirdiyi kursa xalqın göstərdiyi etimaddır.

Prezident İlham Əliyev Özbəkistana səfərləri zamanı bu ölkədə gedən böyük inkişaf proseslərinin şahidi olduğunu məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı Özbəkistan Prezidenti ilə keçirilən görüşlər zamanı əldə olunmuş razılaşmaların, o cümlədən avtomobil istehsalı sahəsində həyata keçirilən işlərin də əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Uluqbek Rozukulov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Şavkat Mirziyoyevin Azərbaycanla əməkdaşlığa çox böyük önəm verdiyini vurğulayan qonaq dövlət başçılarının tapşırıqları əsasında azərbaycanlı həmkarları ilə daim əzmlə çalışdıqlarını diqqətə çatdırdı. Uluqbek Rozukulov ölkəmizə səfəri çərçivəsində Hacıqabul Sənaye Məhəlləsində iki istehsal müəssisəsinin - qaynaq və boyama fabriklərinin təməlqoyma mərasimində iştirak edəcəyi barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd etdi ki, hər iki müəssisə Azərbaycanda avtomobil istehsalının lokallaşdırılması istiqamətində növbəti addım olmaqla sənayenin bu sahəsinin inkişafına töhfə verəcək.

Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

## Heydər Əliyev İli

## Ümummilli Lider və onun Azərbaycanı



**Xalqın tarixi onun yetişdirdiyi dahi şəxsiyyətlərin həyat və fəaliyyətinin əsrlərlə həkk olunan salnaməsi kimi yaranır.**

Azərbaycanın müasir tarixi, ölkəmizdə müstəqil dövlətin qurulması və inkişafı dahi şəxsiyyət Heydər Əliyevin zəngin həyatından və siyasi fəaliyyətindən ayrılıqda dərk edilmir və edilə bilməz. 1970-ci illərdən etibarən Azərbaycanda müşahidə edilən yüksəliş və tərəqqinin bütün təzahürlərində Heydər Əliyev şəxsiyyəti başlıca və həlledici amil olmuşdur. Bu dahi insanın müstəqil Azərbaycan dövlətinin banisi sayılması və Ümummilli Lider statusunda qəbul edilməsi onun xalqımızın ən qüdrətli simaları sırasında layiqli yer tutmasının birbaşa təsdiqidir. Azərbaycanın müasir tarixinin Heydər Əliyevin adı ilə, Ulu Öndərin adının isə ölkəmizin müasir tarixi ilə yanaşı çəkilməsi azərbaycançılıq ideologiyasının təməl prinsiplərindən biri kimi qavranılmaqdadır.

### Azərbaycanı dəyişdirən 14 il

Taleyinə tarix yaratmaq qisməti düşən liderlər, bir qayda olaraq, xalqın taleyüklü dövrlərində siyasi səhnəyə çıxır və sosial sifariş kimi qəbul edilən missiyanı yerinə yetirməli olurlar. Ötən əsrin 60-cı illərində keçmiş sovet imperiyasının tərkibində olan Azərbaycanın dərin iqtisadi və sosial böhran zolağına daxil olması təkcə hakim dairələri ciddi narahat etməklə məhdudlaşmır, habelə cəmiyyətdə ruh düşkünlüyü, mənəvi deqradasiya və digər neqativ hallarla müşayiət olunurdu.

Zəngin təbii sərvətlərə sahib olan Azərbaycanın iqtisadi gerilik və yoxsulluq kimi uğursuz tale yaşamağa məhkum edilməsi sosial bəla olmaqla yanaşı, daha çox milli özünüdərk və milli dirçəliş kimi milli-mənəvi amillərə çətin sağalan yaralar vururdu. İmperiyanın siyasi elitasını iqtisadi və sosial problemlər narahat etdiyi halda, milli ruhlu elitanı xalqın özünüdərki və dirçəlişi sahəsində müşahidə olunan böhran daha çox qayğılandırırdı. Yaranmış vəziyyət Azərbaycanda yeni tipli siyasi liderin meydana gəlməsini təxirəsalınmaz sosial sifarişə çevirmişdi. Bu elə bir lider olmalı idi ki, Azərbaycanı iqtisadi və sosial böhrandan çıxarmaq qüdrətinə malik olmaqla yanaşı, həm də xalqın buxovlanmış milli ruhunu dirçəltməyi istəsin və bacarsın. Yarım əsr bundan əvvəl azərbaycanlıların xəyallarında canlandırdıqları yeni liderin tarixi missiyası məhz bu şəkildə qavranılırdı.

→ 5

## Haylara başa salındı:

### "Azərbaycan Respublikasının ərazisinə daxil olursunuz!"




**Laçın yolunun başlanğıcında ölkəmizə məxsus nəzarət-buraxılış məntəqəsinin qurulması Prezident İlham Əliyevin strateji addımlarının, dövlətimizin və xalqımızın qəti iradəsinin nəticəsidir. Azərbaycanlı ekofəalların başlatdığı etiraz aksiyası sayəsində ötən ilin dekabrın 12-dən etibarən onsuz da həmin yola nəzarəti təmin edən Azərbaycanın nəzarət-buraxılış məntəqəsi qurması suveren hüququ idi.**

Bunun nəticəsi olaraq 10 gündür ki, həmin ərazilərdə üçrəngli Azərbaycan Bayrağı dalğalanır. Laçın yolu artıq hayların və havadarlarının qeyri-qanuni əməllərinə deyil, təhlükəsizliyə və humanizmə xidmət edir. Qarabağda yaşayan hayların həmin yoldan keçidinin nümayiş etdirildiyi videogörüntülərdən də aydın olur ki, sərhəd nəzarəti yüksək səviyyədə təşkil olunub.

→ 8

# Bakıda "Formula-1" Azərbaycan Qran-prisinin əsas yarışı keçirilib

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yarışa baxıblar





*Əvvəli 1-ci səh.*

Əvvəlcə Azərbaycan Qran-prisinin açılış mərasimi keçirilib.

Açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub. Dövlət himnini "Avroviziya-2018" müsabiqəsində Azərbaycanı təmsil edən Aysel Məmmədova səsləndirib.

Açılış mərasimindən sonra "Formula-1" Azərbaycan Qran-prisinin əsas yarışı başlayıb.

"Formula-1" yarışında hər biri iki pilotdan ibarət 10 komanda mübarizə aparıb. Pilotlar qalibi müəyyənləşdirmək üçün Bakı şəhər halqasında iki saat ərzində 51 dövrə vurublar. "Mercedes" komandasının heyətində Luis Hamilton və Corc Rassel, "Ferrari" komandasında Karlos Sayns və Şarls Lekler, "Williams"ın heyətində Aleksander Albon və Loqan Sarjent yarışıblar. "Red Bull Racing" komandasında Serxio Peres, Maks Ferstappen, "Alpha Tauri"də Nik de Vris və Yuki Tsunoda, "Alpine"də isə Pyer Qasli ilə Esteban Okon mübarizə aparıblar. Bundan başqa, "Alfa Romeo"nun heyətində Valtteri Bottas və Cou Quanju, "McLaren"də Oskar Piastri və Lando Norris yürüşdə iştirak ediblər. Pilotlar Niko Hulkenberq və Kevin Maqnussen "Haas", Fernando Alonso və Lans Stroll "Aston Martin" komandasının idman şərəfini qoruyublar.




"Formula-1" üzrə Dünya Çempionatının cari mövsümü 24 mərhələdən ibarətdir. Bakı Qran-prinin dördüncü mərhələsinə evsahibliyi edir. Uzunluğu 6 kilometr olan və hərəkətin saat əqrəbinin əksinə nizamlandığı trek məşhur almaniyalı memar Hermann Tilke tərəfindən hazırlanıb. Azadlıq meydanından başlayan trek Hökumət Evinin ətrafı ilə fırlanaraq Qız qalasına çatmaq üçün İçərişəhər ətrafında 2,2 kilometr dairə vurur və Neftçilər prospektinə çıxaraq başlanğıc yerində sona çatır. Trekin ən geniş yerinin eni 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan hissələrində, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

İki saata yaxın davam edən gərgin idman mübarizəsinin sonunda "Red Bull Racing" komandasının meksikalı pilotu Serxio Peres Azərbaycan Qran-prisinin qalibi adını qazanıb. Onun komanda yoldaşı Maks Ferstappen ikinci, "Ferrari"nin sürücüsü Şarl Lakler isə üçüncü pillədə yer alıblar.

Sonra "Formula-1" Azərbaycan Qran-prisinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Əvvəlcə qalib idmançının və komandanın şərəfinə Meksikanın və Avstriyanın Dövlət himnləri səsləndirilib.

Mükafatları pilotlara Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Bin Sulayem və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin icraçı direktoru Maqsud Fərzullayev təqdim ediblər.



Xatırladaq ki, "Formula-1" Azərbaycan Qran-prisinə aprelin 28-də start verilib. Azərbaycan Qran-prisinin ilk günündə "Formula-1" pilotları sərbəst yürüş və sıralanma yürüşlərində mübarizə aparıblar. Hər iki yürüşdə pilotlar 1 saat ərzində 6 kilometrlik Bakı trekində yarışıblar. Sərbəst yürüşdə "Red Bull Racing" komandasının pilotu Maks Ferstappen bütün rəqiblərini qabaqlayıb. "Ferrari"nin pilotu Şarl Lekler və "Red Bull Racing"in digər sürücüsü Serxio Peres ilk üçlüyü tamamlayıblar. Sıralanma turunu isə "Ferrari"nin pilotu Şarl Lekler qalib kimi başa vurub. "Red Bull Racing"in üzvləri Maks Ferstappen ikinci, Serxio Peres isə üçüncü yerdə qərarlaşıblar. Bu qələbə sayəsində monakolu pilot cari mövsüm ilk, Bakı şəhər halqasında ardıcıl üçüncü poul qazanıb. Həmçinin bu onun karyerasında qazandığı 19-cu nailiyyətdir. Aprelin 29-da isə sprint üçün təsnifat və sprint yarışları təşkil olunub. Təsnifat yarışında "Ferrari" komandasının pilotu Şarl Lekler birinci olub. "Red Bull Racing"in pilotları Serxio Peres və Maks Ferstappen ilk üçlüyü tamamlayıblar. Sprint yarışı isə S.Peresin qələbəsi ilə yekunlaşıb. Ş.Lekler ikinci, M.Ferstappen isə üçüncü olublar.

Builki Dünya çempionatına martın 3-5-də Bəhreyn Qran-prisi ilə start verilib. Sonrakı mərhələlər Səudiyyə Ərəbistanında və Avstraliyada keçirilib.

Beləliklə, 4 Qran-pridən sonra pilotların siyahısına "Red Bull Racing" komandasının niderlandlı sürücüsü Maks Ferstappen başçılıq edir. Onun aktivində 93 xal var. Ferstappendən 6 xal geri qalan komanda yoldaşı - Bakı yarışının qalibi Serxio Peres ikinci sırada qərarlaşıb. İlk beşliyi 60 xalla Fernando Alonso ("Aston Matin"), 48 xalla Luis Hamilton ("Mercedes") və 34 xalla Karlos Saynz ("Ferrari") tamamlayırlar.

Konstruktorlar kubokunun lideri isə "Red Bull Racing" (180 xal) komandasıdır. "Aston Martin" 87 xalla ikinci, "Mercedes" isə 76 xalla üçüncü pillədə yer alıb. Sonrakı yerlərdə "Ferrari" (62), "McLaren" (14), "Alpine" (8), "Haas" (7), "Alfa Romeo" (6), "Alpha Tauri" (2) və "Williams" (1) komandaları qərarlaşıb.

"Formula-1" Azərbaycan Qran-prisi çərçivəsində Bakıda "Formula-2" yarışları da keçirilib. Bu yarışda hər biri iki pilotla təmsil olunan 11 komanda birincilik uğrunda mübarizə aparıb. Aprelin 28-də "Formula-2" üzrə sərbəst və sıralanma yarışları təşkil olunub. Sərbəst yürüşdə "Preme Racing" komandasının pilotu Oliver Berman birinci olub. "Hitech"in üzvü İsak Hajar yarışı ikinci, "Campos Racing"dən Kuş Maini üçüncü pillədə başa vurublar. Sıralanma turunda da Oliver Berman fərqlənib. "Rodin Carlin" komandasının üzvü Enzo Fittipaldi ikinci, "ART Grand Prix"in pilotu Teo Purşer isə üçüncü pillədə yer alıblar. Ertəsi gün birinci sprint yarışında O.Berman bütün rəqiblərini qabaqlayıb. Onun komanda yoldaşı Frederik Vesti yürüşü ikinci, "Hitech"in pilotu Jak Krouford isə üçüncü pillədə başa vurublar. On dörd mərhələdən ibarət "Formula-2" yarışına noyabrın 24-26-da Əbu-Dabidə yekun vurulacaq.

Azərbaycan "Formula-1" yarışlarına yeddinci dəfədir evsahibliyi edir. Avropa Qran-prisi adlandırılan ilk yarış 2016-cı ildə təşkil olunub. Bu yarışda "Mercedes" komandasının pilotu Niko Rosberq birinci olub. Növbəti ildən Azərbaycan Qran-prisi adını alan yarışlarda Daniel Rikkardo ("Red Bull Racing", 2017), Luis Hamilton ("Mercedes", 2018), Valtteri Bottas ("Mercedes", 2019), Serxio Peres ("Red Bull Racing", 2021), Maks Ferstappen ("Red Bull Racing", 2022) qalib gəliblər. 2020-ci ildə "Formula-1" Azərbaycan Qran-prisi koronavirus pandemiyası səbəbindən keçirilməyib.

Dünya çempionatının Azərbaycan mərhələsində hər il müxtəlif pilotlar qalib gəliblər. Azərbaycan Qran-prisinin nəticəsinin gözlənilməzliyi onu daha da möhtəşəm edir. "Formula-1" mütəxəssisləri buna "Bakı sindromu" adı veriblər.





## "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2575; 2019, № 6, maddə 1012, № 12, maddələr 1937, 1953; 2020, № 3, maddə 254; 2022, № 5, maddə 445, № 8, maddə 846; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 mart tarixli 2061 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.3-cü bənddə "və onun 3 (üç) müavini həyata keçirir;" sözləri "həyata keçirir." sözləri ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İcraçı direktorun Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 3 (üç) müavini vardır;";

1.2. 3.5-ci bəndə "ayırmalar," sözündən sonra "icbari tibbi sığorta fondundan ayırmalar," sözləri əlavə edilsin;

1.3. 6.5.7-ci yarımbənd ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin təklifləri əsasında dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə tibb işçilərinin işə qəbulu qaydasını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri 1 may 2023-cü il*

## İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən istifadəyə görə maliyyə yardımı göstərilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi, investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması və sahibkarlıq fəaliyyəti üçün əlverişli şərait yaradılması məqsədilə **qərara alıram:**

1. İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara 2023-cü il yanvarın 1-dən 10 (on) il müddətində hər ay istehlak olunan kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20 (iyirmi) faizi məbləğində dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı ödənilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1.işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydasını on beş gün müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan maliyyə yardımının ödənilməsi ilə bağlı tələb olunan vəsaitin müvafiq illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin etsin;

2.3. bu Fərmanın icrası barədə ildə bir dəfə - hər il aprelin 1-dək Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə razılaşdırmaqla, bu Fərmanın 1-ci hissəsinin icrası ilə bağlı 2023-cü ildə tələb olunan vəsait barədə təkliflərini on beş gün müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.2. bu Fərmanın icrası ilə bağlı illik icmal hesabatı növbəti il fevralın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2023-cü il*

## "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Katibliyinin maliyyə qaydaları haqqında" Sazişə dəyişikliklər edilməsinə dair Protokolun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Katibliyinin maliyyə qaydaları haqqında" Sazişə dəyişikliklər edilməsinə dair 2022-ci il noyabrın 10-da Səmərqənd şəhərində imzalanmış Protokol təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2023-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Monteneqro Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Monteneqro Hökuməti arasında hava əlaqəsi haqqında" 2023-cü il fevralın 4-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2023-cü il*

## "Azərbaycan Respublikası ilə Yaponiya arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası ilə Yaponiya arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" 2022-ci il dekabrın 27-də Bakı şəhərində imzalanmış Konvensiya təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2023-cü il*

## "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişinə dəyişikliklər edilməsinə dair Protokolun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişinə dəyişikliklər edilməsinə dair 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanmış Protokol təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2023-cü il*

## Sabirabad şəhərində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sabirabad şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 2,9 milyon (iki milyon doqquz yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2023-cü il*

## Özbəkistanla avtomobil sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə olunub



İqtisadiyyat naziri Mikayıl Cabbarov Özbəkistanın "Uzavtosanoat" Səhmdar Cəmiyyətinin rəhbəri Uluqbek Rozukulovla görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Özbəkistan tərəfdaşlığının dinamik inkişaf etdiyi, investisiya əməkdaşlığının gücləndiyi vurğulanıb. Nazir qeyd edib ki, qarşılıqlı səfərlər və aparılan müzakirələr səmərəli nəticələr verir, işgüzar dialoq genişlənir, özəl sektorun fəallığı artır, yeni ideyalar və təşəbbüslər irəli sürülür. Rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafına xidmət edən layihələrin icrasını sürətləndirmək üçün ölkəmizdə biznes və investisiya mühiti qlobal çağırışlara uyğunlaşdırılır. Bununla yanaşı, ixtisaslı kadr ehtiyatı, institusional potensial, səmərəli enerji və nəqliyyat infrastrukturu, beynəlxalq bazarlara çıxış kimi imkanlar da birgə layihələrin icrasını asanlaşdırır.

İqtisadiyyat naziri Hacıqabul Sənaye Məhəlləsində təməli qoyulacaq avtomobil istehsalının boyaq, qaynaq və yığım mərhələsinin lokallaşdırılması zavodunun əhəmiyyətini diqqətə çatdırıb, layihənin ölkəmizdə qeyri-neft sektorunun inkişafı, istehsalın lokallaşdırılması və məşğulluğun təminatına təkan verəcəyini qeyd edib.

Uluqbek Rozukulov ölkəmizdə sahibkarlığın inkişafı üçün yaradılmış əlverişli mühitdən məmnunluğunu ifadə edib, azərbaycanlı tərəfdaşlarla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirib.

Görüşdə ölkəmizdə avtomobil sənayesinin inkişaf etdirilməsi, bu istiqamətdə Özbəkistanla əməkdaşlığın genişləndirilməsi və istehsal edilən avtomobillərin üçüncü ölkələrə ixrac imkanları müzakirə edilib.

Tədbir çərçivəsində İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi, "Maşın və Avadanlıq İstehsalçıları" Assosiasiyası və Özbəkistanın "Uzavtosanoat" Səhmdar Cəmiyyəti arasında Azərbaycanda avtonəqliyyat vasitələrinin istehsalının genişləndirilməsi haqqında əməkdaşlıq memorandumu imzalanıb.

## Azərbaycan Hökuməti ilə Türkiyə Hökuməti arasında Preferensial Ticarət Sazişinə dəyişiklik haqqında protokol imzalanıb

İqtisadiyyat naziri Mikayıl Cabbarov Samsun şəhərində Türkiyənin ticarət naziri Mehmet Muşla görüşüb.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçılarının siyasi iradəsinin, verdikləri tapşırıqların icrasının əlaqələrin inkişafında mühüm əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, Azərbaycan-Türkiyə müttəfiqliyi ölkələrimizin iqtisadi potensialından səmərəli istifadə edilməsi üçün əlverişli şərait yaradır. Nazir bildirib ki, Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında Preferensial Ticarət Sazişinin əhatə dairəsinin genişləndirilməsi qardaş ölkə ilə ticarət dövriyyəsinin artırılması istiqamətində hədəflərimizin gerçəkləşməsinə növbəti töhfə olacaq.

Türkiyənin ticarət naziri Mehmet Muş ölkələrimizin dostluq və qardaşlıq münasibətlərini, strateji müttəfiqliyini vurğulayıb, Azərbaycan-Türkiyə iş birliyinin daha da gücləndirilməsi istiqamətləri barədə fikirlərini bildirib.

Görüşdə ticarət və investisiya qoyuluşu üzrə cari vəziyyət nəzərdən keçirilib, həmçinin reallaşdırıla biləcək əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb.

Səfər çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nə dəyişiklik haqqında Protokol" imzalanıb. Sənədi iqtisadiyyat naziri Mikayıl Cabbarov və türkiyəli həmkarı Mehmet Muş imzalayıblar.

Qeyd edək ki, 2021-ci il martın 1-də qüvvəyə minmiş Preferensial Ticarət Sazişi bir sıra məhsullarımızın Türkiyəyə güzəştli şərtlərlə - idxal rüsumu ödənilmədən ixracına imkan verir.

Samsun şəhərində Türkiyədən olan iş adamları ilə keçirilən görüşdə biznes dairələri arasında qarşılıqlı əlaqələrdən məmnunluq ifadə olunub, ölkəmizdə yaradılan biznes və investisiya imkanları müzakirə edilib. Sahibkarlarla ölkələrimiz arasında ticarət dövriyyəsinin, biznes strukturları arasında işgüzar tərəfdaşlığın daha da inkişaf etdirilməsi, investisiya qoyuluşlarının artırılması, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində qonaqlar Samsun Bandırma Gəmi Muzeyini ziyarət edib, müasir Türkiyənin qurucusu Atatürkün 1919-cu il mayın 19-da Bandırma Vapuru ilə məhz burada sahilə çıxaraq başlatdığı milli mübarizə hərəkatının və bu il 100 yaşını qeyd etdiyimiz Türkiyə Respublikasının qurulmasının şanlı tarixini əks etdirən eksponatlarla, həmçinin Türkiyənin ilk yerli elektromobili "Togg" ilə tanış olublar.

## Azərbaycan və Tacikistan prokurorluq orqanları arasında əməkdaşlıq müzakirə olunub

Baş prokuror Kamran Əliyevin dəvəti ilə Tacikistan Respublikasının baş prokuroru Yusuf Raxmonun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib. Qonaqlar həmçinin Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini anıblar.

Baş Prokurorluqda keçirilmiş ikitərəfli görüşdə baş prokuror Kamran Əliyev tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, dövlət başçılarının apardıqları uzaqgörən xarici siyasət nəticəsində ölkələrimiz arasında əlaqələrin etibarlı əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və tərəfdaşlıq prinsipinə əsaslandığını vurğulayıb.

Baş prokuror Prezident İlham Əliyevin həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkəmizdə hüquq qaydasının möhkəmləndirilməsi və qanunun aliliyinin təmin olunması istiqamətində aparılan islahatlar barədə həmkarına məlumat verib.

Azərbaycan Respublikasının prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Tacikistan Respublikasının baş prokuroru Yusuf Raxmon göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Azərbaycan və Tacikistan prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayaraq bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin zəruriliyindən və perspektivlərindən danışıb.

Kamran Əliyev rəşadətli ordumuzun Qələbə qazandığı 44 günlük Vətən müharibəsi dövründə dost Tacikistanın ölkəmizə mənəvi dəstəyinə görə təşəkkürünü bildirərək Müzəffər Ali Baş Komandan İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Qarabağda aparılan geniş quruculuq bərpa işləri haqda həmkarını məlumatlandırıb.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında müzakirələr aparılıb.

Bundan başqa, nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binasında prokurorluğun struktur qurumlarının rəhbərləri ilə görüş keçirib. Qonaqlara ölkəmizin prokurorluq orqanlarının fəaliyyəti haqda geniş məlumat verilib.

Nümayəndə heyəti həmçinin Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olub, onlara mərkəzdə nümayiş etdirilən Salvador Dalinin əsərlərindən ibarət "Sürrealizm mənəm" və avtomobil kolleksiyası sərgisi barədə məlumat verilib.

Daha sonra qonaqlar "İçərişəhər" Muzey Mərkəzinin tərkibində fəaliyyət göstərən Şirvanşahlar Sarayı Kompleksi və Qız qalası, həmçinin UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş digər tarixi-memarlıq abidələri ilə tanış olublar.

Həmçinin qonaqlar paytaxtımızda keçirilən "Formula-1" Azərbaycan Qran-prisini izləyiblər.

Tacikistan baş prokurorunun ölkəmizə işgüzar səfəri başa çatıb.

# Yeni intibah dövrünün müəllifləri və AYRILMAZ DOSTLAR



Qardaşlar həmişə dost olmurlar.

Həqiqi və səmimi dostlar isə bir-birilərini qardaşdan da artıq sevirlər!

*Qardaş qədər istədiyin, səmimi və etibarlı dostun olması hər kəsə də nəsib olmur.*

*Bu, Allahın insanlara verdiyi böyük nemət və ərməğan sayılır.*

**Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluğunu və qardaşlığını bütün dünya görür, bilir.**

*Türkiyəni və Azərbaycanı sevənlər bu dostluqla sevinir, fəxr edir, qürur duyurlar.*

*Bədxahlarımız isə uzaqdan həsədlə, paxıllıqla, qibtə ilə baxır, pərişan olurlar.*

**Prezident İlham Əliyevin təbirincə desək, sevinən qoy sevinsin, sevinməyən isə kor olsun!**

**Həqiqət budur ki, müasir dünyada İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan kimi bir-birilərinə, hörmət və ehtiramla yanaşan, dar gündə bir-birinin yanında olan nə dövlət başçıları var, nə də həqiqi və səmimi dostluğun şirin barından bəhrələnən dövlətlər!**

❖ ❖ ❖

Hər iki xalqın dostluq və qardaşlıq haqqında çoxlu müdrik sözləri, fikirləri var.

Hətta hamısını bir yerə toplasan, qalın kitab olar.

Onlardan ikisini xatırlatmaq istəyirik:

**"Tək əldən səs çıxmaz"** və

**"Güc birlikdədir!"**







Bəli, iki əlin birləşməsindən yaranan səs gur və güclü olur!

Belə səsi hamı eşidir!

Tək adamın gücü çatmadığı yükü isə əl-ələ verərək qaldırmaq mümkün və asan olur!

Bütün bunlar hər birimizin dəfələrlə şahidi olduğu, həyatın və zamanın sınaqlarından çıxmış gerçəkliklərdir.

❖ ❖ ❖

*Tarixən Türkiyənin qüdrətli başçıları, iqtisadi cəhətdən güclü dövlətləri olub.*

*Ötən əsrin son dönəmlərində Turqut Özalın və Süleyman Dəmirəlin rəhbərlik etdikləri dövrü türk qardaşlarımız tez-tez xatırlayırlar.*

*Azərbaycanda da sovet dövründə və müstəqilliyin ilk illərində Ulu Öndər Heydər Əliyevin ölkəyə rəhbərliyini heç zaman unutmur və daim minnətdarlıqla anırlar!*

**Türk tarixinin xatırlanan dönəmində və Azərbaycanın sovet zamanında nə qədər uğurları, iqtisadi imkanları olsa da, daxili və xarici siyasət məsələlərində tam sərbəstlikləri, müstəqillikləri olmayıb.**

Türkiyə NATO-nun üzvü kimi təkcə öz maraqlarını deyil, alyansın digər dövlətlərinin də maraqlarını nəzərə almalı olub.

Məsələn, Azərbaycanın yenicə müstəqillik qazandığı bir vaxtda Naxçıvanın ən ağır dövründə orada yaşayan Ulu Öndər Heydər Əliyev Türkiyənin ozamankı baş naziri Süleyman Dəmirəldən kömək istədi.

*Türk qardaşlarımız blokadada yaşayan naxçıvanlılara yardım göstərmək üçün "Ümid körpüsü" tikdilər, bütün zəruri yardımları göstərdilər.*

**Xalqımız hər an bu təmənnasız dost yardımını minnətdarlıqla xatırlayır.**

Lakin Kəlbəcərin işğalı zamanı mülki vətəndaşların təxliyəsi üçün Süleyman Dəmirəl iki mülki vertolyot ayıra bilmədi.

Bu, NATO-nun hərbi əməliyyatlarda iştirakını təsdiqləyəcək addım olardı...

**Ulu Öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərliyi dövründə respublikanı güclü inkişaf yoluna çıxardı, SSRİ-nin qabaqcıl regionlarından birinə çevirdi.**

*Amma xarici siyasət məsələləri Moskvanın müstəsna səlahiyyətində olduğundan Türkiyə ilə əlaqələr qurmaq, yaxınlaşmaq, açıq-aşkar şəkildə dostluq etmək mümkün deyildi.*

**Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan öz rəhbərliyi dövründə Türkiyənin yeni intibahının yaradıcısı oldu:**

- Ölkəni iqtisadi cəhətdən qüdrətləndirdi, ən yeni texnologiyaların tətbiqini, çox sahədə dünyada birincilər sırasına çıxmasını təmin etdi;
- "FETO"nun dövlətin təhlükəsizliyinə qarşı yönəlmiş xain və xəyanətkar əməllərinə birdəfəlik son qoydu;
- Türkiyənin yalnız öz maraq və mənafelərini güdən müstəqil daxili və xarici siyasət yürütməsinə birmənalı şəkildə nail oldu;
- Ölkənin müdafiə sənayesini gücləndirdi, yeni texnologiyalara əsaslanan ən müasir PUA-ların, modern silahların hazırlanmasını və istehsalını qaydaya saldı;
- Tarixində ilk dəfə Türkiyəni qaz istehsalçısına çevirdi;
- Türk dövlətlərinin birliyinin yaranmasına, birgə əməkdaşlıqlarına böyük töhfələr verdi!

**Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən, onun yarımçıq qalmış işlərini uğurla həyata keçirən İlham Əliyev də Azərbaycanın yeni intibahının müəllifi oldu:**

- Yalnız xalqın və dövlətin maraqlarına xidmət edən müstəqil daxili və xarici siyasət yeritdi;
- Azərbaycanı Cənubi Qafqazın ən güclü dövlətinə və söz sahibinə çevirdi;
- Türkiyə və Azərbaycana böyük faydalar gətirəcək "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərini işə saldı;
- Açıq dənizə çıxışı olmayan Azərbaycanı beynəlxalq nəqliyyat logistika mərkəzinə çevirdi;




- Azərbaycanı Avropanın ən etibarlı tərəfdaşı kimi tanıdaraq ölkənin dostlarının sayını artırdı;
- Dəyərli təşəbbüsləri, qabaqlayıcı addımları və uzaqgörənliyi sayəsində Azərbaycanın dünyada nüfuzunu artırdı, mövqelərini möhkəmləndirdi;
- Otuz il işğal altında qalan torpaqları 44 günlük Vətən müharibəsində azad edərək Azərbaycanı qalib və vüqarlı dövlətə çevirdi.

*İyirmi illik rəhbərlikləri dövründə iki qardaş dövlətin yeni intibahlarının yaradıcıları olan xarizmatik dövlət rəhbərlərinin səmimiliyi və mehribanlığı, möhkəm dostluğu və qardaşlığı nə qədər fərəhli, qiymətli və əzizdir!*

❖ ❖ ❖

**İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın prezidentlikləri dövründə Azərbaycan-Türkiyə əlaqə və əməkdaşlığının pik nöqtəyə çatması da fərəhləndirici haldır.**

**Vətən müharibəsindəki qələbədən az sonra bu dostluğun, qardaşlığın tarixi təsdiqinə və müqəddəs sənədinə çevrilən Şuşa Bəyannaməsi isə münasibətlərimizin əbədiliyinin mühüm göstəricisidir.**

Faktlardan göründüyü kimi, bunadək də Azərbaycan və Türkiyə daim birlikdə hərəkət edib, heç zaman bir-birilərinin maraqlarına xələl gətirməyiblər.

*Əksinə, qardaş olaraq tikələrini yarı bölüb, xoş və çətin günlərdə bir-birilərini yaddan çıxarmayıblar.*

Bir neçə paralel fakta birlikdə nəzər salaq:

- Rəcəb Tayyib Ərdoğanın iştirak etmədiyi tədbirlərin birində Türkiyənin əleyhinə fikir söyləndə Azərbaycan Prezidenti "Türkiyə Prezidenti burada yoxdur, amma mən buradayam", - deyə fürsətçinin ağzından vurdu!

İrəvanda keçirilən beynəlxalq ağırlıqqaldırma yarışında erməni dığasının Azərbaycan bayrağını yandırması cavabsız qalmadı. Türkiyə atletləri qızıl medal qazanaraq himnlərini səsləndirdilər, bayraqlarını qaldırarkən qələbələrini Azərbaycana həsr etdiklərini dünyanın diqqətinə çatdırdılar!

- Azərbaycan neft-qaz sərvətlərinin dünya bazarlarına çıxarılmasında, transmilli layihələrinin gerçəkləşdirilməsində qardaş ölkəni unutmayıb, daim maraqlarını təmin edib.

Belə ki, BTC, BTQ və "Cənub qaz dəhlizi" Türkiyənin ərazisi ilə dünya bazarına çıxarılıb, dost ölkənin qaz habına çevrilməsinə Azərbaycan öz töhfələrini verib!

İkinci Qarabağ müharibəsi başlayanda qardaş Türkiyə sözü, özü və silahları ilə daim Azərbaycanın yanında oldu!

- Düşmənlərimizin ciddi narahatlığına səbəb olan "F-16"-lar Azərbaycan ərazisində saxlanıldı, ermənilərin havadarlarına və müdafiəçilərinə ciddi mesaja çevrildi.

Bu gün Qarabağın dirçəldilməsində türk şirkətləri yaxından və həvəslə iştirak edir, prosesin sürətlənməsinə öz töhfələrini verirlər.

- Dəhşətli zəlzələnin gətirdiyi fəlakət və dağıntılara ən çox yanan və ağrıyan azərbaycanlılar oldu. Azərbaycan xalqı təbii fəlakətin ilk günlərindən köməyə gedərək əlindən gələni etdi. İndi zəlzələdən ən çox zərər görən ərazidən biri kimi Kahramanmaraşda Azərbaycan dövlətinin yardımı ilə 1000 ev və sosial obyektləri olan yeni şəhər inşa edilir.

*Səmimi qardaşlığa ən sonuncu və bariz nümunə olacaq daha bir fakt:*

- Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə qüdrətli hərbi dövlətə çevrilən qardaş dövlət yenə də öz uğur və nailiyyətlərini bizimlə səxavətlə bölüşür!

Tezliklə ölkəmizdə "Bayraktar" mərkəzi yaradılacaq, Azərbaycan-Türkiyə birlikdə yeni hərbi məhsullar istehsal edəcəklər!

**Türklər və azərbaycanlılar hər iki dövlətin banilərinin müqəddəs vəsiyyət kimi səslənən müdrik kəlamlarını heç zaman unutmurlar!**

*Mustafa Kamal Atatürk:* "Azərbaycanın sevinci sevincimiz, kədəri isə kədərimizdir".

*Heydər Əliyev:* "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir".

*Müdrik rəhbərlərimizin söylədikləri bu qiymətli kəlamlar hər an yadımızdadır və hər dəfə öz təsdiqini əməli işlərimizdə, qarşılıqlı əlaqə və münasibətlərimizdə tapır.*

❖ ❖ ❖

Bugünkü dünya neçə illərdir ki, ABŞ-nin və Avropanın timsalında lider böhranı keçirir.

Makron kimilərinin hakimiyyətə gəlməsi nəinki demokratik dəyərlərə dağıdıcı zərbə vurur, ölkə daxilində insanların narazılıq dalğalarının dayanmadan artmasına, ölkələrarası münasibətlərdə gərginliklər yaşanmasına, beynəlxalq hüququn iflicinə, ziddiyyət və qarşıdurmalara səbəb olur.

**Uzun illərdir ki, qoca qitədə və ABŞ-də hakimiyyət başında görkəmli dövlət xadimləri görünmür.**

*Hazırkı böhranlı illərdə türkdilli dövlətlərə xarizmatik, uzaqgörən, dünyada baş verən prosesləri dərindən bilən, hadisələri qabaqlamağı bacaran, mənsub olduqları xalqın və dövlətin maraqlarını məharətlə təmin edən, yüksək diplomatik keyfiyyətlərə malik əsl liderlərin rəhbərlik etməsi hədsiz fərəh və razılıq doğurur.*

**İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan kimi qətiyyətli, aydın və konkret mövqeli, sözü və əməli bütöv, dünyanın digər dövlət başçıları tərəfindən hörmət və ehtiramla qarşılanan və birmənalı şəkildə qəbul olunan prezidentlərin səmərəli və möhtəşəm fəaliyyətləri sonsuz qürur doğurmaqla yanaşı, dünyaya da böyük fayda gətirir.**

**Rəcəb Tayyib Ərdoğanın Rusiya-Ukrayna müharibəsi fonunda dünyanı taxıl böhranından qurtarması, İlham Əliyevin qaz böhranı dövründə Avropanın dadına çatması, üstəlik, "yaşıl enerji" ilə təminatda atdığı uzaqgörən addımlar hamı tərəfindən təqdir edilir.**

Türkiyədə ən yeni texnologiyalara əsaslanan müasir silahların və PUA-ların istehsalı, onların uğurla sınaqdan keçərək özünü doğrultması, müstəqil dövlət kimi ilk dəfə müharibə aparan Azərbaycanın "XXI əsrin ən yeni müharibəsi" kimi dünyaya nümunə olacaq taktika və stategiya nümayiş etdirməsi dövlətə rəhbərlik edən şəxsiyyətlərin qeyri-adiliyindən, intelektual səviyyələrindən və siyasətçi, diplomat kimi yüksək bacarıqlarından xəbər verir!

Rəhbərlərin əl-ələ verib birgə addımlar atmaları, öz dövlətlərinin imkanlarını birləşdirərək əlbir fəaliyyət göstərmələri ölkələrinə də, mənsub olduqları xalqa da fayda və mənfəət gətirir.

❖ ❖ ❖

Adətən, dövlətlər və rəhbərlər kiməsə, nəyəsə qarşı birləşirlər.

Təkcə iki dövlət üçün yox, artıq dünya üçün problemə çevrilən Rusiya-Ukrayna müharibəsi dediklərimizə əyani misaldır.

**Türkiyə ilə Azərbaycanın, Rəcəb Tayyib Ərdoğan ilə İlham Əliyev dostluğu və əməkdaşlığı isə dünyanı müharibə və dağıntılardan, miqrant problemindən, ərzaq və enerji böhranlarından qurtarmağa xidmət edir!**

**Məhz zəmanəmizin iki müdrik və görkəmli dövlət xadiminin əlbir və əlaqəli fəaliyyəti sayəsində Türkiyə-Azərbaycan bir millət, iki dövlət və bir yumruğa çevrildi!**

Getdikcə dünyada bu dostluğun dəyərini anlayanların və faydasını dərk edənlərin də sayı artır.

Tanrı bu sevgini və sarsılmaz dostluğu bizə çox görməsin!

**Bəxtiyar SADIQOV**



# Heydər Əliyev İli 2023

# Ümummilli Lider və onun Azərbaycanı

*Əvvəli 1-ci səh.*

1969-cu ildə Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə irəli çəkilməsi respublikanın həyatında böyük ümidlər verən bir sıra yeniliklərlə müşayiət olunmağa başlamışdı. Diqqəti cəlb edən əsas məqamlar idarəetmənin xarakterinin ciddi şəkildə dəyişməsindən tutmuş neqativ halların aradan qaldırılması sahəsində prinsipiallıq, dövrə məxsus işgüzar fəallığın artırılması, əhalinin güzəranının yaxşılaşdırılması sahəsində real layihələrin hazırlanması formalarında təzahür edən çoxvektorluluq idi. Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi ilə ayrı-ayrı sahələrdə hiss edilən irəliləyişlərin özünü göstərməsi arasında tarixi məsafənin yetərincə qısa olması qeyd edilməsi gərəkən digər cəhət sayıla bilər. 1970-ci ilin Azərbaycanının ondan əvvəlki dövrün Azərbaycanından xeyli dərəcədə fərqləndiyini insanlar aydın şəkildə görür və qiymətləndirirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ən mühüm xidmətləri sırasında respublikanın iqtisadi potensialının inanılmaz dərəcədə yüksəlməsi ayrıca vurğulanmağa layiqdir. O dövrün tələbləri baxımından ən müasir sənaye sahələrinin qurulması, hazır məhsulların istehsalı müəssisələrinin istifadəyə verilməsi, yüksək elm və texnologiya tutumlu sahələrin yaradılması iqtisadi sahədə ciddi dəyişiklikləri stimullaşdırırdı. Neft sənayesi sahəsini çıxmaq şərti ilə əsasən aqrar iqtisadiyyat respublikası kimi tanınan Azərbaycan istifadəyə verilən çoxsaylı müasir zavod, fabrik, son məhsul istehsalı müəssisələri sayəsində dövrün inkişaf etmiş sənaye respublikasına çevrilərək iqtisadi inkişaf sahəsində inanılmaz sıçrayışa nail oldu.

Qısa vaxtda qeyri-adi dəyişikliklərə məruz qalan digər iqtisadi fəaliyyət sahəsinin bariz nümunəsi kənd təsərrüfatı sayılmalıdır. Heydər Əliyevin rəhbərliyə gəlməsinə qədər əsasən aqrar respublika kimi tanınan Azərbaycanda kənd təsərrüfatı istehsalı səmərəlilik səviyyəsinə görə SSRİ-də ən aşağı pillədə qərarlaşırdı. Bu isə respublikanın iqtisadi göstəricilərində əks olunmaqla yanaşı, həm də əhalinin həyat səviyyəsini təyin edən başlıca amillərdən biri idi. Kənd təsərrüfatı sahəsində durğunluğu aradan qaldırmadan Azərbaycanın sosial və iqtisadi inkişafı sahəsində ciddi irəliləyişə nail olmağın qeyri-mümkünlüyünü Heydər Əliyev ona məxsus olan fəhm ilə çox aydın dərk edirdi. Ona görə də kənd təsərrüfatının yenidən qurulması və sürətli inkişafı onun fəaliyyət proqramının mərkəzi məsələsi kimi səciyyələndirilməlidir. Sözügedən proqramın uğurla reallaşmasının ən parlaq nümunəsindən biri ötən əsrin 60-cı illərində kənd təsərrüfatı sahəsində ən aşağı göstəricilərə malik olan Azərbaycanın artıq 70-ci illərdə keçmiş SSRİ-də ən çox üzüm istehsal edən respublikaya çevrilməsi hesab edilməsidir. Parelel olaraq pambıqçılıq sahəsində istehsal göstəricilərinin 5-6 dəfəyədək yüksəlməsi sayəsində Azərbaycan Sovet İttifaqının ən müasir aqrar-sənaye kompleksinə malik olan bölgəsi kimi tanınmağa başladı.

1970-ci illərin yüksəliş tarixinin diqqətəlayiq nümunələri sırasında Bakının və Azərbaycanın digər bölgələrinin simasının heyrətamiz dərəcədə dəyişdirilməsi xüsusi məna və əhəmiyyət kəsb edir. Azərbaycan eyni zamanda mədəni intibah dövrünü yaşayırdı. Elm, təhsil, mədəniyyət böyük canlanma mərhələsinə daxil olmuşdu. Azərbaycan mədəniyyəti respublika hüdudlarını inamla aşaraq iqtisadi inkişafı ilə məşhurlaşan respublikanın şöhrətinin artmasına öz əhəmiyyətli töhfəsini verməkdə davam edirdi.

Heydər Əliyevin titanik iradəsi, qətiyyəti və zəhməti sayəsində 1969-1982-ci illəri əhatə edən dövrdə Azərbaycan bütünlüklə dəyişdi, şan-şöhrət qazandı, insanların yaşayış səviyyəsi yüksəldi, həyat bütünlüklə yeni ölçülər kəsb etdi. Azərbaycanın gələcəkdə o zaman bəlkə də aydın görünməyən yeni keyfiyyət halına keçməsi üçün ilkin bünövrə qoyuldu. O keyfiyyət halının adı isə 1980-ci illərin sonu - 90-cı illərin əvvəllərində milli məfkurə olaraq təzahür edən xalqın müstəqillik ruhu idi.

### Heydər Əliyev və Azərbaycanın milli dirçəlişi

Ümummilli Lider Heydər Əliyevin müstəsna tarixi xidmətləri sırasında Azərbaycan xalqının milli dirçəlişində oynadığı rol ayrıca vurğulanmağa layiqdir. Azərbaycanda milli dirçəliş yolunda milli ruhlu mütəfəkkirlərin bir neçə nəslinin qətiyyət və mübarizlik nümunəsi olan fədakarlığı xalqımızın milli yaddaşının parlaq səhifələrini təşkil edir. XIX əsrdən başlayan və bolşevik istilasından sonra müəyyən qədər səngiyərək əsasən Azərbaycandan kənarda yaşamağa məhkum edilən milli ruhlu mütəfəkkirlərin mücadiləsi formasında davam etdirilən milli dirçəliş hərəkatı XX əsrin 60-cı illərinin sonlarında Azərbaycanın ümumi inkişafının tərkib hissəsi kimi özünü göstərməyə başladı. Bunun həlledici səbəbləri arasında Heydər Əliyev amilinin mühüm əhəmiyyətə malik olması indi hamının etiraf etdiyi tarixi həqiqətdir.

Milli dirçəlişin əsasında hamılıqla qəbul edilən milli ideya, ümumi milli inkişaf və xalqı təmsil etmək statusuna sahib olan liderin mövcudluğu dayanır. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın iqtisadi, sosial və mədəni inkişafı xalqımızın milli dirçəlişi yolunda gərəkli olan şərtlərin formalaşmasına birbaşa təkan verirdi. Ümummilli Liderin sovet dönəmində fəaliyyətinin hərtərəfli təhlili respublikada sürətli iqtisadi və sosial yüksəlişin uzağagedən məqsədlərinin olduğunu iddia etməyə əsas yaradır. Xalqın milli dirçəlişinin ilkin şərti onun ümumi, o cümlədən iqtisadi inkişafı hesab edilir. Milli dirçəlişin ilk olaraq istinad etdiyi bünövrə toplumun özünə inamı, sərvətlərinin sahibi olmaq məfkurəsinin formalaşması sayılır. Yalnız özünə inanan, öz dəyər və sərvətlərinə sahib çıxa bilən xalq həm də öz taleyinin sahibi olmaq səviyyəsinə yüksələ bilir. Ötən əsrin 70-80-ci illərinin iqtisadi yüksəlişi bütün digər müsbət təsirləri ilə yanaşı, xalqın milli dirçəlişinin əsaslarının yaradılması kimi tarixi missiyanı da qaçılmaz olaraq yerinə yetirirdi. Artıq 1980-ci illərin əvvəllərində nəinki Azərbaycan, habelə Azərbaycan xalqı 60-cı illərin Azərbaycanı və Azərbaycan xalqı deyildi.



Milli dirçəlişin ən mühüm şərtlərindən birinin milli lider amili ilə əlaqədar olması tarixi təcrübənin sübuta yetirdiyi həqiqətlər sırasındadır. Milli identikliyin və milli ideyanın formalaşması tarixi şəxsiyyətlər olan liderlərin yerinə yetirdiyi başlıca funksiyalardandır. Lideri rəhbərdən fərqləndirən cəhət birincinin xalqın maraqlarını daha aydın ifadə edə bilməsindən və bu zəmində onun özünü təkcə etnik birlik kimi deyil, həm də siyasi vahid kimi dərk etməsinə rəvac verməsindən ibarətdir.

Bu mənada Heydər Əliyev sovet sisteminin Azərbaycana təyin etdiyi növbəti rəhbər yox, millətin hamılıqla qəbul etdiyi lideri idi. O, təkcə Bakıda olanda deyil, həm də Moskvada, SSRİ-nin ali rəhbərliyində təmsil olunanda da eyni dərəcədə Azərbaycan xalqının lideri missiyasını yerinə yetirirdi. Bu o zaman idi ki, artıq Azərbaycanın sovet sisteminin təyin etdiyi başqa rəhbəri var idi. Heydər Əliyevin liderlik missiyası və rolu onun SSRİ rəhbərliyindən istefa verməsindən sonra yeni sovet rəhbərliyi tərəfindən haqsızlıqlarla, təzyiq və böhtanlarla üzləşəndə də xalq tərəfindən etiraf olunurdu. Ulu Öndərin Azərbaycanda müasir milli dirçəlişin beşiyinin başında dayandığını bundan daha inandırıcı şəkildə sübuta yetirə biləcək amili təsəvvür etmək mümkün deyildir.

Ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində Azərbaycanı bürüyən xalq hərəkatı milli oyanışın parlaq ifadəsi sayılmaq qədər əhəmiyyətli və dəyərlidir. Heydər Əliyevin milli dirçəlişin, müstəqilliyə aparan mücadilənin hərəkətverici və ilhamverici qüvvəsi olması sübuta ehtiyac duymayan tarixi hadisə və həqiqətdir. Ümummilli Liderin müstəqil Azərbaycanın qurucusu missiyası əslində öz başlanğıcını məhz həmin vaxtdan götürür.

### Kremli fəth edən azərbaycanlı

Sovet dövrü Azərbaycanın çoxəsrlik tarixinin bir hissəsidir. Bu dövr istər tarixçilər, istər siyasətçilər, istərsə də sadə vətəndaşlar tərəfindən çox fərqli şəkildə qiymətləndirilir. Onu tariximizin qürurverici səhifəsi saymasaq da, tam qara rəngli illər hesab etmək də ədalətli olmazdı. Müasir Azərbaycan Respublikasının iqtisadi potensialının əhəmiyyətli bir hissəsinin yaradılması həmin dövrün payına düşür. Elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafında sovet dövrünün rolunu danmaq mümkün deyil. Bu mənada sovet rejiminin xalqımıza vurduğu yaralardan düzgün nəticə çıxarmaq, eyni zamanda nailiyyətlərimizi qiymətləndirməyi bacarmaq ən müdrik seçim olardı. Azərbaycan xalqı zorən sovet rejimi çərçivəsində yaşamağa məhkum edilmişdi və mövcud imkanlardan maksimum faydalanmaqdan savayı seçimi yox idi. Heydər Əliyev respublika rəhbəri kimi bütün bu reallıqları dərk edərək və mövcud imkanlardan ən səmərəli şəkildə faydalanmaq yolunu tutaraq Azərbaycanın iqtisadi, sosial və mədəni yüksəlişinə möhtəşəm töhfələr verməyə nail oldu.

Heydər Əliyev dünyanın iki superdövlətindən biri sayılan Sovet İttifaqının xüsusilə seçilən parlaq partiya və dövlət xadimləri sırasında dayanırdı. Onun sovet siyasi olimpinin zirvəsinə yüksəlişi müəyyən mənada obyektiv zərurət, sosial sifariş parametrlərinə malikdir. Artıq qeyd edildiyi kimi, Heydər Əliyevin Azərbaycanın rəhbəri vəzifəsinə irəli çəkilməsi respublikanın həyatında narahatlıq yaradan böhranlı dövrə təsadüf edir. Üzərinə düşən vəzifələrin ağırlığına rəğmən yeni rəhbərin idarəçilik uğurları nəinki Azərbaycanın iqtisadi və sosial böhrandan çıxarılması ilə nəticələndi, habelə onun bacarıqlı dövlət xadimi imicini formalaşdırdı.

Ötən əsrin 70-80-ci illərində Azərbaycan SSRİ-nin ən dinamik inkişaf edən respublikası, Heydər Əliyev isə ən parlaq respublika rəhbəri hesab edilirdi. Onun idarəçilik uğurları və şəxsi keyfiyyətləri gələcək siyasi perspektivlərinə möhkəm zəmin hazırlamışdı. SSRİ rəhbərliyindəki süstlük, çeviklik və təşəbbüskarlığın çatışmaması, ölkədə müşahidə olunmağa başlayan böhran meyilləri və sairə Heydər Əliyev kimi təşəbbüskar, yenilikçi, eyni zamanda enerjili və yorulmaz rəhbərlərə tələbatı ön plana çıxarmışdı. Ölkənin həm siyasi elitası, həm də bütünlükdə cəmiyyət SSRİ-nin gələcəyini yeni rəhbərlərin irəli çəkilməsində görürdülər. Bu baxımdan artıq bütün dövlət miqyasında tanınan və böyük hörmət qazanmış Heydər Əliyevin Moskvaya, yüksək dövlət vəzifəsinə irəli çəkiləcəyi arzulanır və gözlənilirdi. Ona görə də 1982-ci ildə Azərbaycanın enerjili rəhbərinin həmin dövr üçün ən yüksək siyasi status sayılan Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrinə irəli çəkilməsinin onun şəxsi siyasi karyerasının əlamətdar hadisəsi prizmasından qiymətləndirilməsi ilə yanaşı, süquta doğru gedən ölkənin xilasının şərtlərindən biri olaraq diqqətdən keçirilməsi doğru olardı.

SSRİ-nin süqutunun xiffətini çəkənlərin böyük qismi o zaman Heydər Əliyevin böyük təcrübəsindən yetərincə istifadə olunmadığını bu günə qədər vurğulamaqdan yorulmayıblar. Onun 1987-ci ilin sonlarında SSRİ rəhbərliyindən istefa verməsindən az keçmiş ölkədə çaxnaşmaların başlaması və imperiyanın 1991-ci ildə qəfildən çökməsi sözügedən iddialarda böyük həqiqət payı olduğunu söyləməyə əsas verir. Lakin bu fikirlər heç bir halda SSRİ-nin süqutuna fərqli prizmadan yanaşmaq cəhdi kimi qiymətləndirilə bilməz. Sovet imperiyasının ömrünü başa vurması Azərbaycanın müstəqilliyinə yol açmış, müasir Azərbaycan Respublikasının yaranması ilə nəticələnmişdir ki, hər bir azərbaycanlı bu tarixi hadisənin xoşbəxtliyini yaşamaqdadır. Heydər Əliyevin özü də SSRİ-nin süqutunu məhz bu nöqteyi-nəzərdən qiymətləndirir, müstəqil Azərbaycan dövlətinin qurulmasını böyük tarixi nailiyyət sayırdı. Bununla yanaşı, Azərbaycan xalqının nümayəndəsinin o dövrün superdövlətinin ali rəhbərliyində təmsil olunması özlüyündə böyük tarixi hadisə hesab edilməyə layiqdir. Bu, Heydər Əliyevin bioqrafiyasının əlamətdar hadisəsi olmaqla yanaşı, özündə möhtəşəm milli qürur və iftixar yükü daşıyırdı. Heydər Əliyevin Kremldə yüksək məqamda oturması onun ümummilli liderlik statusunun formalaşmasına bilavasitə təsir göstərərək Azərbaycan xalqının milli oyanışının qüdrətli amili rolunda özünü büruzə verirdi.

### Müstəqil Azərbaycanın qurucusu

SSRİ-nin dağılması Azərbaycanın müstəqilliyini elan etməsinə zəruri hüquqi-siyasi əsasları təmin etdi. 1991-ci ildə Azərbaycan dövləti müstəqilliyini elan etdi, dünyanın siyasi xəritəsində suveren Azərbaycan dövləti meydana gəldi. Qarşıda onun siyasi-iqtisadi əsaslarını yaratmaq, sovet keçmişindən miras qalan totalitar ənənələrin demokratik dəyərlərə keçidini təmin etmək kimi mürəkkəb vəzifələrin həll edilməsi dayanırdı. Ermənistan respublikasının Azərbaycana qarşı ərazi iddiaları zəminində alovlanan hərbi toqquşmalar, təcavüz, bir sıra rayonların erməni işğalına məruz qalması və onun acı nəticələri həm gənc dövlətin idarə edilməsini, həm də tarixi keçidin təmin edilməsindən irəli gələn vəzifələrin reallaşmasını ciddi şəkildə ağırlaşdırırdı.

Yenicə yaranmış Azərbaycan Respublikasında keçid mərhələsini yaşayan istənilən dövlət üçün arzuedilən müdrik rəhbərliyin çatışmaması yuxarıda göstərilən taleyüklü məsələlərin həllini müşkülə salan daha bir həlledici amil sayılmalıdır. SSRİ-nin süqutu ərəfəsində vüsət alan azadlıq və demokratiya çağırışları fonunda hakimiyyətə gələn xalq cəbhəsi hökuməti nə tarixin onların üzərinə qoyduğu məsuliyyətli vəzifəni dərk edə, nə də dövləti idarə etməyə gərəkli olan ən sadə idarəçilik təcrübəsini nümayiş etdirə bildi. Vəzifələrin mürəkkəbliyi və vəziyyətin gərginliyi qısa vaxtda idarəçiliyin iflic vəziyyətə düşməsinə, ölkədə total böhranın yaranmasına gətirib çıxardı. Yaranmış vəziyyətdən istifadə edən qüvvələrin təhriki ilə ölkənin cənubunda və şimalında baş qaldıran separatçı hərəkatlar isə gənc Azərbaycan Respublikasının dövlət müstəqilliyinə real təhlükəyə çevrilmişdi. Xalq ölkənin mövcudluğunun xilası və böhranın aradan qaldırılmasının yeganə yolunu Heydər Əliyevin rəhbərliyi altında yeni hökumətin yaradılmasında görürdü.

Gənc Azərbaycan Respublikasının parçalanmaqdan və böhrandan xilas edilməsi naminə xalqın təkidləri əsasında Heydər Əliyevin rəhbərliyi altında yeni hökumətin yaradılması müasir tariximizdə qayıdış və qurtuluş hadisələri kimi qeyd edilir. Hakimiyyətə qayıdan Ümummilli Lider ilk növbədə daha təhlükəli hal alan separatizmi dəf etdi, ikinci növbədə ölkəni bürümüş xaos, anarxiya və qanunsuzluqlar aradan qaldırıldı, növbəti addım isə erməni təcavüzünün genişlənməsinin qarşısının alınması, bir sıra həyati vacib strateji vəzifələrin həyata keçirilməsi naminə atəşkəsin elan edilməsi oldu. Bir sözlə, müstəqil Azərbaycan dövlətinin qurulması üçün zəruri olan ilkin şərtlər bütünlüklə təmin edildi.

Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulması strategiyası hərtərəfli düşünülmüş, obyektiv amillərin və mövcud resursların nəzərə alınmasına əsaslanan fəaliyyət proqramı sayılmalıdır. Bu proqram ilk dəfə onun Yeni Azərbaycan Partiyasının yaradılması təklifi ilə 91 ziyalının müraciətinə 16 oktyabr 1992-ci il tarixli cavab məktubunda geniş şəkildə şərh edilmişdir. Sözügedən proqram qısa şəkildə sabitliyin və əmin-amanlığın təmin edilməsi, xalqın birliyini möhkəmləndirən milli ideyanın elan edilməsi, hüquqi, siyasi, iqtisadi islahatların həyata keçirilməsi, azad və demokratik cəmiyyətin yeni dəyərlərinin bəyan edilməsi, Azərbaycanın maraqlarına xidmət edən balanslaşdırılmış xarici siyasətin həyata keçirilməsi kimi səciyyələndirilə bilər.

Ötən əsrin 90-cı illəri Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulmasına xidmət göstərən qeyd olunan proqramının ardıcıl surətdə həyata keçirilməsi ilə yadda qalmışdır. 1995-ci ildə Azərbaycanın yeni Konstitusiyasının qəbul edilməsi gənc müstəqil dövlətin siyasi sisteminin və qanuni əsaslarının yaradılması istiqamətində atılan cəsarətli addımların parlaq nümunəsidir. İnsan hüquq və azadlıqlarının qorunmasının prioritet elan edilməsi, siyasi azadlıqların, siyasi plüralizmin konstitusion əsaslarının təsbit, ölüm hökmünün ləğv, senzuranın qadağan edilməsi cəmiyyətdə qərarlaşan yeni dəyərlərinin yalnız bir qismidir.

Azad iqtisadi münasibətlərin formalaşdırılması, torpaq islahatlarının həyata keçirilməsi, iqtisadi liberallaşdırma, xüsusi mülkiyyətin qorunmasının etibarlı hüquqi bazasının yaradılması və bu qəbildən olan digər çoxsaylı təşəbbüslər iqtisadi keçidin təmin edilməsinə etibarlı əsaslar yaratdı.

Müstəqilliyin iqtisadi əsaslarının yaradılmasında Heydər Əliyevin müdrikliyinin parlaq nümunəsi sayılan məşhur "Əsrin müqaviləsi"nin rolunu və əhəmiyyətini vurğulamamaq mümkün deyil. Müstəqilliyin ilk illərində yol verilən ciddi nöqsanların acı nəticələrinin aradan qaldırılması, yeni iqtisadiyyatın, ölkənin gələcək inkişafının etibarlı əsaslarının yaradılması, habelə beynəlxalq münasibətlərdə Azərbaycana lazım olan dəstəyin qazanılması Ulu Öndərin neft strategiyasından ayrılıqda təsəvvür edilə bilməz. Lakin Heydər Əliyevin neft startegiyasının tarixi əhəmiyyəti təkcə Azərbaycanın iqtisadi keçidinin təmin edilməsi ilə məhdudlaşmadı. Ölkəmizin dünyanın ən uğurlu gənc dövləti kimi tanınması da həlledici dərəcədə Ulu Öndərin uzaqgörənliyinin nümunəsi olan neft strategiyasının sayəsindədir.

Azərbaycan xalqı qarşısında uzun illər böyük xidmətlər göstərmiş Heydər Əliyev müstəqil dövlətimizin qurulmasını özünün şah əsəri hesab edir, onunla haqlı olaraq qürur duyduğunu heç zaman gizlətmirdi. Əlamətdar haldır ki, Ulu Öndərin qurduğu dövlətin dayaqları kifayət qədər möhkəm olduğundan o, özündən sonra da daim inkişaf edir, müasirləşir, qüdrəti artır. İndi həm ölkənin daxilində, həm də xaricində hamı Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövlətinin gücünü və qüdrətini etiraf edir, onun gələcək inkişafına böyük ümidlər bəsləyir.

### Ulu Öndərin arzuları

Dahi şəxsiyyətlərin fəaliyyəti cəmiyyətin həyatında dərin izlər buraxdığı kimi, onların arzuları və ideyaları da, bir qayda olaraq, ictimai hərəkatın gedişinə uzun illər boyu ciddi təsir göstərmək qüdrətinə malikdir. Qeyd edilən tarixi qanunauyğunluq Ümummilli Lider Heydər Əliyevin ideya və arzularında, onların Azərbaycanın ictimai həyatında bu günə qədər təsir gücünü saxlamasında bir daha özünü bütünlüklə doğruldur. Bu mənada onun 2003-cü ilin oktyabr ayında Azərbaycan xalqına yazılı müraciəti xüsusi əhəmiyyət daşıyır. O, müraciətində özünün siyasi varisi ilə əlaqədar arzularını ifadə etməklə yanaşı, başa çatdıra bilmədiyi işlərin gələcəkdə mütləq yerinə yetiriləcəyinə ümidvar olduğunu bildirmişdir.

Qeyd etmək yerinə düşər ki, Azərbaycan xalqı Ulu Öndərin arzularına böyük hörmət və ehtiramını 2003-cü ilin seçkilərində qətiyyətlə və birmənalı şəkildə ifadə etdi, onun siyasi varisi İlham Əliyev ölkənin prezidenti seçildi. Həyat göstərdi ki, Heydər Əliyevin bu arzusu fərdi məqamlara deyil, sırf ictimai hədəflərə, Azərbaycanın gələcək inkişafının təmin edilməsindən ibarət olan milli maraqlara istinad edir. Azərbaycanın inkişafının daha yüksək pilləyə qaldırılması, qüdrətinin artırılması, insanların rifahının daha da yaxşılaşdırılması Heydər Əliyevin arzularının əsasını təşkil edirdi. "Azərbaycan dünyaya günəş kimi doğacaq" deyən Ümummilli Lider qəti şəkildə inanırdı ki, Azərbaycan xalqı onun qurduğu müstəqil dövlətin daha da gücləndirilməsi naminə daim fədakarlıq nümunələri göstərəcəkdir. Onun dünyasını dəyişməsindən keçən illər ərzində Azərbaycanın heyrət doğuracaq dərəcədə inkişafı, müasirləşməsi və yeniləşməsi, dünyanın ən dinamik dövlətlərindən biri kimi qəbul edilməsi Ulu Öndərin arzularının və ümidlərinin doğrulmasının parlaq nümunəsi adlandırıla bilər.

Heydər Əliyevin ən böyük arzusu Qarabağın işğaldan azad edilməsi idi. Özünün dediyi kimi, Azərbaycanın Prezidenti olaraq vaxtının çoxunu həsr etdiyi Qarabağ probleminin ədalətli şəkildə həll ediləcəyinə inamını heç zaman itirmirdi. İnanırdı ki, dövlətin gücünün artırılması, nizami ordunun yaradılması və döyüş qabiliyyətinin artırılması, ölkəmizin beynəlxalq mövqelərinin gücləndirilməsi Azərbaycanın haqq işinin qalib gəlməsinə zəruri təminat yaradacaqdır. Onun "vaxt gələcək Şuşaya, Ağdama, Füzuliyə, Zəngilana, Laçına, Qubadlıya, Kəlbəcərə qayıdacağıq" sözləri dahi insanın arzuları olmaqla yanaşı, həm də onun dərin inamının ifadəsi idi.

Vətən müharibəsində xalqımızın qəhrəmanlığı və möhtəşəm qələbəsi Heydər Əliyevin arzuları və ideyalarına Azərbaycan xalqının dərin hörmət və ehtiramla yanaşmasına daha bir nümunə hesab edilməlidir. Ulu Öndərin "Şuşasız Azərbaycan yoxdur" fikirlərində ifadə olunan arzusunun müharibə günlərində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xarici televiziya kanallarının birinə verdiyi müsahibəsində "Şuşasız bizim qələbəmiz yarımçıq olar" sözlərində əksini tapdığını görməmək mümkün deyil. Prezident İlham Əliyev gözəl dərk edir və açıq şəkildə bildirmək istəyirdi ki, Qarabağın azadlığı milli vəzifə, xalqımızın tale məsələsi olmaqla yanaşı, həm də Ümummilli Liderin ən ümdə vəsiyyəti kimi əziz və qiymətlidir. Şuşanın azad edilməsindən sonra onun Heydər Əliyevin məzarını ziyarət etməsi, bir növ onun ruhu qarşısında möhtəşəm qələbə hesabatını verməsi dərin simvolik məna daşıyır. Qarabağın azadlığa qovuşması tariximizin möhtəşəm hadisəsi, parlaq səhifəsi, dövlətimizin gücü və qüdrətinin, Prezident İlham Əliyevin qətiyyəti və müdrikliyinin təntənəsi olmaqla bərabər, həm də Heydər Əliyevin arzularının gerçəkləşməsinin ifadəsidir.

*Heydər Əliyevin arzuları və ideyaları müasir Azərbaycanın inkişaf strategiyasının əsaslarını təşkil edir, ölkəmizin tərəqqisi və yüksəlişi yoluna işıq salır. Dahi liderin anadan olmasının 100 illiyinin ölkəmizdə böyük coşqu və milli təntənə ilə qeyd edilməsi onun vaxtilə müdrikcəsinə söylədiyi sözlərin haqq olmasına bir daha zəmanət verir: nə qədər Azərbaycan var, Heydər Əliyev də var. Heydər Əliyev Azərbaycanda daim olacaq.*

**Əli ƏHMƏDOV,**
***Yeni Azərbaycan Partiyası Sədrinin müavini***



# Heydər Əliyev İli 2023

# Heydər Əliyev ideyaları

## Azərbaycanın davamlı inkişafının əsas təməlidir



Müasir Azərbaycanın banisi, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini təntənəli şəkildə qeyd edirik. Tanrının Azərbaycan xalqına bəxş etdiyi bu nadir şəxsiyyətlə öyünməyə, qürurlanmağa, fəxr etməyə haqqımız çatır. Çünki Ümummilli Lider Azərbaycanın bir dövlət kimi dünyada tanınması, inkişafı, xalqının xoşbəxt-firavan yaşaması üçün ömrünü qurban verib desək, yanılmarıq.

Ulu Öndər "Mən həyatımda üç şeyə: Yaradanıma, zəhmətimə və bir də xalqıma arxalanmışam" müdrik kəlamını əbəs yerə işlətməyib. Dünyaya azərbaycanlı kimi gəldiyi üçün yaradana minnətdar olan Heydər Əliyev hər zaman azərbaycanlı olduğu üçün fəxr edib və dövləti, xalqı üçün əvəzedilməz işlər görüb. Tanrı isə bu yolda ona müdriklik, aqillik, qətiyyət, əyilməzlik, yenilməzlik, ensiklopedik yaddaş kimi keyfiyyətlər bəxş edib. Xalqına isə ona görə arxalanıb ki, bütün dövrlərdə Azərbaycan xalqı Ümummilli Liderə inanıb, güvənib, yürütdüyü siyasəti dəstəkləyib və hər zaman onun yanında olduğunu bəyan edib.

Məhz bu səbəbdən hər kəs Ulu Öndəri Azərbaycan xalqının milli sərvəti, onun qismətinə düşmüş Tanrı payı hesab edir. Bütün mənalı ömrünü xalqa xidmətə həsr edən Ümummilli Lider Heydər Əliyevin böyüklüyünü və əzəmətini xalqımız zaman keçdikcə daha dərindən dərk edir, dahi şəxsiyyətin ömrü qəhrəmanlıq, Vətənə və xalqa sədaqətli xidmət missiyası kimi dəyərləndirilir.

### Tənəzzüldən intibaha və ya yeni inkişaf dövrünün başlanğıcı

Vətəninə sonsuz bağlılığı, dövlətinə, dövlətçiliyə sadiqliyi, millətinə sevgisi Ulu Öndərə həqiqətən də ümumxalq sevgisi qazandırmışdır. Doğma Azərbaycana rəhbərlik etdiyi illərdə titanik fəaliyyəti nəticəsində demək olar ki, ölkəmiz tənəzzüldən intibaha, bataqlıqdan işıqlı sabaha çıxmışdır.

Dahi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi dövr iki mərhələyə bölünür - 1969-1982-ci və 1993-2003-cü illər. Hər iki dövrdə Ulu Öndərin hakimiyyətə gəlişi ölkənin və vətəndaşların acınacaqlı durumda, səfalət içində, çətin vəziyyətdə yaşadığı dönəmlərdən keçib. Hər iki dövrün reallığı isə inkişaf, quruculuq, yüksək rifah, xilaskarlıq, qurtuluş olub.

Ulu Öndər xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olub.

XX yüzilliyin 60-cı illərində Azərbaycanda durğunluq hökm sürürdü, respublika sosial-iqtisadi göstəricilərinə görə sovet ittifaqı miqyasında, 15 respublika daxilində 14-cü yerdə qərarlaşmışdı. Bu acınacaqlı vəziyyətə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra son qoyuldu. Həmin ildən Azərbaycanda yeni dövr başladı və qısa olaraq onu demək kifayətdir ki, məhz 1969-1982-ci illər Azərbaycan tarixinə intibah dövrü kimi yazıldı.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü respublikamızın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Bu illərdə Ümummilli Liderin milli-mədəni inkişaf və tarixi yaddaşımızın bərpası istiqamətində gördüyü misilsiz işlər xalqımızda milli ruhun canlanmasını, özünüdərki və soy-kökə qayıdışı təmin etdi.

Görkəmli şəxsiyyət Heydər Əliyevin fəaliyyətinin özəyində xalqına, dövlətinə və Vətəninə olan sonsuz sevgi dayanırdı. O, xalqa verdiyi bütün sözlərin, vədlərin mahiyyətini dərindən dərk edirdi və üzərinə götürdüyü bütün öhdəlikləri müdrikliyi, peşəkarlığı, uzaqgörənliyi ilə müsbət sonluqla şərəflə yerinə yetirirdi.

Ulu Öndər sosial-iqtisadi göstəricilərinə görə sovet ittifaqı miqyasındakı 15 respublika daxilində 14-cü yerdə qərarlaşan Azərbaycanı qısa zaman ərzində 4-cü pilləyə yüksəltdi. Bütün bunlar uzaqgörən liderin düşünülmüş yüksəliş konsepsiyası əsasında reallaşdı.

### On üç ilin möhtəşəm nailiyyətləri

Bəs bu proses, yəni qısa zamanda bu uğur necə reallaşdı?

1969-1982-ci illər ərzində Ulu Öndərin inkişaf konsepsiyası çərçivəsində Azərbaycanda reallaşan sosial-iqtisadi layihələrə nəzər yetirsək, bu uğurların necə əldə olunduğuna şahidlik edərik.

*Məhz bu illər ərzində Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektlər istifadəyə verildi, 630 min yeni iş yeri açıldı. Sənaye istehsalı 2,7 dəfə, tələbat mallarının istehsalı 3 dəfə, kənd təsərrüfatı istehsalı 2,7 dəfə, taxıl, pambıq, üzüm, ipək, tərəvəz, tütün, bostançılıq məhsulları istehsalı sahəsində məhsuldarlıq 1,8 - 2,6 dəfə artdı, heyvandarlıqda artım isə 2,7 dəfə oldu. Taxıl istehsalı 573,9 min tondan 1 milyon 211,3 min tona, üzüm istehsalı 272 min tondan 1 milyon 725,4 min tona, pambıq istehsalı 299,4 min tondan 831,2 min tona, meyvə-tərəvəz istehsalı 410 min tondan 850 min tona yüksəldi. Neft hasilatı 2,8 dəfə, maşınqayırma və metal emalı 3,3 dəfə, kimya və neft kimyası 2,8 dəfə artdı. Sənayedə əmək məhsuldarlığı 1,7 dəfə yüksəldi, 4400 yeni maşın, cihaz, avadanlıq və digər məmulatlar istehsal olundu ki, bunlardan da 400-ü keçmiş SSRİ-də ilk dəfə istehsal edilirdi. 1056 adda mühüm sənaye məhsulu buraxıldı.*

*Əgər 1969-cu ilədək olan 100 il ərzində Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə - cəmi 13 il ərzində onların sayı 1048-ə çatdırıldı. 1971-ci il martın 28-də Azərbaycanın neft hasilatı tarixində 1 milyardıncı ton "qara qızıl" çıxarıldı.*

*1971-ci ildə Gəncə şəhərində çini qablar zavodu açıldı, Ağstafaçay su anbarı istifadəyə verildi. 1975-ci ildə Bakı Məişət Kondisionerləri Zavodunun açılışı oldu. 1976-cı ildə Yuxarı Xanbulançay su anbarının tikintisi başa çatdırıldı, Sərsəng su anbarı, 1978-1984-cü illərdə isə Bakı Dərin Özüllər Zavodu istifadəyə verildi.*

*1969-1982-ci illərdə ümumilikdə 20,4 min kilometr uzunluğunda asfalt yollar çəkildi. İndiki Heydər Əliyev Sarayı (1972) və "Gülüstan" sarayı (1980) istifadəyə verildi, Yeni Əhmədli, Günəşli kimi böyük yaşayış massivləri, həmçinin mikrorayonlar salındı.*

Azərbaycanın gələcəkdə etibarlı əllərdə olması üçün təhsilə xüsusi diqqət ayıran dövlət başçısı bu sahədə də inqilabi yeniliklər etdi. 1969-1982-ci illərdə 770-ə qədər məktəb binası istifadəyə verildi. Respublikada ali məktəblərin sayı 12-dən 17-yə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırıldı.

Həmin dövrdə ciddi maneələrə baxmayaraq, milli hərbi kadrların yetişdirilməsi məqsədilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb təşkil olundu. Ulu Öndər həmin dövrdə azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq (indiki Heydər Əliyev adına Hərbi İnstitut) və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail oldu. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və digər hərbi məktəblərdə yetişən milli zabit kadrlarımızın Silahlı Qüvvələrin formalaşmasında müstəsna rolu vardır. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci Qarabağ müharibəsində misilsiz igidliklər göstərmişlər.

Beləliklə, 1970-ci illərin sonunda Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaqın ən qabaqcıl respublikaları sırasına çıxdı. Ulu Öndər xalqın yaradıcılıq enerjisini vahid məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində gələcəyə hesablanmış qətiyyətli addımlar atır, mühüm qərarlar qəbul edirdi.

Ümummilli Lider Heydər Əliyev respublikaya birinci rəhbərliyi dövründə xalqda milli özünüdərk hissini gücləndirə, milli kimliyi, düşüncə sistemi barədə dolğun təsəvvür formalaşdıra bildi. Həmin illərdə milli-mənəvi dəyərlərə nihilist baxış tədricən aradan qalxdı, klassik ənənə ilə müasir ədəbi irs arasında yaranan möhkəm mənəvi-ideoloji körpü milli düşüncənin düzgün məcraya yönəldilməsinə səbəb oldu. Heydər Əliyevin respublikaya rəhbərliyinin bütün fəlsəfəsi xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanışı məramına hesablanmışdı. Bu hədəfə nail olmaq üçün Heydər Əliyev rejimin ideoloji repressiya maşınının azərbaycançılıq məfkurəsini boğmasına imkan vermədi.

Ulu Öndərin azərbaycançılıq ideologiyası sayəsində xalqımızın, o cümlədən soydaşlarımızın birlik və həmrəyliyinə nail olundu. Bu ideyanın əsas qayəsini Azərbaycan dilinə həqiqi dövlət dili statusunun qazandırılması, dilimizin qorunmasına və inkişafına yüksək diqqət göstərilməsi təşkil edirdi. Ulu Öndər ana dilini milli özünüdərk yolunda ən mühüm amillərdən biri kimi dəyərləndirir, bu istiqamətdə cəsarətli və uzaqgörən addımlar atırdı. Məhz dahi liderin Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsi olaraq, 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu.

1982-ci ildə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. SSRİ kimi nəhəng dövlətin hakimiyyət iyerarxiyasında Azərbaycan oğlunun yüksək mövqe tutması çox qürurverici hadisə idi. Bu illərdəki coşqun fəaliyyəti, yüksək işgüzarlığı, fitri təşkilatçılıq bacarığı onun şöhrətini getdikcə artırır, sorağı SSRİ-nin hüdudlarını aşırdı. Heydər Əliyev Moskvada yaşadığı və işlədiyi dövrdə də Azərbaycana diqqət və qayğısını əsirgəmir, respublikamızın ictimai, mədəni həyatı ilə daim maraqlanırdı.

### Xilaskarlıq missiyası, müdrikliyin təntənəsi

XX yüzilliyin 90-cı illərinin əvvəlində yenidən müstəqilliyinə qovuşmuş Azərbaycan çox ağır günlər keçirirdi. Bir tərəfdən hakimiyyətdəki naşı siyasətçilərin vəzifə davası, digər tərəfdən torpaqlarımızın ard-arda işğal edilməsi dövlətçiliyimizə məhvolma təhlükəsi yaratmışdı.

Belə bir dövrdə yenə də xalqın dadına, dövlətin köməyinə Heydər Əliyev yetişdi. Əminliklə deyə bilərik ki, bəlkə də həmin zamanda Ulu Öndər bu addımı atmasaydı, bu gün Azərbaycan müstəqilliyini itirmiş, eynən Ermənistan kimi hansısa dövlətin vassalı, buyruq qulu kimi acı tarixini yaşayırdı. Amma ömrünün qalan hissəsini də xalqına bağışlamağa razı olan Ümummilli Lider heç vaxt belə bir vəziyyətdə xalqını darda qoya bilməzdi.

Belə ağır bir dövrdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi xaos və anarxiyadan qurtardı. Bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısı alındı, dövlətçiliyimiz hər cür sui-qəsddən, dövlət çevrilişi cəhdlərindən qorundu və ölkəmiz dayanıqlı inkişaf yoluna çıxdı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər xalqımızın yaranmış tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir. Heydər Əliyevin hakimiyyətə qayıtdığı 1993-cü ilin 15 iyun günü Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. Həmin vaxtdan Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü başlandı.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ilə Azərbaycan dövlətçiliyi özünün yüksək zirvəsinə çatdı.

Heydər Əliyevin 1992-ci ilin noyabrında yaratdığı və sədri seçildiyi Yeni Azərbaycan Partiyası bu gün Cənubi Qafqazda ən böyük siyasi təşkilatdır.

Ulu Öndərin yeni inkişaf konsepsiyası əsasında Azərbaycan müasir yüksəliş mərhələsinə qədəm qoydu. Yenə də bütün sahələrdə, daxili və xarici siyasətdə böyük uğurlar əldə edildi. Əgər 1993-cü ildə 60 xarici ölkə ilə ticarət əlaqələri qurulmuşdusa, 2002-ci ildə bu əlaqələrin coğrafiyası genişlənərək 128 xarici dövlətlə idxal-ixrac əməliyyatları aparıldı. 2002-ci ildə xarici ölkələrlə ticarət dövriyyəsi 3 milyard 832,9 milyon ABŞ dollarına çatdı və 1993-cü illə müqayisədə 2,8 dəfə artdı. 1995-2003-cü illərdə respublikamızda pensiya və müavinətlərin orta aylıq məbləği 8 dəfə, orta aylıq əməkhaqqı 6 dəfədən çox artdı. Şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin dövlət hesabına mənzillərlə təminatına başlanıldı. 1994-cü ildə məhz Ulu Öndərin titanik fəaliyyəti nəticəsində "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın gələcək inkişafının əsası qoyuldu. 1993-2003-cü illər ərzində Azərbaycanda elə bir sahə olmadı ki, inkişaf etməsin. Ölkənin xarici əlaqələri genişləndi, iqtisadiyyat gücləndi, aqrar sektor inkişaf etdi, ordu quruculuğu yeni mərhələyə qədəm qoydu, daxili sabitlik yarandı, xarici investorların ölkəmizə olan marağı artmağa başladı.

Bu gün Azərbaycan tarixinin ən qüdərli dövrünü yaşayırsa, əminliklə deyə bilərik ki, bu, Heydər Əliyevin gerçəkliyə çevrilən ideyalarının bəhrəsidir. Onu reallaşdıran, uğurla həyata keçirən isə böyük strateq Heydər Əliyevin məktəbinin ən layiqli məzunu cənab Prezident İlham Əliyevdir. Adını Azərbaycan tarixinə müzəffər sərkərdə kimi yazdıran Ali Baş Komandan İlham Əliyev məhz dahi şəxsiyyətdən öyrəndiyi siyasi kursu, daxili və xarici diplomatiyanı necə reallaşdırdısa, cəmi 20 ildə ölkəmiz misli görünməmiş uğurlara imza atan dövlət kimi tanındı.

2003-cü ildə xalqına etdiyi müraciətlərin bir məqamına məsuliyyətlə yanaşan Ulu Öndər "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikirləri təsdiqini tapdı və Azərbaycanı dünyanın inkişaf etməkdə olan ölkələri sırasına daşıdı.

Məhz Ulu Öndər Heydər Əliyev məktəbinin ən layiqli məzununun həyata keçirdiyi mütərəqqi islahatlar sayəsində Azərbaycan siyasi və iqtisadi müstəqilliyə sahib ölkə kimi müasir inkişaf yolu keçib dünyada söz və güc sahibinə çevrildi.

Əgər Ümummilli Lider Heydər Əliyev tariximizə Azərbaycan xalqının xilaskar lideri kimi adını yazdırdısa, cənab İlham Əliyev 200 illik münaqişəyə, 30 illik müharibəyə son qoyub tarixinin ən qüdrətli Azərbaycanını yaradan Müzəffər Ali Baş Komandan kimi xalqın qəlbində əbədi heykəlini ucaltdı. Bütün bunlar isə Ulu Öndərin illər öncə səsləndirdiyi sözləri nə qədər uzaqgörənliklə, müdrikcəsinə söylədiyini bir daha təsdiqləmiş oldu.

Son 20 ildə Azərbaycan özünün tarixində görünməmiş böyük inkişaf mərhələsinə qədəm qoyub. Yeni inkişaf erasının başlıca istiqamətləri respublikamızın bütün mövcud potensialdan səmərəli istifadə etməklə regiondakı mövqeyini əhəmiyyətli şəkildə dəyişdirib və möhkəmləndirib. İndi ölkəmizin sürətli iqtisadi inkişafı sosial sferada çoxşaxəli islahatlar aparmağa, dünya təcrübəsindən uğurla çıxmış təkmil mexanizmləri tətbiq etməyə imkan verir. İqtisadiyyatda həyata keçirilən köklü dəyişikliklər makroiqtisadi sabitliyi təmin etməklə bərabər əhalinin sosial müdafiəsini gücləndirmək üçün də möhkəm zəmin yaradıb. Azərbaycan Prezidentinin istənilən böhran dövründəki sosial-iqtisadi islahatlar paketləri, qlobal transmilli layihələri həm xalqın rifah halının yaxşılaşmasına, həm də dövlətin iqtisadi qüdrətinin güclənməsinə real zəmin yaradıb. Azərbaycanın hər il artan dövlət büdcəsi, yüksələn valyuta ehtiyatları ölkəmizə yeni rekordlar qazandırıb.

### Qarabağ və Zəngəzurun xilaskarı, Müzəffər Ali Baş Komandanın möhtəşəm qələbələri

Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasət Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuz sahibinə çevirib. Bu gün dünyanın geosiyasi və geoiqtisadi gündəminin əsas mövzularından birini təşkil edən Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycan əsas açar rolunu oynayan dövlətlərdən biri kimi qəbul olunur.

Elə təkcə aprelin 25-də Bolqarıstanda imzalanan anlaşma memorandumunu göstərmək yetərli olar. Azərbaycan bu sənədə əsasən Avropanın 10 ölkəsinə qaz ixrac edəcək. Bundan başqa, Prezident İlham Əliyevin reallaşdırdığı digər bir layihə də Qara dənizin altı ilə Avropaya enerji xəttinin çəkilişidir. Bu, həqiqətən də Azərbaycanın möcüzə yaratmasının bariz təcəssümüdür. Bütün bunlar göstərir ki, Azərbaycanın iştirakı olmadan bölgədə və geniş mənada yerləşdiyimiz qitədə enerji təhlükəsizliyi məsələləri tam şəkildə həll oluna bilməz. Azərbaycan cənab Prezidentimizin söylədiyi kimi, Avropanın yeni enerji xəritəsini müəyyənləşdirir. Məhz bu uğurlar ölkəmizi dünyada ən etibarlı tərəfdaşa, Prezidentimizin müstəqil siyasəti isə Azərbaycanı söz sahibinə çevirib. 2020-ci ildə bəşəriyyət həm də Azərbaycanın güc sahibinə çevrildiyinə şahidlik etdi. Məhz Ali Baş Komandan İlham Əliyevin yaratdığı modern Silahlı Qüvvələr 2020-ci ilin sentyabrında başlayıb noyabr ayında şanlı zəfərimizlə bitən İkinci Qarabağ müharibəsində dünya hərb tarixində ilk dəfə olaraq "smart savaş" aparan ordu kimi tanındı.

Azərbaycan xalqının 30 illik həsrətinə son qoyan Müzəffər Ali Baş Komandan bu gün Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən quruculuq işləri həyata keçirir. Azərbaycan yalnız öz iqtisadi imkanları hesabına işğaldan azad edilmiş ərazilərimizdə yaşamaq üçün bütün infrastruktur layihələri gerçəkləşdirir. Bu gün Azərbaycan ən yüksək zirvələrdə möcüzə sayılacaq avtomobil yolları, körpü və tunellər tikir. Hazırda Azərbaycan dünyada yolların keyfiyyətinə görə 27-ci yerdədirsə, həmin layihələrin başa çatması ilə mövqeyini daha üst yerlərə daşıyacaq.

Artıq Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışa start verilib. Zəngilan və Tərtərin işğaldan azad olunmuş ərazilərində salınmış "ağıllı kənd"lər 30 il torpaq, yurd-yuva həsrəti ilə alışıb-yanan insanların ümid çırağını bir daha alovlandırıb.

Əlbəttə ki, müstəqil Azərbaycan dövlətinin yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında cənab Prezident İlham Əliyevə hər zaman dəstək olan, ən yaxın silahdaşlıq edən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da böyük xidmətləri var. Azərbaycan həqiqətlərinin dünyaya tanıdılmasında misilsiz xidmətlər göstərən Mehriban xanım Əliyeva Ulu Öndərin humanizm ənənəsini, ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. Prezident İlham Əliyevin reallaşdırdığı kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində kömpleks tədbirlər görür. İşğaldan azad edilən ərazilərimizdəki dini abidələrimizin, məscidlərimizin restavrasiyasını həyata keçirən fond həmçinin aparılan digər işlərə də mühüm töhfələr verir.

Bir sözlə, İkinci Qarabağ müharibəsindəki şanlı zəfərin memarı, tarixinin ən qüdrətli Azərbaycanının müəllifi Prezident cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin ideyalarını uğurla, məharətlə həyata keçirməklə Azərbaycanı daha böyük, daha möhtəşəm zirvələrə doğru aparır desək, yanılmarıq. Sözü imzası qədər keçərli olan dövlət başçımızın postmüharibə dövründə söylədiyi bütün fikirlər artıq təsdiqini tapmaqdadır. Bu gün Azərbaycanla sülh müqaviləsi imzalamaqdan boyun qaçıran Ermənistan artıq yaxşı anlayır ki, zülmətdən qurtuluşu yalnız cənab İlham Əliyevin 5 prinsipli sülh sazişi təklifini qəbul etməkdən keçir. Artıq Azərbaycan öz suveren hüququnu təmin edərək, sərhədlərini müəyyənləşdirir, Laçın-Xankəndi yoluna nəzarət edir. Ali Baş Komandanımızın söylədiyi kimi, bu gün Ağrı dağında, Murov dağında, Zəngəzur dağlarında, Şuşa dağlarında Azərbaycan bayrağı dalğalanır. Həmin bayraqların kölgəsi isə bütün Qarabağ və Şərqi Zəngəzura düşür. Məscidlərimizin minarələrindən səslənən azan səsi düşmənlərin bağrını yarır, havadarlarına isə gözdağı verir.

*Cənubi Qafqazın ən güclü ölkəsi kimi Azərbaycan Prezident İlham Əliyevin inkişaf konsepsiyası ilə siyasi və iqtisadi müstəqilliyini gündən-günə gücləndirir, həm söz, həm də güc sahibi kimi dünyadakı mövqeyini daha da möhkəmləndirir, strateji tərəfdaşlarının sayını artırır. Bu isə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyində onun vaxtı ilə söylədiyi "Gün gələcək Azərbaycan dünyaya Günəş kimi doğacaq" müdrik kəlamının gerçəkliyə çevrildiyini təsdiqləyən reallıqdır.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Laçın-Xankəndi yolunun başlanğıcında qurulan sərhəd-buraxılış məntəqəsindən sərbəst keçid tam təmin edilib














Azərbaycanın Laçın rayonunda Laçın-Xankəndi yolunun başlanğıcında qurulan sərhəd-buraxılış məntəqəsindən insanların və avtomobillərin sərbəst keçid təmin olunub.

AZƏRTAC xəbər verir ki, sərhəd-buraxılış məntəqəsində xidmətlə bağlı yayılan kadrlardan göründüyü kimi, vətəndaşların sərhədi keçməsi qaydalara uyğun olaraq, nizam-intizamla və nəzakətli şəkildə təşkil edilir.

Azərbaycan sərhədçiləri vəzifələrinin icrasında yüksək peşəkarlıq nümayiş etdirirlər.

Beləliklə, Ermənistan rəsmilərinin Qarabağ ermənilərinə qarşı "etnik təmizləmə" və Laçın yolunun "blokada"sı ilə bağlı iddiaları növbəti yalan təbliğatdan başqa bir şey deyil. Laçın yolunda qurulan sərhəd-buraxılış məntəqəsində təhlükəsizliyə və hərəkətə nəzarət tam təmin edilib, insanların qayda-qanun çərçivəsində sərhədi keçməsi ilə bağlı heç bir problem müşahidə olunmur. Bu bir daha göstərir ki, Azərbaycanın sərhəddə buraxılış məntəqəsi yaratmasının məqsədi heç də Ermənistan tərəfinin iddia etdiyi kimi, hərəkəti məhdudlaşdırmaq deyil, əksinə, Laçın-Xankəndi yolunda avtomobillərin və insanların təhlükəsiz hərəkətini təmin etmək, ölkəmizin ərazisinə qeyri-qanuni daşımaların qarşısını almaqdır.

# *XİN:* "Ermənistan XİN-in Laçın yolunda sərhəd-buraxılış məntəqəsi ilə bağlı cəfəng iddialarının heç bir əsası yoxdur"

Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyanın "Azadlıq" radiosunun sualına cavabında Laçın yolunda sərhəd-buraxılış məntəqəsinin təsis edilməsi, Ermənistanın Azərbaycan ərazisində qüvvələri, 8 kəndinin hələ də işğal altında saxlanması ilə bağlı səsləndirdiyi cəfəng iddiaların heç bir əsası yoxdur və onları qətiyyətlə rədd edirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı şərhində bildirilib. Qeyd olunub ki, Azərbaycanın öz suveren ərazisində sərhəddə nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi barədə legitim qərarı və addımı bütün beynəlxalq hüquq prinsiplərinə və normalara uyğundur. Ermənistanın Azərbaycanın bu qərarına müdaxiləsi qəbuledilməzdir.

Göründüyü kimi, Ermənistan tərəfi Laçın yolunda etiraz aksiyalarını şərh edərkən, sözügedən aksiyaların Laçın yolundan qeyri-qanuni fəaliyyətlər və hərbi təxribatlar üçün istifadəyə qarşı yönəldiyini unudub və Beynəlxalq Ədalət Məhkəməsinin müvəqqəti qərarını yanlış təfsir etməkdən hələ də çəkinmir.

Azərbaycanlı ekofəalların Xankəndi-Laçın yolunda keçirdiyi etiraz aksiyalarının, guya, "Azərbaycan hökuməti tərəfindən təşkil olunduğu" və "Azərbaycanın təbii qazın və s. kommunal xidmətlərin (məsələn, elektrik enerjisi və internet) verilməsinə mane olduğu" barədə Ermənistanın iki əsas iddiasının məhkəmə tərəfindən rədd edilməsi faktını Ermənistan tərəfinin hələ də həzm edə bilməməsi acınacaqlıdır.

Ermənistan tərəfinin Azərbaycana qarşı son 30 ildə törətdiyi mina təhdidləri məsələsindən boyun qaçırması və öhdəliyi öz üzərindən atması təəssüf doğurur. Məsələ üzrə sonuncu məhkəmə dinləmələri bir daha göstərib ki, Ermənistanın mina istehsal etmədiyi və basdırmadığı barədə beynəlxalq təşkilatlara açıqladığı hesabatlar yalan üzərində qurulub. Eyni zamanda mina məsələsində mahiyyət üzrə qərarın sonrakı dövrə saxlanılması barədə məhkəmənin qərarının, məhkəmənin məsələni rədd etməsi kimi qələmə verilməsi tamamilə yanlışdır. Bu müvəqqəti qərarın Ermənistanı Azərbaycan ərazilərində minalar və mina tələlərinin yerləşdirilməsi, Laçın yolundan sui-istifadə edərək Azərbaycan ərazilərinə 2021-ci il istehsalı minaların daşıması və minalanmış ərazilər barədə həqiqi xəritələrin təqdim edilməməsi kimi öhdəliklərin pozuntularından azad etmədiyi bəllidir.

Ümumiyyətlə, müstəqillik qazanan dövrdən beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycanın beynəlxalq tanınmış ərazilərinə qarşı hərbi təcavüz, kütləvi qırğınlar törədən, işğal altında olan şəhərləri və yüzlərlə kəndi viran qoyan, azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirən, yüz minlərlə əhalini öz doğma torpaqlarından qovan, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirməyən Ermənistanın Azərbaycanı təcavüzdə, "etnik təmizləmə"də və Ermənistana məxsus kəndlərin işğalında təqsirləndirməsi absurddur.

Ermənistanın hələ üçtərəfli Bəyanatı imzalayan zaman üzərinə götürdüyü öhdəlik çərçivəsində Naxçıvanın Sədərək rayonunun Kərki və Qazaxın Sofulu, Bərxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrimli kəndlərini azad etmək əvəzinə, sözügedən kəndlərin Azərbaycana məxsusluğunu sual altına qoyması bu ölkənin hələ də Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədiyini göstərir.

Ermənistanın baş naziri Nikol Paşinyanın müharibəni uduzmağı Ermənistanda olan "5-ci kolonla" əlaqələndirməsini, müharibənin Ermənistan silahlı qüvvələri tərəfindən aparılmasını təsdiq etdiyini, bütün hərbi komandanlığın Ermənistan Müdafiə Nazirliyinə tabe olmasını, yüksək siyasi və hərbi rəhbərliklərinin qüvvələrin hələ də çıxarılmadığı barədə etiraflarını gözardına vuran Ermənistan XİN-in sözçüsünün Azərbaycanda Ermənistan silahlı qüvvələrinin olmadığını bildirməsi bu ölkənin xarici siyasətinin yalanlarla bəsləndiyinin göstəricisidir. Uzun müddət məhz qondarma rejimin hərbçiləri kimi təqdim edilən şəxslərə qarşı Ermənistanın özünün hüquq-mühafizə orqanları tərəfindən cinayət işlərinin aparılması bu hərbçilərin məhz Ermənistana tabe olduğunun əyani sübutudur.

Azərbaycan bir daha Ermənistanı ölkəmizə qarşı ərazi iddialarından əl çəkməyə çağırır. Bölgədə sülh və sabitliyin təmini Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etməsindən asılıdır.

# Mədəniyyət naziri Adil Kərimli dövlət kino təsisatlarını ziyarət edib

Mədəniyyət naziri Adil Kərimli Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasını ziyarət edib. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, kinostudiyanın direktoru Nazim Hüseynov naziri ərazi və inzibati binalardakı şəraitlə tanış edib.

Müəssisəyə baxış zamanı fəaliyyətin günün tələbləri səviyyəsində qurulması ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib. Sonra mədəniyyət naziri Adil Kərimli Dövlət Film Fonduna da baş çəkib.

Fondun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev öncə naziri ümumi ərazi ilə tanış edib. Bildirib ki, Dövlət Film Fondu Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Nazirlər Kabinetinin 22 dekabr 1993-cü il tarixli sərəncamına əsasən yaradılıb. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq, 2008-ci ildə Dövlət Film Fondu üçün yeni bina istifadəyə verilib. Mədəniyyət naziri Adil Kərimli ümumi sahəsi təxminən 6,6 min kvadratmetr olan Azərbaycan Dövlət Film Fondunun texniki avadanlıqlarla təchiz edilmiş inzibati otaqlar, laboratoriya, tamaşa salonu, yardımçı otaqlarla, həmçinin fondda filmlərin saxlanılma və bərpa şəraiti, filmlərin saxlanma boksları, lentlərin bərpa avadanlıqları və digər texniki imkanları ilə tanış olub.

Nazirə Film Fondunun nəzdində fəaliyyət göstərən Kino Muzeyinin eksponatları haqqında geniş məlumat verilib, diqqətinə çatdırılıb ki, hər il Film Fondunda Azərbaycan kino xadimlərinin xatirələrinə həsr olunmuş tədbirlər, yubiley və xatirə gecələri təşkil olunur, şəxsi arxiv fondları yaradılır və hazırda fondda qorunan ümumi saxlanma vahidlərinin sayı 80.000-i ötüb.

Sonra mədəniyyət naziri Film Fondunun hazırkı dövrdə qarşılaşdığı problemlərlə maraqlanıb və qurumun gələcəkdə də dövlət qayğısı ilə əhatə olunacağını xüsusi vurğulayıb.

# Gürcüstanda Bakı-Tbilisi-Qars dəmir yolu ilə yükdaşımaların artırılması müzakirə olunub



Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mayın 1-də Gürcüstanda səfərdə olub.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində nazir R.Nəbiyevin iştirakı ilə Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsi çərçivəsində infrastruktur obyektlərinin tikintisi ilə bağlı aparılan işlərlə yerində tanışlıq məqsədilə Tetritskaro (Ağbulaq) Dəmiryol Stansiyasına baxış keçirilib.

Sonra nazir Rəşad Nəbiyev Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili ilə görüşüb.

Görüşdə ikitərəfli əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti ilə yükdaşımaların həcminin artırılması və buraxılış qabiliyyətinin genişləndirilməsi istiqamətində birgə tədbirlərin görülməsi, layihə üzrə Gürcüstan ərazisində planlaşdırılan işlərin sürətləndirilməsi barədə məsələlər müzakirə edilib.

# "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda tədbir keçirilib



Tədbirdən əvvəl iştirakçılar Ulu Öndərin adını daşıyan mədəniyyət və istirahət parkındakı abidəsini ziyarət etmiş və önünə gül dəstələri qoymuşlar.

Nizami adına Mədəniyyət Evində keçirilən tədbirdə öncə Dövlət himni səslənmiş, Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunmuşdur.

Tədbirdə rayon icra hakmiyyətinin başçısı Məmməd Məmmədov, Milli Məclisin deputatları Arzu Nağıyev, Aydın Hüseynov, professor Mais Əmrahov çıxış edərək Ümummilli Liderin fədakar əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarının yaradılmasından, respublikamızın dünya məkanında öz layiqli yerini tutmasından, müstəqil ölkəmizin həyatında baş vermiş müsbət dəyişikliklərdən danışmışlar.

Tədbirin sonunda məktəblilər arasında keçirilən "Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" mövzusunda inşa yazı müsabiqəsinin qaliblərinin adları elan edilmiş və onlara Tovuz Rayon İcra Hakimiyyətinin fəxri fərmanları və qiymətli hədiyyələr təqdim olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# "Heydər Əliyev" kitabının Sankt-Peterburqda təqdimatı olacaq

Mayın 10-da MDB Parlamentlərarası Assambleya Şurasının təşkilatçılığı ilə Rusiyanın Sankt-Peterburq şəhərində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə yazıçı-dramaturq Hüseynbala Mirələmovun "Heydər Əliyev" kitabının təqdimatı keçiriləcək.

Xatırladaq ki, 2005-ci və 2006-cı illərdə Moskvanın "Molodaya qvardiya" nəşriyyatında JZL seriyasında işıq üzü görən "Qeydar Aliev" kitabının 2008-ci və 2018-ci illərdə yenidən işlənmiş və əlavələr edilmiş yeni variantları da çap edilmişdir. Kitabda Ulu Öndərin şərəfli və mənalı ömür yoluna arxiv materialları, eləcə də doğmaları, dostları və həmkarlarının xatirələri əsasında nəzər salınmışdır. Adıçəkilən nəşr indiyədək ingilis, rus, türk, Çin, ərəb, fars, özbək, Burma, Vyetnam, serb dilləri də daxil olmaqla dünyanın 48 dilinə tərcümə edilərək oxuculara təqdim edilmişdir.

# "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı keçiriləcək

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə iyunun 18-25-də "Muğam aləmi" ("Space of Mugam") 6-cı Beynəlxalq Musiqi Festivalı keçiriləcək.**

AZƏRTAC xəbər verir ki, festival Bakı və Şuşa şəhərlərində təşkil olunacaq. Festivalda ifaçıların qeydiyyatı mayın 1-dən 20-dək aparılacaq. Azərbaycanı bu festivalda aprelin 24-27-də keçirilən Milli Muğam Müsabiqəsinin qalibləri - xanəndə və instrumental ifa kateqoriyası üzrə birinci yerin mükafatçıları Mirəli Sarızadə və Vaqif Təhməzov təmsil edəcəklər.

"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalının açılışı iyunun 18-də Heydər Əliyev Sarayında olacaq. İyunun 25-dək davam edəcək festival çərçivəsində Bakının müxtəlif mədəniyyət ocaqlarında, həmçinin iyunun 23-də Şuşanın tarixi məkanlarında müxtəlif tədbirlər - müsabiqə, mühazirə və təqdimatlar, konsertlər, sərgi və simpoziumlar təşkil ediləcək. Festivalın sonuncu günündə 24 saat ərzində eyni məkanda bir-birini əvəz edən canlı muğam marafonu olacaq. "Muğam aləmi" festivalında 1-ci, 2-ci və 3-cü yerlərin sahiblərini və Qran-pri mükafatçısını beynəlxalq münsiflər heyəti qiymətləndirəcək. İyunun 25-də qaliblərin mükafatlandırılması və konsert keçiriləcək.

# Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mina partlayışı ilə bağlı cinayət işi başlanıb

Mayın 1-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ərazisində mina partlayışının baş verməsi barədə rayon prokurorluğuna məlumat daxil olub

Rayon prokurorluğundan AZƏRTAC-a bildirilib ki, ilkin araşdırma zamanı qeyd olunan ərazidə tank əleyhinə minanın partlaması nəticəsində 1964-cü il təvəllüdlü Oktay Alışovun öldüyü müəyyən edilib. Faktla bağlı Cəbrayıl Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

Həmçinin bildirilir ki, 2020-ci ilin 10 noyabr razılaşması ilə döyüş əməliyyatları dayandırılandan bu günədək Ermənistan silahlı qüvvələrinin basdırdıqları minaların partlaması nəticəsində hərbi qulluqçu və mülki şəxs olmaqla ümumilikdə 299 nəfər mina qurbanlarından 55-i həlak olub, 244-ü isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

# Milli maraqlarımız qətiyyətlə təmin olunur

## "Sülh sazişi" üzrə danışıqların ABŞ raundu

### Azərbaycanın bu proseslə bağlı irəli sürdüyü təkliflər yüksək qiymətləndirilir

İşğalçı Hayastanla Azərbaycan arasında 30 il davam edən keçmiş Qarabağ münaqişəsinə son qoyulsa da, hələ də tərəflər arasında sülh müqaviləsinin imzalanmaması regionda sabitliyin təmin olunmasına imkan vermir. Bunun da yeganə səbəbi Hayastanın cəfəng iddiaları, bəhanələri və hərbi təxribatlarıdır.

Ümumiyyətlə, sülh danışıqları ilə bağlı əsas amil Azərbaycan tərəfindən irəli sürülmüş 5 məlum prinsipin Hayastan tərəfindən qəbul edilməsidir. Bu prinsiplər beynəlxalq hüququn norma və prinsiplərinin təməl prinsipləridir. Ona görə də Azərbaycan əvvəlcədən bəyan edib ki, məhz bu prinsiplər üzərində ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və digər prinsiplər əsasında danışıqlar mümkündür və sülh müqaviləsi imzalana bilər.

Artıq hər kəsə bəllidir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Bu, tərəflər arasında Praqa və Soçidə keçirilən görüşlərdə təsdiqini tapıb. Belə ki, həmin görüşlərdə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Hayastan təsdiqləyib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər - 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunmalıdır. Bu da bir daha göstərir ki, müttəfiq respublikalar arasında olan sərhədlər dövlət sərhədləri sayılır.

Beləliklə, bu rəsmi addımı atmaqla Ermənistan rəsmən Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Görünən odur ki, Ermənistan da prinsip etibarilə Azərbaycanın məsələyə yanaşması ilə razıdır. Çünki başqa variant da yoxdur: "Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan bu gün "Qarabağ Azərbaycandır və nida" sözlərimizi təkrar etməlidir. Çünki İlham Əliyevin söylədiyi kimi, Ermənistan "A" deyibsə, "B" də deməlidir. Alma-Ata Bəyannaməsini əsas götürüb bunun üzərində sülh müqaviləsinə hazır olduğunu göstərən Ermənistan artıq rəsmən bəyan etməlidir ki, Qarabağ Azərbaycandır.

Tərəflər arasında aparılan sülh müqaviləsi üzrə danışıqların əhəmiyyəti aprelin 30-da ABŞ Dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevə telefon söhbəti zaman da müzakirə edilib. Antoni Blinken Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların əhəmiyyətini vurğulayaraq bu xüsusda ABŞ-nin dəstəyinin davam edəcəyini bildirib. ABŞ Dövlət katibi sülhün əldə edilməsinin mümkünlüyünə inandığını deyib və Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsinin qurulmasına toxunub.

Prezident İlham Əliyev isə qeyd edib ki, Azərbaycan sülh gündəliyini dəstəkləyir, Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağın və münasibətlərin normallaşdırılmasının təşəbbüskarı məhz Azərbaycan olub. Bu xüsusda da Azərbaycan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip Ermənistana təklif edilib.

Azərbaycan-Ermənistan sərhədində "Laçın" nəzarət-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar Prezident İlham Əliyev bildirib ki, bu məntəqənin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib.

İlham Əliyev qeyd edib ki, məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə, nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir.

Telefon danışığı zamanı Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqlarının Azərbaycanın Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacağı qeyd edilib.

"Sülh sazişi" ilə bağlı danışıqların növbəti mərhələsi də elə ABŞ-də keçirilməsi planlaşdırılırdı. Belə ki, aprelin 30-da ABŞ-yə səfər edən xarici işlər naziri Ceyhun Bayramov dünən Ermənistan XİN başçısı Ararat Mirzoyanla və dövlət katibi Antoni Blinkenlə görüşüb. Xatırladaq ki, ABŞ dövlət katibinin iştirakı ilə üçtərəfli formatda sonuncu görüş 8 noyabr 2022-ci ildə Vaşinqtonda keçirilmişdi.

Əgər ABŞ danışıqlarında "yol xəritəsi"ni hazırlamaq mümkün olsa, bir neçə həftə ərzində sülh müqaviləsi bağlamaq üçün iki ölkə liderinin Avropada görüşünün keçirilməsi də mümkün ola bilər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

**Laçın yolunun başlanğıcında ölkəmizə məxsus nəzarət-buraxılış məntəqəsinin qurulması Prezident İlham Əliyevin strateji addımlarının, dövlətimizin və xalqımızın qəti iradəsinin nəticəsidir. Azərbaycanlı ekofəalların başlatdığı etiraz aksiyası sayəsində ötən ilin dekabrın 12-dən etibarən onsuz da həmin yola nəzarəti təmin edən Azərbaycanın nəzarət-buraxılış məntəqəsi qurması suveren hüququ idi.**




## Haylara başa salındı:

### "Azərbaycan Respublikasının ərazisinə daxil olursunuz!"

Bunun nəticəsi olaraq 10 gündür ki, həmin ərazilərdə üçrəngli Azərbaycan bayrağı dalğalanır. Laçın yolu artıq hayların və havadarlarının qeyri-qanuni əməllərinə deyil, təhlükəsizliyə və humanizmə xidmət edir. Qarabağda yaşayan hayların həmin yoldan keçidinin nümayiş etdirildiyi videogörüntülərdən də aydın olur ki, sərhəd nəzarəti yüksək səviyyədə təşkil olunub.

#### Sərhədi keçən haylara nəzakətlə yanaşılır

Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında deyib ki, hər bir müstəqil ölkə öz suverən ərazilərinə nəzarət etməli, sərhəd-buraxılış məntəqələrini yaratmalıdır: "Azərbaycanın da beynəlxalq səviyyədə tanınmış ərazilərini qorumaq və qonşu respublikalarla sərhəddə nəzarət-buraxılış xidməti həyata keçirmək suveren hüququdur. 2023-cü il aprelin 23-də Həkəri çayı üzərindəki körpüdə, Hayastanla sərhəddə nəzarət-keçid məntəqəsinin fəaliyyətə başlaması tarixi hadisədir və 30 illik arzumuzun reallaşmasıdır. Artıq bu xidmət məntəqəsi qurulub, girişdə də "Siz Azərbaycan Respublikasının ərazisinə daxil olursunuz" deyə yazılıb. Fikrimcə, bu, özü hər şeyi deyir".

Deputat qeyd edib ki, sərhəd xidmətinin qısa zamanda çox yüksək səviyyədə təşkil edilməsi paylaşılan videolardan da aydın görünür: "Burada sərhəd keçid nəzarətinin həyata keçirilməsi üçün lazımi infrastruktur və şərait yaradılıb. Videogörüntülərdə də görünür ki, sərhədi keçən haylara yüksək mədəniyyət və nəzakətlə yanaşılır, onların pasport yoxlanışından keçirilməsi üçün sərhədçi-nəzarət kabinəsinə yaxınlaşmaqları xahiş olunur, sonra da avtomobillərin yük hissəsinə baxış həyata keçirilir. Bu, sərhədçilərimizin yüksək peşəkarlığının göstəricisidir. Hesab edirəm ki, sərhədi keçən hayların pasportlarına sərhəddə giriş-çıxışla bağlı möhür də vurulmalıdır. Qarabağda yaşayan haylar Azərbaycan ərazisinə daxil olduqlarını hiss etməli və məsuliyyət daşımalıdırlar".

Azər Badamovun dediyinə görə, belə nəzarət dünyanın inkişaf etmiş bütün ölkələrin sərhəd məntəqələrində həyata keçirilir: "Hayastanın Laçın yolunda guya sərhəd məntəqəsi qurularaq yolun bağlandığı ilə bağlı yaydığı xəbərlər tamamilə yalandır və həqiqəti əks etdirmir. Haylar dünya ictimaiyyətinə yalan məlumatlar çatdırmağa davam edirlər. Lakin dünya hayların yalanlarından artıq yorulub. Belə dezinformasiyalara reaksiya verənlər yalnız onların bacı-qardaşları və erməni lobbisinin pulla ələ aldıqlarıdır".





Deputat vurğulayıb ki, sərhəd xidmətinin nəzarətə başladığı vaxtdan etibarən həmin məntəqədən keçən mülki hayların sayı yolun qanuni məqsədlər üçün açıq olduğunu göstərir: digər tərəfdən, sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması Hayastandan Qarabağa silah-sursatın daşınmasının qarşısını alıb. Bundan sonra Hayastandan Azərbaycana qeyri-qanuni və təhlükə törədəcək daşımalara imkan verilməyəcək. Azərbaycan Qarabağda yaşayan hayların Hayastana və əks istiqamətdə qanuni keçidini təmin edib. Biz çox ciddi şəkildə Naxçıvanda yaşayan azərbaycanlıların Zəngəzurdan maneəsiz keçidini tələb etməliyik. Razılaşmaların icrası qarşılıqlı olmalıdır".

Azər Badamov əlavə edib ki, Azərbaycanın gələcəyə baxışları qonşu ölkələrlə sülh və əməkdaşlıq mühitində yaşamağa davam etmək üzərində qurulub. Amma bununla yanaşı, heç bir qonşumuza daxili işlərimizə qarışmağa və birtərəfli şəkildə üstünlük əldə edilməsinə imkan verməzik.

#### Hayların Laçın yolundan sui-istifadə etməsi qəbuledilməz idi

Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, vətəndaşlarımızın təhlükəsizliyi üçün Laçın yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması labüd idi: "Heç şübhəsiz ki, sözügedən yolda Dövlət Sərhəd Xidmətinin nəzarət-buraxılış məntəqəsini açmaq ölkəmizin suveren hüququ idi. Nəzərə almaq lazımdır ki, Laçın yolunda ekofəallar etiraz aksiyasına başlayana qədər 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq, qanunsuz hay hərbi birləşmələri həmin yoldan hərbi məqsədlər, o cümlədən minaların keçirilməsi üçün istifadə edir, Azərbaycanın talan olunan təbii sərvətlərini daşıyırdılar. Vətən müharibəsindən sonrakı dövrdə 300 Azərbaycan vətəndaşının mina qurbanına çevrilməsi də bu fikri bir daha təsdiq edir".

Deputatın sözlərinə görə, məhz bunun nəticəsidir ki, Rusiya sülhməramlı kontingentinin yerləşdiyi Azərbaycan ərazilərində davamlı təxribatlar törədilir. Məlum olduğu kimi, Azərbaycan yaxın vaxtlarda işğaldan azad olunmuş ərazilərə mülki əhali köçürəcək. Hayların Laçın yolundan suiistifadə etməsi sayəsində mülki vətəndaşlarımızın həyatı üçün hər zaman təhlükələr yarana bilərdi. Bu da, sözsüz ki, Azərbaycan üçün qəbuledilməz idi.

"Laçın yolundakı yeni nəzarət-buraxılış məntəqəsi Qarabağda yaşayan mülki hayların həmin yoldan istifadəsini məhdudlaşdırmır. Əksinə, qanuni və tənzimlənən gediş-gəliş üçün imkan yaradır. Sadəcə olaraq, Hayastan bilməlidir ki, Azərbaycan ərazilərində separatçılara, revanşistlərə, qanunsuz hərbi birləşmələrə və terrorçulara yer yoxdur. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycanın idarəçiliyini qəbul edən haylar burada qalıb yaşaya bilərlər. Separatizm meyilli olanlar isə bu əraziləri tərk etməlidirlər", - deyə deputat bildirib.

Ceyhun Məmmədov qeyd edib ki, Hayastan rəhbərliyi Praqa və Soçi sənədləri ilə ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tanıyıb: "Bu günlərdə parlamentdə çıxışı zamanı Nikol Paşinyan bunu bir daha təsdiq edib. Onu da qeyd etmək lazımdır ki, Hayastan birtərəfli qaydada Laçın yolunun üzərində post qurmuşdu. Bu halda Azərbaycan da adekvat addım atmalı idi".

Deputat deyib ki, Qarabağda yaşayan haylar Azərbaycanın təklifini qəbul edib reinteqrasiya məsələləri üzrə təmaslara başlamalıdırlar. Bu proses nə qədər tez başlayarsa, yerli haylar üçün bir o qədər yaxşı olar.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Kapital sakitlik və sabitlik sevir

### Ölkəmizdə kapital qoyuluşu 3 ayda 40,3 faiz artmışdır

Dünyada baş verən siyasi və hərbi qarşıdurmalar iqtisadiyyata da təsirsiz ötüşmür. Bu üzdən qlobal iqtisadiyyatda bir durğunluq yaranıb. Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozuna görə, cari il də dünya iqtisadiyyatı üçün ürəkaçan olmayacaq.

Məlumdur ki, dünyada siyasi və hərbi gərginlik şəraitində ən çox ziyan çəkən sahələrdən biri də kapital qoyuluşudur. Çünki kapital sakitliyi və sabitliyi sevir. Ona görə də investorlar kapital qoyuluşuna həssaslıqla yanaşırlar. Məsələn, bu gün Rusiya-Ukrayna müharibəsi şəraitində hansı investor həmin ölkələrə sərmayə qoymaq istəyər? Yaxud Tayvan ətrafında ABŞ-Çin qarşıdurmasının davam etdiyi və bunun nə vaxt bitəcəyi məlum olmadığı halda hansı investor həmin regiona sərmayə yatırmağa maraq göstərər? Dünya iqtisadiyyatının inkişafı isə kapital qoyuluşu ilə sıx bağlıdır. Əbəs yerə investisiya yatırımını iqtisadiyyatın qan damarına bənzətmirlər ki... İqtisadi inkişafın dinamikasını müəyyən edən başlıca amil kapital qoyuluşu, istehsal və satışdır. Bu zəncirin birinin qırılması iqtisadiyyatın dinamikasına mənfi təsir göstərir. İndiki halda da məhz bu proses gedir.

Bütün bunları nəzərə alan Azərbaycan hökuməti ölkənin iqtisadi inkişaf dinamikasını qorumaq üçün iqtisadiyyatın daxili mənbələrdən kapitallaşmasına üstünlük verir. Bunun nəticəsidir ki, hazırda ölkə iqtisadiyyatına kapital qoyuluşunda müsbət dinamika qorunub saxlanılır. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-mart aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 3 milyard 523,1 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 40,3 faiz çox vəsait yönləndirilmişdir. Hesabat dövründə daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri ümumi sərmayənin 73,2 faizini təşkil etmişdir. Ümumi sərmayənin 52,8 faizi dövlət, 47,2 faizi qeyri-dövlət sektorlarının payına düşmüşdür.



Sözügedən dövrdə əsas kapitala yönəldilmiş vəsaitdə müəssisə və təşkilatların öz vəsaitləri 1 milyard 615,1 milyon, büdcə vəsaitləri 1 milyard 373,3 milyon, əhalinin şəxsi vəsaitləri 225,8 milyon, bank kreditləri 144,9 milyon, sair vəsaitlər 164 milyon manat təşkil etmişdir.

Cari ilin birinci rübündə qeyri-neft-qaz sektoruna qoyulan sərmayənin məbləği daha çox olmuşdur. Açıqlanan statistik rəqəmlərə görə, neft-qaz sektoruna yatırılmış investisiyanın həcmi 23,8, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 51,7 faiz artmışdır. Ümumi sərmayənin 1 milyard 941,3 milyon manatı istehsal, 1 milyard 396,5 milyon manatı xidmət sahələrinə, 185,3 milyon manatı yaşayış evlərinin tikintisinə yönəldilmişdir. Bu sahəyə aid başqa fakt: yanvar-mart aylarında neft-qaz sektoruna 1 milyard 271,4 milyon manat vəsait qoyulduğu halda, qeyri-neft-qaz sektorunun inkişafına 2 milyard 251,7 milyon manat xərclənmişdir. Həmin vəsaitin 175,4 milyon manatından (ümumi sərmayənin 5 faizi) isə qeyri-neft-qaz sənayesi sektorunda istifadə edilmişdir.

Ölkəmizdə əsas kapitala sərmayə qoyuluşunun artmasının əsas səbəbi işğaldan azad olunan ərazilərdə iri layihələrin həyata keçirilməsidir. Müsbət haldır ki, bu ərazilərdə icra olunan layihələrdə investor kimi yerli və xarici şirkətlər fəal iştirak edirlər. Özü də onların sayı günbəgün artır. Yeri gəlmişkən, indiyədək 1400 sahibkar işğaldan azad olunan ərazilərdə iş görmək üçün müvafiq dövlət qurumlarına müraciət edib. Onlardan 300-dən çoxu xarici investorlardır.

Hələlik isə bu işdə əsas yükü dövlət öz üzərinə götürüb. Cari ilin birinci rübündə də işğaldan azad olunan ərazilərdə dövlət büdcəsi hesabına bərpa-quruculuq işləri davam edib. 2023-cü ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə nəzərdə tutulmuş 3 milyard manat vəsaitin hesabat dövrü ərzində sifarişçi təşkilatlar tərəfindən müvafiq layihələr üzrə təqdim edilmiş kassa sifariş sənədləri əsasında 35,5 faizi və ya 1 milyard 67 milyon manatı istifadə olunub. İstifadə edilmiş vəsaitin 1 milyard 42,5 milyon manatı avtomobil yollarının layihələndirilməsi və tikilməsi üçün Avtomobil Yolları Dövlət Agentliyinin, 13 milyon manatı işğaldan azad olunmuş ərazilərdə suvarma sistemlərinin yaradılması məqsədilə Dövlət Su Ehtiyatları Agentliyinin, 6 milyon manatı işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi üçün Minatəmizləmə Agentliyinin, 5,5 milyon manatı isə digər zəruri infrastrukturun yaradılması məqsədi ilə müvafiq icraçıların payına düşüb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 7 dekabr (Şənbə günü) tarixli 58-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Şənbə, 2 rəbiüləvvəl sənə 1337.
7 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

**"Azərbaycan" heyəti-təhririyyəsi Məclisi-Məbusan güşadını [açılışını] təbrik edir və istiqlali-milliyyə uğrunda səbat, istiqamət və mətanət ibrazı [nümayiş etdirilməsini] gözləyir.**

**Yaşasın Azərbaycan Cümhuriyyəti! Yaşasın Azərbaycan Məclisi-Məbusanı, paydar olsun milli istiqlalımız!**

**Yaşasın hüquqi-milliyyə, paydar olsun cəmiyyəti-əqvam, qəhr olsun niza [çəkişmə] və ixtilaf!**

## BAKI, 7 KANUNİ-ƏVVƏL [DEKABR]

Bir çoxu, əvvəllərdə təşrini-saninin [noyabrın] 16-cı gününə iniqadı [baş tutması] təyin edilmiş Parlamanı bu gün açılan Parlamanımızla bir nəzərdə tutmağa iman edəmməyirlər.

"O vaxt başqa idi, indi isə başqa bir vaxtdır" deyirlər.

"O vaxt siyasi vəziyyətimiz digər idi, indi isə digərdir" söyləyirlər.

Buna görə də bir qədər soyuqluq, bir qədər tərəddüd, bir qədər şübhə, bir qədər skeptisizm müşahidə edilir.

Öylə əsəbi, nazik [həssas] və tez hissiyyata uğrayan qardaşlarımız bunu bilməlidir ki, nə qədər "siyasi vəziyyət" dəyişsəcəksə dəyişsin, nə qədər "bu vaxt" "o vaxta" bənzəməyəcəksə bənzəməsin – lakin, qayə və əməl [arzu] birdir.

İnsan qəlbində bəslədiyi əməlin və idealın tərvicinə [rəvac tapmasına, həyata keçməsinə] vaxt müsaidəsi istəməz. Nə vaxt olursa olsun, nə zaman olursa olsun, hal və övza [vəziyyət] nə dürlü dəyişir dəyişsin, mətanəti-qəlbiyyə ilə müəyyən bir əməl və qayəyə xidmət edən şəxs tərəddüdə uğramamalıdır.

Bə'd [sonra]; bu gün Parlamanımız açılması özü buna dəlalət edir ki, "siyasi vəziyyət" bir o qədər də dəyişməmişdir. Lakin aralıqda bir qədər müşkülat törəmişdir ki, onun dəfinə [aradan qaldırılmasına] çalışmaq həmin Parlamanımızın vəzifəsindən ədd [hesab] olunacaqdır. Bu etiqadla heç bir tərəddüdə yer verməksizin Azərbaycan türkləri bu gün milli Parlamanlarının güşadını alqışlamaqla, onun fəaliyyətinə və iş görməsinə yardım etməlidirlər.

Yaşasın Milli Parlamanımız!

Yaşasın istiqlaliyyətimiz!

## TARİXİ GÜNÜMÜZ

1337 səneyi-hicrisi, rəbiüləvvəlin 2-ci günü Türk-Azərbaycan tarixində xüsusi bir yer tutub, böyük bir əhəmiyyəti haiz olacaqdır [daşıyacaqdır].

Bu gün o gündür ki, Azərbaycan türklərinin Milli Məclisi, Milli Şurası açılıb, Azərbaycan təkmil [kamil, hərtərəfli] bir hökumət şəklinə girir.

Yüz, yüz əlli sənə bundan əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan torpağının rus istilasından qazandığı bir mənfəət o oldu ki, bu torpaq üzərində qurulmuş olan saxta və əməli [süni] hududları silinib-süpürülüb, müttəhid [birləşmiş] və vəsi' [geniş] bir arazi şəklinə girdi və bu gün xilas olub da iki milyonu mütəcaviz [keçən] nüfusu [əhalisi] ilə Azərbaycan Cümhuriyyəti namını daşımağa kəsbi-ləyaqət etdi [layiq oldu].

Bəs, bu gün həmin bu Azərbaycan Cümhuriyyətinin Milli Parlamanı, Milli Məclisi açılmaqla təşkilat və tərtibati-siyasiyyəsi artıq itmama [tamama] yetir.

Parlamanımız daxilən və xaricən nə şərait içində açılır?

İstiqlalımızın feilən yürüdülməsinə qarşı bugünkü cahan zorluları tərəfindən mümaniətlər [manelər] göstərilməyirsə də, qəbuluna da hələ qol qoyanlar yoxdur. Məsələnin həlli, istiqlalımızın rədd və ya qəbulu gələcək Sülh Konfransının baxacaq işlərindəndir. Bir tərəfdən dəxi Türk-Azərbaycan cümhuriyyətində vətəndaşcasına yaşamaq, asayiş və istirahətimizin təmini yolunda əl-ələ verib çalışmağa dəvət etdiyimiz qeyri-müsəlmanlar arasında öyləri tapıldı ki, uzaqdırmı ələ arxalarını çevirib, Parlamanımızı və hətta Cümhuriyyətimizi belə "nabə-mövsüm" [vaxtsız] ədd [hesab] edərək, istiqlalımıza qarşı bədxah olduqlarını indidən bildirdilər. Bunların içində hətta "boykot" sözünün istemalı [işlədilməsi] kimi qabalıq və nəzakətsizlik göstərənlər də olmadı deyil.

Daxilən dəxi quldurluqları və ya rəsmi hökumət məmurluqları hələlik bizcə bəlli olmayan bir taqım müsəllah [silahlı] ermənilərin hüdudumuza təcavüz edib Azərbaycan müsəlmanları haqqında icra etdikləri qətl və qarət, zülm və cəfa xəbərləri cümləmizi mükəddər və mütəhəyyic etməkdədir [kədərləndirməkdə və həyəcanlandırmaqdadır].

Bu şərait, nə qədər mövcibi-məsərrət [sevindirici hal] olmasa da, Parlamanımızın açılmasına qarşı mümaniət təşkil etmədi. Biləks [əksinə], Məclisi-Millimizin tezliklə açılmaq lüzumiyyətini meydana qoydu.

Çünki, yuxarıda icmalən [qısaca] zikr etdiyimiz əhvalatın bilaxirə [daha sonra] Türk Azərbaycan Cümhuriyyəti üçün mübarək və müsaid bir yola düşməyi məhz Parlamanımızın vücudundan və çalışmasından asılı bir məsələdir.

Böylə olan surətdə, deməli, qəlbimizdə bəslədiyimiz ümid – Parlamanımızdır. Və ümidvarıq ki, cavan Parlamanımız, bu ümidimizin hüsulu [hasil olması, baş tutması] yolunda var qüvvəsi ilə çalışacaq və siyasi imtahanını xaricilər ənzarı [nəzərləri] qarşısında parlaq bir surətdə verməklə vətənimizin istiqlal və azadlığına birinci səbəb olacaqdır.

Yaşasın Türk Azərbaycan Cümhuriyyətinin cavan Parlamanı!

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN PARLAMANI DƏVƏTİ MÜNASİBƏTİLƏ

### IV

Bu gün Azərbaycanın həqiqi sahibləri – xalq – öz nümayəndələri lisanı ilə Parlaman kürsiyi-xitabətindən [xitabət kürsüsündən] öz arzu və əməllərini [istəklərini] aləmi-bəşəriyyət hüzurunda nümayiş etdirəcəklərdir. Azərbaycan türkləri məhkum ikən hüquqi-milliyyə və istiqlal mübarizəsi düsturu ələ meydana atmış olduğu "Yaşa və özgələrə yaşamaq imkanı ver" şüarına sadiq qalaraq, məhkum ikən tələb etdiyi mütənasib nümayəndəlik əsasını müstəqil olduqda da unutmayaraq, Azərbaycanda əqəliyyət [azlıq] təşkil edən millətlərin də mütənasib nümayəndəlik haqqına riayətlə, bu əsas üzərinə Parlaman çağırmağı lazım bildilər.

Azərbaycan türkləri həmişə ağalıq, hakimlik üçün deyil, hüquqi-milliyyə və bəşəriyyənin təmini üçün çalışdıqlarını bir daha isbat edərək, Cümhuriyyətimiz daxilində yaşayan ümum vətəndaşlarımızı həyatımızın quruluşunda iştiraka dəvət etdilər. Azərbaycanda heç millət, heç sinif, heç silk [təbəqə] hakim ya məhkum ola bilməz. Hamı vətənin həm ağasıdır, həm nökəri. Hər bir vətəndaş gərək ümumi vətənin səadəti ilə məsud, ələmi ilə müəllləm olsun [kədərlənsin].

Hamı özünü müsavül-hüquq [bərabərhüquqlu] vətəndaş hiss etsin. Bu isə məmləkət daxilində yaşayan bütün vətəndaşların gərək təşriiyyə [qanunvericilik] və gərəksə icraiyyə müəssisələrində miqdarına mütənasib nümayəndəliklə iştirak etməsi ilə hasil ola bilər. Bu mülahizə ilədir ki, Azərbaycan Parlamanında da hər millətin miqdarına görə nümayəndəlik dəvət edilmişdir.

Parlamanın bugünkü iclasında bütün millətlərin nümayəndəliyi üz-üzə gələrək məmləkətimizin gələcək müqəddəratını təyinə şüru edəcəkdir [başlayacaqdır].

Fəqət, bu iclasda milli nümayəndəlik əsasına riayətlə bərabər, vətənimizin mənafeyi və bütün istiqbalımızın bu heyət əlində olduğu nəzərə alınaraq, burasına diqqət verməlidir ki, Parlamana milli nümayəndəlik bayrağı altında hər təsadüfi gəldi-keçər nümayəndələr daxil olmayıb, ancaq Azərbaycan vətəndaşları iştirak etsinlər. Buraya gələcək nümayəndələr və onları göndərən təşkilat, özlərini Azərbaycan vətəndaşı hiss edərək gəlməli və göndərməlidirlər.

Bu gün Parlaman açılması ilə hökumət təşkili məsələsinin də növbəti gəldiyi və həllinin tamamilə Parlamandan asılı olduğu nəzərə alınarsa, bu məsələnin əhəmiyyəti bir qat daha artar. Həftələrdən bəri mövzuyi-bəhs [mübahisə mövzusu] olan hökumət təşkili məsələsində millətlər, firqələr və siyasi cərəyanlar arasında hələ bu vaxtadək ümumi bir dil tapılmamış və uzlaşma hasil olmamışdır.

Müştərək hökumət təşkili məsələsi hal-hazırda ən ixtilaflı bir məsələdir. Bunun ətrafında bu gün hirs [ehtiras] və təmahlar qaynaşaraq min dürlü qeydlər-şərtlər qoyulur: Bəziləri müştərək Azərbaycan Hökuməti təşkilinə iştirak etmək üçün Ümumrusiya Məclisi-Müəssisanının Azərbaycan Hökuməti tərəfindən qəbul və təsdiqini şərt qoyurlar. Digərləri bizə müttəhid [birləşmiş; vahid] Rusiyanın qəbul və təsdiqini təklif edirlər. Fəqət, hangi Rusiyanı tanımalıyız, bilmiriz. Biz müttəhid Rusiya prinsipini əsas etibarı ilə danmayırız. Fəqət, halhazırda Rusiyanı yoxdan var etmək azərbaycanlıların əlində deyildir. Hətta Ümumrusiya Hökuməti adında bir neçə hökumət var ki, bu da müttəhid Rusiya şüarından uzaqdır. Bu məsələnin qövldən feilə [sözdən işə] gətirilməsi və surəti-həllində bütün dünya mənfəətdar olduğundan beynəlmiləl mühüm bir məsələ təşkil edir ki, həlli də beynəlmiləl bir məclisə bağlıdır. Bu da hamının gözlədiyi beynəlmiləl Sülh Konfransından ibarətdir.

Fəqət, biz nə yapalım? O məclis çağırılaraq Rusiya məsələsini həll edənədək (hələ surəti-həllindən sərfi-nəzər) [nə surətlə həll olunacağını bir kənara qoysaq belə] ayağımızı ayağımız üstündən aşıraraq laqeyd oturub da, məmləkəti hökumətsiz, başsız buraxalımmı? Bu suala cavab vermək üçün darısqal firqə proqramı, yaxud mənsəb həvəsini buraxıb da, xalqın mənafeyini, camaatın arzusunu riayətlə məsələyə bu nöqteyi-nəzərdən yaxlaşmalıdır.

Onların mənafeyi isə Rusiyanın təcdidi [bərpası], millətlərin münasibat və müqəddəratını daha səlahiyyətli cahan konqresinə buraxıb da bu gün məhəlli dərdlərimizə çarə tapmağı tələb edir. Ona görədir ki, bu gün Parlamana cəmləşəcək olan Azərbaycan vətəndaşları ancaq səlahiyyətdar olduqları məsələlərin müzakirə və həlli ilə iştiğal edib [məşğul olub], min dürlü müsibət və məşəqqət çəkmiş olan fəqir əhalinin yaralarına məlhəm qoymalı, onların sükut və asayişlə yaşamalarını təmin etməlidirlər. Niza [çəkişmə, toqquşma] və ixtilafı kənara ataraq, camaatın mənafeyini hər şeydən uca tutmaq və onun təmini üçün çalışmaq lazımdır.

Ümidvar oluruz ki, keçirdiyimiz ağır və məsuliyyətli tarixi günlərdə xalq nümayəndələri ümumi bir lisan taparaq öhdələrinə düşən vəzifəni şərəflə ifa edərlər.

*Xəlil İbrahim*

## PARLAMANDAN NƏ TƏLƏB OLUNUR?

Üçüncü Aleksandr rus taxtına çıxar-çıxmaz ricali-kübradan [əsilzadələrdən] bir məclis tərtib verilmişdi ki, həmin məclis Rusiyada parlaman üsulunu tərtib vermək üçün bir proqram yapsın. Proqram yapılıb imperatorun hüzurunda müzakirə olunur və ümumun meyl və məhəbbətini qazanır.

Bu halda, Rusiyanın missionerlər ocağı pərəstarı [qulluqçusu] və hamisi mütəvəffa [mərhum] Pobedonosov, imperator hüzurunda səcdəyə düşüb gözləri yaşlı bir halda sübutlar və dəlillərlə "parlamanın" müzirr [zərərli] bir şey olduğunu isbata yetirir və məramına da nail olur. Məclis qapadılır və proqram da yandırılır.

Pobedonosovun dəlillərindən biri də bu idi ki, "Avropa parlamanlarında boş-boş danışıqlardan başqa əhalinin mənfəətinə dair heç bir iş görülməyir. Odur ki, böylə məclislərə «parlaman», yaxud «parlamento» demişlər ki, mənası da «göftüguxana» [söhbət yeri] deməkdir."

Bu nöqteyi-nəzərlə Pobedonosov parlaman kəlməsini ruscaya tərcümə edib, "qovorilnya" (Говорильня) adı qoymuşdur. Bu kəlmənin lüğəvi mənalarından biri də "göftüguxana" deməkdirsə də, lakin istehza təriqi [yolu] ilə söylənmiş bu kəlmənin doğruca mənası "laqqırtıxana" deməkdir.

İştə, rus "laqqırtıxana"sı düzəlmədi! Pobedonosov gözəlcə anlayırdı ki, "qovorilnya" tərtib yapılarsa, missionerlərin tamamən paxırları açılacaqdır. Mədəni Yevropa əhalisi biləcəkdir ki, Rusiyanın qeyri-rus taifələri, əzan-cümlə [o cümlədən] milyonlarca tatarlar, qırğızlar, noqaylar, başqır[d]lar missionerlər əli ilə zorən xristian dinini qəbul edirlər. Qəbul etməyənlərin əllərindən suları, torpaqları cəbrən [zorla] alınıb rus mühacirlərinə verilir. Biçarələrin yüzlərcə məktəbləri qapadılır, işkollardan türk-tatar dili qovulur. Mətbuata, cəridəyə [qəzetə], kitab və risalə təbinə [nəşrinə] izin verilməyir, daha nə cəbr və zülmlər olur!

Söz yoxdur ki, bu işlər açıldığı halda Yevropa parlamanlarında da bu barədə bəhs açılacaqdı və olar ki, missionerlik məsələsi tamamən qaldırılmasaydı, yenə də qeyri-rus taifələrinə olan cövr və zülmün qabağına ya bir hədd, ya bir sədd çəkiləydi.

Bu gün açılan Azərbaycan Parlamanına biz pobedonosovlar nöqteyi-nəzəriylə baxmayıb, "laqqırtıxana" da yox, haşa [Allah eləməsin!], hətta "göftüguxana" belə deməyiriz! Bu, müqəddəs bir yerdir ki, orada millətin dərdi, vətənin haləti müzakirə olunub, çarələri üçün də tədbirlər ittixaz olunacaqdır [tədbirlər görüləcəkdir].

Əlbəttə, məbusan [millət vəkilləri] arasında bəliğ [bəlağətli; təsirli] və uzun-uzadı nitq söyləyənlər də az deyil. Lakin, onlardan millət namına [adına] rica olunur ki, fəsahət və bəlağət [gözəl, təsirli, aydın və ifadəli danışmaq] qabiliyyətlərini və nitqguluq [nitq söyləmək] məharətini sair "asari-nəfisə" [incəsənət] məclsilərinə buraxıb, Parlamanımızda ancaq dərdlərimizdən danışsınlar, əlaclar yapsınlar.

Bunların hamısından sonra məclis xitama erdikdə, millətimiz, məbuslarımızdan nə iş gördüklərini tələb edəcəklər. Bu gərək hər bir qədəmdə, hər bir hərəkətdə məbusanın yadından çıxmasın.

Məbusanın görəcəyi işləri hədsiz və hesabsızdır. Burada hamısını zikr etmək mümkün olmadığı üçün zehnimizi işğal edən və ən dəyərli məsələlərdən bir neçəsini burada zikr edirəm.

1) Azərbaycanın ənva' [müxtəlif] nöqtələrində bu gün aclıq davam edir. Birinci çarə gərək bu dərdə olsun. Zira, aclıq bəlasını çəkən milləti mədəniyyətə və sair islahata dəvət etmək mümkün deyil. "Əvvəl təam, sonra kəlam."

2) Yollar gərək islah olunsun. Ta ki, camaatın zəxirəsi [ərzağı] bir yerdən o biri yerə vaxtlı-vaxtında gedib çatsın da aclığın qabağı alınsın.

3) Bahalığa bais olan kişilərdən [şəxslərdən] möhtəkirlərlə bərabər, rüşvətxorlar da gərək təhti-məsuliyyətə [məsuliyyət altına] alınsın. Hərgah, bu məsələyə indidən çarələr aranmazsa, şol vaxt Rusiyanın başına gəlmiş bəlalardan bir çoxu da bizim Azərbaycanın başına gələcəkdir.

4) Məktəb, ziraət, sənaət və ticarət kimi ən mühüm məsələləri gərək Parlamanımız fəramuş etməsin [unutmasın], qanunlar yapsın.

5) Əhalinin bu gün əhvali-sihhiyyəsi [sağlamlıq vəziyyəti] çox fəna bir haldadır. Öylə kənd ya şəhər vardır ki, əmrazi-sariyədən [yoluxucu xəstəliklərdən] yarısı, bəlkə daha çoxu qırılmışdır. Böylə ağır bir işə etinasızlıq ilə baxılarsa, daha bir ağır, daha bir şiddətli nəticə hüsulə gələr.

6) Nizam və asayiş bərpa olmazsa, heç bir mətləbə də nail olmarız. Binabərin [buna görə], xarici və daxili təcavüzatın qabağı gərək alınsın.

İştə, bu altı bab [maddə] ilə bizim tələbatımız bitdi. Bundan artıq bu il iş görülərsə, minnət və təşəkkürümüz vardır. Ancaq, bu göstərilən maddələrə çarə aramaq, hamı məsələlərdən fərzdir [vacibdir].

Haydi, Allahın tövfiqi [köməyi] ilə, millətin də müavinət [yardım] və qeyrəti [səyi] ilə işə başlayınız və millət məsuliyyətini də bir saat, bir dəqiqə unutmayınız.

*Fərhad Ağazadə*

## "PROMETEY"

Qədim yunan xurafatınca ilk dəfə yer üzünə alovu göydən alıb gətirən Prometey olmuşdur ki, bu cəsarətinə görə böyük məbud Zevs tərəfindən edamına hökm edilərək, Qafqaziya dağlarında çarmıxa çəkilmiş və qartallar onun ciyərini para-para qoparıb yemişlərdi. Prometey edam edilmişsə də, onun dünya üzünə gətirdiyi alov sönməyib, əsrlərcə qalmış, mədəniyyət və bəşəriyyətə, bəlkə bütün həyata əvəzsiz bir xidmət etmişdir.

Zavallı müvərrix [tarixçi], bu əfsanəni tarixə yazarkən, bunu qədim yunanlara bir masal [nağıl], əyləncə olmaq üçünmü yazırdın? Yaxud, bir neçə min il sonra bir millətin, bir ölkənin tarixinə sərnəviştmi [alın yazısımı] yazırdın? Bax, bu gün sənin Prometeyin yenə canlanır, yenə Azərbaycanın qayalarında onun para-para ciyərindən həqiqət alovu nəbəan edir [fışqırır].

Ey ixtiyar yunan müvərrixi, sən Prometeyin alovu gətirdiyi üçün Qafqaziyada edam edildiyinə hökm edərkən, şübhəsiz Azərbaycanın təbii atəşkədələrindən bixəbər deyildin. Bax, bu gün yenə atəşkədədən nur doğur. Fəqət, şimdiki nur vəhdət, həqiqət, hürriyyət nurudur. Bir zamanlar Şərqin atəşpərəstləri ziyarət üçün Azərbaycanın Suraxana atəşkədələrinə gəlir, onu təvaf edirdisə [başına dolanırdısa], imdi də həmin Şərqin bütün əsir, zəlil millətləri Azərbaycanın hürriyyət və istiqlalını, Cümhuriyyətini təqdisə [sitayiş etməyə; əzizləməyə] gələcəkdir. İştə, bu gün o Cümhuriyyət bütün mənası ilə başlayır. Bu gün, əsrlərcə işgəncə, zülm görmüş bir millət, kəndi idarəsini əlinə alır və bu idarəni də ədl [ədalət] və insaf üzərinə, yəni cümhuriyyət əsası ilə qurur. Bədbinlər, bədxahlar nə deyəcəksə desinlər. Ədalətə, cümhuriyyətə bunların boş sözlərindən heç bir ləkə qonmaz. Cümhuriyyət bütün əsrlərdə möhtərəm və sağlam bir üsuli-idarə ola gəldiyi kimi, bu gün onun sayəsində yaşamaq istəyən Azərbaycan vətəndaşları üzərinə də heç bir töhmət atıla bilməz. Qəzalardan, şəhərlərdən, siyasi partiyalardan, əqəliyyətdə [azlıqda] olan millətlərdən mütəsavi [bərabərhüquqlu] nümayəndələr gələrək müstəqil Azərbaycan Hökumətinin əsasını qoyurlar. Bu əsas sağlam olarsa, Azərbaycanın istiqbalı və tərəqqisi təmin edilmişdir deməkdir. Zira bir ölkənin tərəqqisi üçün xidmət edən amillər – təbii sərvət, ziraət, ticarət və sairə, Azərbaycanda, bərəkət versin ki, bir çox sair məmləkətlərə nisbətən pək əla dərəcədədir. Məsələ yalnız qurulacaq əsasların sağlam, milli və yaşamağa müstəid [yaşamaq qabiliyyətinə malik] olması məsələsidir ki, bu da ümum millətin, əhalinin nümayəndələri isbati-vücud [iştirak] etdikləri üçün təmin ediləcəkdir, demək olar. İnşallah, ən yaxın atidə [gələcəkdə] atəşpərəstlər məbədi Azərbaycanı nurpərəstlər qütbü, mədəniyyət ocağı görməklə, hər bir azərbaycanlı bəxtiyar olacaqdır.

Yaşa, istəkli cümhur vətənimiz; yaşa, ey Şərq tarixinin Prometeyi! Sən xalqa mənfəət verəcək alovlu nuru göydən alaraq yerə saç, insanlara tapşır! İstər bunun üçün səni edam etsinlər!

*Əli Yusif*

## SALAM SİZƏ

Salam sizə, ey Azərbaycan Parlamentosu məbusları! Hələlik sizləri salamla qarşılayır, nasıl təbrik edəcəyimizi sonraya buraxırız. Keçirməkdə olduğumuz bu təhlükəli, böhranlı və məsuliyyətli bir zamanda iş başına çağırıldınız, millətin müqəddəratını əllərinizə aldınız, ağır vəzifələr dəröhdə etdiniz [öhdənizə götürdünüz]. Siz, siz, ey Azərbaycan məbusları, istiqlalımızın bünövrəsi hesabındasınız. Necə ki, bir imarətin bünövrəsi qonulan daşların üstünə yığım-yığım daşlar töküldükdən sonra ancaq o imarət ucala bilir, öylə də sizin üstünüzə bir çox ağırlıqlar, daşlar və daha bilməm nələr-nələr töküləcəkdir. Siz özünüz görünməsəniz də, ucaldacaq olduğunuz amali-istiqlal sizi göstərəcək, aləmə bildirəcəkdir. "Bünövrə daşları" kimi "ziri-zəmində" [torpağın altında] qalmaq fikri ilə işə başlanılmazsa, bütün imarət də ucalmaz. Amal [və] arzulara da nail olunmaz.

Millətimizin varlığını, istiqlalını təmin üçün möhtərəm məbuslarımız varlıqlarından keçməyəcəklərinə əlimizdə heç bir dəlilimiz yoxdur. Zatən varlıq gizli qalammaz. Bir zaman gələr ki, özünü göstərər. Möhtərəm nümayəndələrimizi də cənabi-haqqın tövfiqi [köməyi] ilə işlərindən, fədakarlıqlarından görəcək, tanıyacağız və ancaq o zaman adlarını altun hərflərlə gənc Azərbaycan Cümhuriyyəti tarixinin ilk səhifələrinə yazacağız.

*Hüseyn Mirzəcamalov*

## MƏCLİSİ-MƏBUSAN GÜŞADINI TƏBRİK EDİRƏM!

Bu gün müstəqil vətənimizin hürr Məclisi-Məbusanı güşad edilir [açılır]. Bu günün biz azəri türkləri tarixində xüsusi bir səhifədə, xüsusi bir yer tutacağı vazehdir [bəllidir].

Yüz sənədən ziyadə istiqlaliyyəti yerə gömmüş [basdırmış] bir millət, hüquqi-milliyyəsi namına əza [əziyyət] və rəzalətə düçar olmuş bir kütlə, bu gün azad nəfəs almağa başlayır. Yüz sənədən ziyadə mədəniyyəti təqib edilən, varlığı tapdalanan, abadlığı xarabazarlığa mübəddəl edilən [çevrilən] azəri türkləri, öz "tanrısı" inayəti [lütfü, ehsanı] ilə yenidən hürriyyət zəmisinə çıxıb, mədəniyyət toxumu saçmağa dəvət edilir. Yüz sənədən ziyadə milliyyəti qaralanan, amalı ürəyi məhbəsində qalan millətimizə özünü göstərməyə müsaidə verilir.

Millətimiz özünü göstərəcəkdir!

Millətimiz dünyanı işğal etməyəcək, başqalarını yıxmağa çalışmayacaq, qonşularına həsəd bəsləməyəcək; millətimiz mədəniyyətə, tərəqqiyə, sülhə, müsalimətə [əmin-amanlığa], başqalarının da azad yaşamasına bacardığı qədər müavinətdə bulunacaq [kömək edəcək].

İştə böylə bir millət istiqlaliyyətə layiq və böylə bir millət bütün dünya üçün timsal deyilmidir, əcəba?

Bunu, bu şüarları biz kürreyi-ərzin bütün gizli bucaqlarına belə bildirməliyiz. Mədəniyyət hamisi Avropadan başlamış, tüfəng şaqqırtıları, top gumburtuları, bomba partlayışından da qüvvəli qan nəhrləri arasından millətlərə istiqlaliyyət şüarı doğuran Amerikayadək, Asiya və Afrikayadək işbu şüarlarımızı ərməğan aparmalıyız.

İştə, Parlamanımız bunu yapacaq, Parlamanımız istiqlaliyyətimizi təsdiq etdirəcək, Parlamanımız bütün varlığımızı, biz azəri türklərinin fəqət [yalnızca] sülh və müsalimət tərəfdarı olduğumuzu sübutla müstəqil həyata yararlı olduğumuzu, qara fikirli timsahlara, millətlər əzası ilə xoşlanan kabuslara göstərəcək, göstərəcək də, lal olmağa məcbur edəcəkdir!

Parlamanımızın vəzifəsi ağırsa da, kirdarı[nın] [gücünün; imkanlarının] genişliyinə itminanımız [inamımız] tamdır. Tanrı müvəffəq buyursun!

*Tələbə: Ayn. Əbdül*

* * *

Bu gün Azərbaycan Məclisi-Məbusanı açılması münasibətilə məbuslar ilə Azərbaycan qardaşlarımı təbrik edirəm və bu münasibətlə hədiyyeyi-acizanə olaraq Azərbaycan-türk yetimləri nəfinə [yararına] olmaq üzrə darüleytama [yetimxanaya] 1000 (min) manat ianə verir və istiqlalımızın paydar olmasını Xəllaqi-təaladan [uca Yaradandan] istirham edirəm.

*Qulaməli Əliasgərzadə*

**İdarədən:** Məzkur [deyilən] məbləğ idarəmizə təhvil verilmişdir.

## TƏBRİK

* Hacıbəyov Qardaşları Müdiriyyəti və onun təhti-idarəsində [idarəsi altında] olan artistlər dəstəsi, cavan Parlamanımızın güşadını [açılışını] ənsəmimülqəlb [ürəkdən] təhniyət [mübarəkbadlıq] və təbriklə, vətən və millətimizin azad[lığı] və istiqlalı uğrunda var qüvvəsi ilə çalışmaqla milli ədəbiyyat, milli mədəniyyət və sənayeyi-nəfisəmizin [incəsənətimizin] azad və sərbəst tərəqqi və inkişafına bir vəsilə olacağına qəvi [qüvvətli] imanla etiqad edir.

* "Azərbaycan" qəzetəsinin zəhmətkeş türk mürəttibləri bu gün cavan məmləkətimizin xalq nümayəndəliyi olan Məclisi-Məbusanımızın güşadını ürəkdən təbrik və təhniyətlə istiqlali-milliyyəmizin təmini və füqərayi-kasibənin [zəhmətkeşlərin] rifah və səadəti uğrunda çalışacağına inanır.

Yaşasın qəzetə xalq nümayəndəliyi!

* Şuşa ali məkatib [məktəblər] tələbələri cəmiyyəti Azərbaycan Məclisi-Məbusanının güşadını ənsəmimülqəlb təhniyətlə istiqlal və hürriyyət uğrundakı bütün fəaliyyətində müvəffəqiyyətlər dilər.

*Sədr və katib*

## Azərbaycan Məclisi-Məbusanı güşadı münasibətilə rəis Məhəmməd Əmin bəy Rəsulzadə namına aşağıdakı teleqraflar alınmışdır:

**Gəncə:** Bu gün, parlaq tarixi bir gündə Azərbaycan Parlamanı güşad edilir. Mən və bütün Gəncə quberniyası əhalisi bilafərqi-dinü millət [din və millət fərqi olmadan], səmimi-qəlblə sizi və hamı Parlaman əzasını [üzvlərini] çoxdan bəklədiyimiz Parlaman güşadı münasibətilə təbriklə, Allahu-zülcəlal [cəlal sahibi, ən uca, ən əzəmətli Allah] həzrətlərinin inayətilə fəaliyyətinizə müvəffəqiyyət diləyiriz.

*Qubernator: Vəkilov*

**Gəncə:** Gəncə Bələdiyyəsi, bütün əhali təbəqələri ilə bilafərqi-dinü millət [din və millət fərqi olmadan], mənim vasitəmlə Azərbaycan Cümhuriyyətinin birinci Parlamanını səmimi-qəlblə təbrik etməklə işbu ağır gündə və gələcəkdə Azərbaycanda yaşayan millətlər üçün mədəniyyət yolunda fəaliyyətində müvəfəqqiyyət diləyir.

*Gəncə Bələdiyyə rəisi:*
*Əliasgər Xasməmmədov*

**Tiflis:** İşbu tarixi və təntənəli Parlaman güşadı gününü Azərbaycanın Tiflisdəki mürəxxəsliyi [nümayəndəliyi] səmimi-qəlblə təbrik edərək inanır ki, vətənə olan doğru hiss və məhəbbətlə vətəni mədəniyyət, tərəqqi və parlaq istiqbala tərəf aparacaqdır.

*Faris bəy Vəkilov*

**Kürdəmirdən:** Gənc dövlətimizin istiqlaliyyətini mühafizə etmək arzusunda olan Şamaxı uyezdinin zəhmətkeş kəndliləri, əvvəlinci Azərbaycan Məclisi-Məbusanının güşadını təbrik edir və Məclisi-Məbusan ilə Azərbaycan dövlətinin, Azərbaycan demokratiyasının ehtiyaclarına əməl edəcəyinə ümid bəsləməkdədir.

*Camaat vəkilləri*

**Şəki:** Yeni dünyaya gəlmiş Azərbaycan Cümhuriyyətinin Parlaman güşadı kimi tarixi bu addımını təbrik edirəm. İşbu addım sevgili vətənimiz və əzim [böyük] islam millətinin istiqbalı rəhnidir. Qoy, müəzzəm Avropanın fulad [polad] qələmi istiqlalımızı təsdiq etsin!

*Bələdiyyə rəisi Yeluseyski*

**Şəki:** Azərbaycan Parlamanının tarixi güşadı gününü Şəki əhalisi təbrik etməklə, gələcəkdə xalq hüququ yolundakı fəaliyyətində müvəffəqiyyət diləyir. Şəki əhalisi sevgili Azərbaycanın istiqlaliyyəti və hüququ yolunda heç bir müavinətdən [yardımdan] çəkinməyəcəkdir.

*Qəza qaimməqamı Rəfibəyov*

**Qazax:** Qazax Mütəəllimlərə Müavinət [tələbələrə kömək] Cəmiyyəti, Azərbaycan Cümhuriyyəti Parlamanının güşadını təbriklə, inanır ki, işbu tarixi gün hamı cavan Cümhuriyyətlə Parlaman əzasını [üzvlərini] bir yerə cəm edərək millət və Azərbaycanın istiqlaliyyətini müdafiə təriqinə [yoluna] sövq edəcəkdir. Allahu-təala müvəffəq buyursun.

*Sədr: Şıxlinski*

**Qazax:** Qazax qəzasının müsəlman əhalisi Parlaman güşadını təbrik edir. İmperializm yədindən [əlindən] qurtarmış Azərbaycanın üfüqündə yeni həyat günəşi doğur. İşbu günəş, gələcək Sülh Konfransının istiqlalımızı təsdiq edəcəyini göstərir. Əhali muxtar xalq mürəvvici-əfkarını [xalqın fikirlərini yayan seçilmiş qurumu] təbriklə müsmir [səmərəli] fəaliyyət diləyir. Əhali Parlamanın fəaliyyətində heç bir müavinətdən [kömədən] çəkinməyəcəkdir.

*Müvəkkil: Firidun Köçərli*

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 7 dekabr (Şənbə günü) tarixli 58-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

**Ağdam:** Qarabert əhalisi yeni doğmuş Azərbaycan Parlamanını səmimi-qəlblə təbrik etməklə öz müntəxəbinə [seçilmişlərinə] itminan [etimad] izhar edir; gələcək fəaliyyətdə Parlamana müvəfəqiyyət diləyir.

*Müvəkkil İbrahimov*

**Ucar:** Göyçay qəzasının kənd camaatları müvəkkillərinin ümumi iclası Azərbaycan Cümhuriyyətinin demokrasi Parlamanına öz "salam"ını göndərməklə, gələcək ağır fəaliyyətində müvəffəq olmasını istirham edərək inanır ki, bütün dünyaya özünün istiqlaliyyətə layiq və müqəddəratını təminə müqtədir olduğunu göstərəcək və müdafiə edəcəkdir.

*Ümumi iclas*

**Quba:** Söhüb camaatının müvəkkili Azərbaycan Parlamanı güşadını təbriklə inanır ki, Parlaman türk millətinin tərəqqisi və qonşularla sülhlə yaşaması yolunda heç [bir] iqdamatdan çəkinməyəcəkdir.

*Söhüb camaatının müvəkkili:*
*Soltanmahmud Hacı Əbdürrəhim oğlu, Şamil Qurban oğlu*

**Quba:** Qəza idarəsi məmurini [məmurları] Parlaman güşadı ilə ziyadəsincə məmnun olmaqla öz səmimi təbriklərini izhar və Parlaman əzasına [üzvlərinə] fəaliyyətlərində qüvvə və kirdar [güc, imkan] genişliyini istirham edirlər.

*Quba qəza idarəsi məmurini müvəkkili,*
*Quba qəza qaimməqamının baş müavini: Ağakişibəyov*

**Quba:** Azərbaycan Parlamanı açılması münasibətilə biz Xuqbalın kəndliləri fəlakətə düçar olmuş kəndlilərin hüququnu mühafizə edəcək təzə məclisimizi təbrik edirik.

*Xuqbalı camaat vəkilləri:*
*Hacı Puram və Hüseyn Xası oğlu*

**Quba:** Azərbaycan Parlamanı açılması münasibətilə biz Palıq kəndliləri fəlakətə məruz olmuş kəndlilərin hüququnu mühafizə edəcək təzə məclisi təbrik edirik.

*Palıq camaat vəkili:*
*Məhəmməd Oruc oğlu*

**Quba:** Xızı kəndliləri namından [adından] çoxdan bəri arzusunda olduğumuz Azərbaycan Parlamanının açılmasını ürəkdən təbrik edib öz vətəndaşlıq haqqımıza nail olmağımıza əmin oluruq.

*Xızı kəndi camaatı vəkilləri: Ruhulla Hacı Vəlibəy oğlu və*
*İbrahim bəy Rəcəb bəy oğlu*

**Quba:** Həmsar kənd camaatı vəkilləri, Azərbaycan Parlamanının açılmasını təbriklə, Azərbaycan Parlamanının türk millətinin dirilməsi və Qafqaziya millətləri ilə mehriban qonşuluq münasibatı [münasibətləri] vücuda gətirməsindən ötrü heç bir müxalifət qarşısında dayanmayacağına ümidvar olur.

*Həmsar kənd camaatı vəkilləri: Hacı Əlirza İmamqulu oğlu və*
*Ağası Hacı Osman oğlu*

**Quba:** Suqub kənd camaatı vəkilləri Azərbaycan Parlamanının açılmasını təbrik edib, türk millətinin dirilməsi və Qafqaziya millətləri ilə mehriban qonşuluq münasıbatı vücuda gətirməsindən ötrü Azərbaycan Parlamanının heç bir mümaniət [maneə] qarşısında dayanmayacağına ümidvar olurlar.

*Suqub kənd camaatı vəkilləri: Soltanmahmud*
*Hacı Əbdürrəhim oğlu və Şamil Qurban oğlu*

**Quba:** Duybir kənd camaatı vəkilləri camaat namından birinci Azərbaycan Parlamanını təbrik edirlər.

*Camaat vəkilləri: Həmzə Abduh oğlu və*
*Hacı Hacıbəy Dostu oğlu*

**Quba:** Azərbaycan Parlamanının açılmasını təbrik edib cavan Azərbaycan Cümhuriyyətinin möhkəmləşib və nəşvünüma [inkişaf] etməsi yolunda var qüvvəsi ilə çalışmağı Parlaman nümayəndəliyindən gözləyirik.

*Zəvin kənd vəkili: Həsən Bədəl oğlu*

**Quba:** Azərbaycan Parlamanının açılması şad xəbərini eşidib səmimi qəlbdən təbrik edirik.

*Baxşılı kənd camaatı vəkili: Əbülfəz Səfər oğlu*

**Quba:** Mucuq kənd camaatı vəkilləri Azərbaycan Parlamanının açılmasını təbrik edirlər.

*Mucuq kənd camaatı vəkilləri: Hacı*
*Murad İsa oğlu və Şükur Musa oğlu*

* Keçirdiyimiz hadisələr münasibətilə fəlakətə düçar olan Alpan kənd camaatı tezliklə qanun və asayiş bərpa ediləcəyi ümidi ilə Azərbaycanın birinci Parlamanını təbrik etməklə şaddır.

*Camaat vəkilləri: Bəybala bəy Qayıbov və Qədir Qurban oğlu*

* Azərbaycan Parlamanının açılması münasibətilə biz Bostançı camaatı kəndliləri fəlakətə düçar olan kəndlilərin hüququnu müdafiə edəcək Parlamanımızı təbrik ediriz.

*Bostançı camaatı vəkili:*
*Zal bəy Ədilbəyov*

* Azərbaycan Parlamanının açılması münasibətilə İqriq kəndliləri fəlakətə düçar olan kəndlilərin hüququnu müdafiə edəcək Parlamanı təbrik edir.

*İqriq kənd camaatı vəkilləri:*
*Ömər Məsum oğlu və*
*Novruz bəy Hacı bəy oğlu*

* Talabı camaatının vəkilləri Azərbaycan Parlamanının açılmasını təbrik edib ümidvar olur ki, Azərbaycan Parlamanı türk millətinin dirilməsinə və Qafqaziya millətləri ilə mehriban qonşuluq münasibatının vücuda gətirilməsinə çalışmaqla, heç bir mümaniət qarşısında dayanmayacaqdır.

*Talabı camaat vəkilləri: Əli Nəriman Hacı Allahverdi oğlu,*
*Əbdül Qəhrəman oğlu və Ağa Əkbər oğlu*

* Azərbaycan Parlamanının açılmasını təbrik edib, kəndlilərin tapdalanmış hüquqlarını müdafiə edəcək Parlaman üzvlərinə salam göndəririk.

*Pirəbədil kənd camaatı vəkilləri: Q. bəy Oruc oğlu və*
*Müzəffər Musabəyov*

**Quba:** Rük cəmiyyəti vəkilləri Azərbaycan Məclisi-Məbusanının güşadını təbrik edirlər. Bununla bərabər türk millətinin çoxalmasına və Qafqaziyada yaşayan qonşu millətlərlə əlaqəmizin bərpa edilməsi üçün Məclisi-Məbusanımızın heç bir maneə qarşısında durmayacağına inanırlar.

*Rük cəmiyyəti vəkilləri:*
*Salman Arzuman oğlu və Məhəmmədrza İsa oğlu*

* Mirzəcan kənd camaatı vəkilləri Azərbaycan Məclisi-Məbusanının güşadını təbrik edirlər.

*Mirzəcan kənd camaatı vəkilləri:*
*Hacı Zülfüqar Molla Şeyx Məhəmməd oğlu və*
*Molla Nurəli Hüseyn oğlu*

* Sayad kənd camaatı vəkilləri Azərbaycan Məclisi-Məbusanının güşadını təbrik edirlər.

*Sayad kənd camaatı vəkilləri:*
*Həmid Hacı Qurban oğlu və Məhəmməd Sadiq oğlu*

* Ləgər kənd camaatı vəkilləri Azərbaycan Məclisi-Məbusanının güşadını təbrik edirlər.

*Ləgər kənd camaatı vəkilləri: Feyzulla Əmirbəyov və S. Səfərov*

* Xuc kənd camaatı vəkilləri Azərbaycan Parlamanının açılmasını təbrik edirlər.

*Xuc kənd camaatı vəkilləri:*
*A. Hacı Mustafa oğlu və*
*Heydər Əhməd oğlu*

* Bizi vəkil edən Sədan camaatı tərəfindən Azərbaycanın birinci Parlamanını ürəkdən təbrik edirik.

*Sədan camaat vəkilləri:*
*Behbud Əhməd oğlu və Səttar Eldar oğlu*

* Camaatın vəkaləti ilə birinci Azərbaycan Parlamanını təbrik edib, Parlamanda olan möhtərəm əzalara [üzvlərə] salam göndəririk.

*Yugin Əzir kənd camaat vəkilləri:*
*Çərkəs Şahbaz oğlu və Süleyman Mustafa oğlu*

* Azərbaycanın birinci Parlamanının açılmasını ürəkdən təbrik edirik.

*Sərkərli kənd camaat vəkili: Abbas Zal oğlu*

* Quba həbsxana məmurları Azərbaycan Parlamanının açılmasını təbrik edib Azərbaycanın daimi surətdə davamını arzu edirlər.

*Həbsxana müdiri: Şəfibəyov*

**Quba:** Bugünkü gündə hüquqi-milliyyə və miriyyəmizə [milli hüquqlarımıza və hökumət hüququmuza, suverenliyimizə] malik olacağımıza bir vasitə olan və çoxdan bəri həsrətlə gözlədiyimiz Azərbaycan Parlamanının açılmasını Piral kənd camaatı tərəfindən səmimi-qəlblə təbrik ediriz.

*Piral kənd cəmiyyəti tərəfindən: Səfər bəy Əli oğlu və*
*Zeynal Özbək oğlu*

**Quba:** Bu gün kəndliləri hərcümərc və nizamsızlıqlardan mühafizə edəcək olan Məclisi-Məbusan açılır. Böylə bir tarixi günlə məsrur [şad] olaraq hörmətli əzalarına [üzvlərinə] salam göndəririz.

*Həbib kənd cəmiyyəti vəkilləri: Qalabəy Ağabala oğlu və*
*Sədulla Məhəmmədkərim oğlu*

**Quba:** Bugünkü gündə milli hüquqi-milliyyə və miriyyəmizi [milli hüquqlarımıza və hökumət hüququmuza, suverenliyimizə] təmin edəcək bir vasitə olan və çoxdan bəri həsrətlə gözlədiyimiz Azərbaycan Məclisi-Məbusanının açılmasını səmimi-qəlbdən Böyük Zixur kənd camaatı namından təbrik ediriz.

*Böyük Zixur kəndi vəkilləri: Qəhrəman Yüzbəy oğlu və*
*Qaraxan Qədeş oğlu*

**Quba:** Hacıxur kəndi camaatı namından [adından] çoxdan bəri gözlədiyimiz Məclisi-Məbusanın açılmasını səmimi-qəlbdən təbrik edir və bununla milli hüquqa vasil olacağımıza inanırız.

*Hacıxur camaat vəkilləri: Məhəmmədağa Azay oğlu və*
*Yusif İsmayıl oğlu*

**Quba:** Açıldığı günündən vətəndaşlıq hüququna erəcəyimizə etimad bəslədiyimiz Məclisi-Məbusan güşadını Həsənqala kənd cəmiyyəti namından səmimi-qəlblə təbrik ediriz.

*Həsənqala kənd cəmiyyəti vəkilləri:*
*Eyvaz bəy Musa bəy oğlu və Gülməhəmməd Samay bəy oğlu*

**Quba:** Hərcümərc və nizamsızlıqdan kəndliləri mühafizə edəcək Azərbaycan Məclisi-Məbusanı güşad edilir. Bugünkü günlə məsrur [şad] olaraq hörmətli əzalarına salam göndəririz.

*Güz kənd camaat vəkilləri:*
*Rəşid Mustafa oğlu və*
*Fərman Seyidəli oğlu*

**Quba:** Hərcümərc və nizamsızlıqdan kəndliləri himayə və mühafizə edəcək Azərbaycan Məclisi-Məbusanı güşad edilir. Bugünkü günlə məsrur olaraq hörmətli və möhtərəm əzalarına salam göndəririz.

*Evli kənd camaat vəkilləri:*
*Yusif Qoca oğlu və*
*Rza Məhəmmədəli oğlu*

**Quba:** Yasab kənd cəmiyyəti vəkilləri Azərbaycan Parlamanını təbrik edirlər.

*Yasab kənd camaatı vəkilləri:*
*Hacı Hidayət Ağaəli oğlu və*
*Cahangir Mürsəl oğlu*

**Quba:** Bu gün kəndliləri hərcmərclikdən mühafizə edəcək Parlaman açılır. Bu tarixi günə şad olub Parlamanın möhtərəm əzalarına salam göndəririk.

*Avaran kənd camaatı vəkilləri:*
*Molla Kamal Məhəmməd oğlu və Yunis bəy Səfər oğlu*

**Quba:** Çoxdan bəri gözlədiyimiz arzu bu gün vücuda gəldi. Cavan Azərbaycan Parlamanının açılmasını təbrik edib özümüzü xoşbəxt hesab etməklə bərabər, ümidvar oluruq ki, bizim sevgili Parlamanımız məqsədə çatmağımız üçün bizim qanuni hüququmuzun müdafiəsi yolunda heç bir mümaniət [maneə] qarşısında dayanmayacaqdır.

*Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Parlamanı!*
*Tuğədən kənd camaatı vəkilləri: Müslüm Hənifəyev, Nuhbala*
*Filidanov, Mustafa Xələf oğlu*
*və Atabala Qədir oğlu*

**Quba:** Üçgün kənd camaatı vəkilləri Azərbaycan Parlamanının açılmasını təbrik edirlər.

*Kənd camaatı vəkilləri:*
*Baqi Bağırov və A. Səfixan oğlu*

**Quba:** Qusar meşə məmurları vətənin tərəqqisi, hürriyyəti və istiqlaliyyəti rəhni olan Azərbaycan Parlamanını təbrik edirlər.

*Vəkillər: Yesinov və Orucov*

**Quba:** Zizik kənd camaatı vəkilləri Azərbaycan Parlamanının açılmasını təbrik edirlər.

*Zizik kənd camaatı vəkilləri:*
*Muxtar Vəli oğlu və*
*A. Abbasəli oğlu*

* Quba uyezdinin nahaq yerə mütəzərrir olan [zərər çəkən] kəndliləri Azərbaycan Parlamanının açıldığı günü bayram edib, Parlaman üzvlərinə səmimanə salam yetirirlər. Bu müəssisənin açılması ilə öz hüquqlarının özlərinə qaytarılacağına ümidvar olurlar.

*Xudat camaat vəkilləri:*
*Heybət Mahmud oğlu və Şəmsəddin Yusif oğlu*

**Quba:** Azərbaycan Parlamanının açılmasını təbrik edib, kəndlilərin tapdalanmış hüquqlarını müdafiə edəcək Parlaman üzvlərinə salam göndəririk.

*Köhnə Xudat camaat vəkilləri: Mahmud əfəndi Hacı Abdulla*
*əfəndi oğlu və Qənbər bəy Xeyir bəy oğlu*

**Quba:** Azərbaycan Parlamanının açılmasını təbrik etməyə vəkil olub, kəndlilərin tapdalanmış hüquqlarını müdafiə edəcək Parlaman üzvlərinə salam göndəririk.

*Xuran camaat vəkilləri: Məhəmməd İlğı bəy oğlu*
*və Nurulla Oruc oğlu*

**Quba:** Bu gün Azərbaycan kəndliləri Parlamanın açılması ilə öz haqlarına nail olurlar. Azərbaycan Parlamanının açılmasını ürəkdən təbrik edirik.

*Çarıx camaat vəkilləri:*
*Məşədi Kərim Xıdır oğlu və Kərbəlayi Cəfər Manaf oğlu*

* Azərbaycanın birinci Parlamanını təbrik edib müsəlmanların xeyrini mühafizə edəcəyinə ümidvar oluruq.

*Siyəzən kənd camaatı vəkilləri:*
*Xəlil Fərzəli oğlu və*
*Daşdəmir Dəmir oğlu*

* Azərbaycan Parlamanının açılmasını eşidib birinci Parlamanımızı ürəkdən təbrik edirik. Yaşasın Azərbaycan!

*Fındığan camaat vəkilləri:*
*Fətulla Nəsrulla oğlu və Mirbəy Zair oğlu*

* Azərbaycanın birinci Parlamanını ürəkdən təbrik etməklə kəndimizi bəxtiyarədd [hesab] edib, Allahın inayəti [köməyi] ilə məmləkətdə sülh və səlah [əminamanlıq] bərpa ediləcəyinə ümidvar oluruq.

*Əlixanlı kənd camaat vəkilləri: Hüseynağa Hüseyn oğlu*
*və Tacəddin Xeyri oğlu*

* Gil camaatı vətəndaşları Azərbaycan Parlamanını ürəkdən təbrik edirlər.

*Gil camaat vəkilləri:*
*Zəki Babaxan oğlu və Soltanəhməd Ramazan oğlu*

* Qafqaz Mütəallimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsi; Bakı və Dairəsi İslam Mütəallimlərinin İttifaqı səmimi-qəlblə gənc Azərbaycan Cümhuriyyəti Parlamanı güşadını təbriklə, əsrlərdən bəri bəslədiyi amalına erişməsinə müvəffəqiyyət diləyiriz. Biz mütəallimlər var gənc qüvvələrimizi vətənimizin tərəqqi və hürriyyəti məbədi ədd [hesab] etdiyimiz Parlamanımıza təqdim ediriz.

*Bakı İttifaqi-Mütəalimin*
*[Tələbələr İttifaqı] sədri:*
*Teymur Aslanov*
*Mərkəzi komitəsi tərəfindən: Cəfər Cabbarzadə*

**Əmirhacıyandan:** Əmirhacıyan kənd camaatı Azərbaycanın birinci Parlamanını təbrik edib, türk millətinin daimi surətdə nəşvünüma tapmasına [tərəqqi etməsinə] və Qafqaz millətləri ilə mehriban qonşuluq münasibatı bərpa ediləcəyinə ümidvar olur. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Parlamanı!

*Əmirhacıyan kənd camaatı vəkilləri:*
*Ağa Bünyadov, Məhəmmədhüseyn Dadaşov,*
*Malik Rəhimov*

### Qeyri-müsəlman vətəndaşların təbrikləri

**Gəncə:** Azərbaycan Parlamanının açılmasını təbriklə, cavan Cümhuriyyətin ümum vətəndaşlarının hürriyyətini təmin edəcək dövlət əsasları quruluşu işlərində böyük müvəffəqiyyətlər diləriz.

*Gəncə quberniyası*
*almanlarının təşkilatı*

**Quba:** Parlaman güşadını səmimi-qəlbdən təbrik və təhniyətlə təvəqqe edəriz bizim təşəkkürümüzü bir ovuc erməniləri milli ədavətdən mühafizə və müdafiə etmiş olan Azərbaycan Hökumətinə yetirəsiniz.

*Kilvar kənd cəmiyyəti nümayəndələri:*
*Cavad Apresov, Avanes*
*Buklev, Krikor Qazaryans*

**Quba:** Qusar qəsəbəsinin rus əhalisi, Azərbaycan Cümhuriyyətinin yeni müəssisəsini təbriklə əmin olur ki, ümum Cümhuriyyət vətəndaşlarının sərvət mənbəyi olan həyat və zəhmət Cümhuriyyət eşqinə asayiş və mənfəətlə nəbəan edəcəkdir və xalq mədəniyyəti mənbəyi Parlaman, cavan Azərbaycan Cümhuriyyətini lazım gələn dərəcəyə yüksəldərək onu böyük Avropa cümhuriyyətləri sırasına qoyacaqdır.

*Rus əhalisi vəkilləri:*
*Dombrovski, Çikovani,*
*Kolevalov, Solovyov*

**Quba:** Azərbaycan Cümhuriyyəti üfüqündə tülu etmiş [doğmuş] olan günəşin həyatbəxş hərarəti ilə isinmiş və məsrur [şad] olmuş olan biz Quba yəhudiləri, Parlaman güşadı bayramını təbrik və təhniyət edəriz. Ümidvar oluruz ki, camaatın etimadına məzhər [nail] olan xalq nümayəndələri nur və ədalətə doğru getdikləri yollarında təsadüf oluna biləcək ümum maneələri dəf edəcəklər və bu nur, yəhudi camaatını da işıqlandıracaqdır.

*Quba yəhudi cəmiyyəti vəkilləri*

**Şəki:** Erməni Milli Komitəsi Azərbaycan Parlamanının güşadını təbrik və təhniyətlə ümidvar olur ki, xalq nümayəndəliyi dəvəti ilə iki qonşu millətin ittifaq və müvafiqət [həmrəylik] ilə yaşaması ideyası feilən hasil olacaqdır. Komitə inanır ki, Azərbaycan millətlərinin səadəti ermənilərlə müsəlmanların doğma qardaş kimi mehriban yaşamalarındadır. Bir-birimizə qarşı ədavət və nizanın [ixtilafın] aşkarən mənasız olduğunu anlayaraq artıq əl-ələ verib millətlərin kəndi müqəddəratının kəndi əllərinə verilməsi əsası üzərinə cavan Azərbaycanın dövlət imarətini təmir etməlidirlər.

*Şəki Erməni Milli Komitəsi*
*sədri: Tumanyans*

### AZƏRBAYCAN PARLAMANI ƏTRAFINDA

**Rus əhalisinin Parlamanda iştirakı**

Bakıdakı Slav-Rus Cəmiyyəti, Azərbaycan Şurayi-Milli rəisi namına bir məktub göndərib, Azərbaycan Parlamanına daxil olmağı qərara aldığını xəbər vermişdir. Azərbaycan Şurayi-Millisi kanuni-əvvəlin [dekabrın] 5-ində vaqe olan iclasında Azərbaycan Parlamanında rus əhalisinə verilən 10 yerdən 5-inin Slav-Rus Cəmiyyəti nümayəndələrinə verilməsini qərara almışdır.

### AZƏRBAYCAN VƏTƏNDAŞLARINA, ZƏHMƏTKEŞ KÖYLÜLƏRƏ

Mübarizədə hüququnu alarsan!

Vətəndaşlar, dekabrın 7-də Azərbaycanın paytaxtı Bakı şəhərində Azərbaycanın Parlamanı açılacaq.

Neçə il davam edib də axirüləmr [nəticədə] "Hamı millətlərə istiqlaliyyət" şüarı ilə xitampəzir olan [sona çatan] aləmşümul [bütün dünyanı əhatə edən] Avropa müharibəsindən aldığımız təxribat və xəsarət mühitində, vətənimiz Azərbaycanda əbədi və əsasi qanun və tənzimat [tənzimləmələr] yapacağımız bu gün, bizim üçün daha da qiymətdar, daha da əziz bir gündür.

Kəndli qardaşlar, firqəmizin ən birinci şüarlarından ədd [hesab] olunan millətlər istiqlaliyyətinin bu gün Avropada və Rusiyada geniş surətdə yürüdüldüyünə biz fəxr etməliyiz. Keçmişdə – dövri-istibdadda təzyiqat altında əzilən millətlər indi kəndi hüquqlarını tələb edib, müstəqil, hürr yaşamağa səy edirlər. Bu millətlər cərgəsində azərbaycanlılar da Rusiya inqilabi-kəbirinin [böyük inqilabının] səmərələrindən istifadə edib, öz istiqlaliyyətlərini ümuma elan etdilər.

Kəndli qardaşlar! Siz kəndi həyati-məişətinizi, "torpaq və ixtiyar"ınızı müdafiəyə qalxışmalısınız. Bu da yaşadığınız Azərbaycan məmləkətinin müstəqil bir şəkliidarə alması ilə olacaqdır. Azərbaycan kəndliləri hamıdan artıq əsarətdə və təzyiqatda yaşadıqları üçün kəndi Azərbaycanı üçün **istiqlaliyyət** tələb etməyə haqqı vardır. Bu gün hər məmləkətin öz dairəsində ancaq müstəqil bir surətdə müəyyən bir qanun qoyulub, hüquqa dəxi təcavüz edilməyəcəyinə Azərbaycan kəndliləri daha inanmışlardır.

Hal-hazırda Rusiyanın hər bir küncündə, hətta hər bir şəhərində böylə bəzi firqələr və yaxud şəxslər baş qaldırıb hökumət təşkil edir və Rusiyanı təcdid [bərpa] etmək arzusunda bulunur. Bu hökumətlərdən əsla xalqın xəbəri yoxdur. Azərbaycan kəndliləri bu hökumətlərə inanıb, heç özlərini ixtilal [hərcmərclik] ağuşuna atmaq istəməyəcəklər. Azərbaycan kəndliləri özlərinə **istiqlaliyyət** tələb etdikdə, arxadaşları Rusiya kəndlisi və xalqından heç də üz çevirməyirlər. Biləks [əksinə], Rusiyada yaşayan kəndlilərin də kəndiləri üçün hürr və azad bir idarə qurmalarına mənəvi köməkdən çəkinməyəcəklər.

Kəndli qardaşlar!

Siz bu axır illər müddətində çox zəhmət çəkdiniz, yoruldunuz. İmdi isə yenidən mübarizeyi-həyata girişməlisiniz. Keçmişdəki nöqsanları bu gün düzəldiniz. Dünkü ədavəti bu gün qəlblərinizdən çıxarınız. Bu gün müttəhidən [birgə] **istiqlaliyyət** yolunda çalışarsanız, yarın dinc yaşamanız təmin ediləcəkdir.

Bu gün hamı kəndlilər bunu düşünüb, bir nəfər kimi məmləkətimizdə **istiqlaliyyət,** "torpaq və ixtiyar" şüarını tutmalısınız. Kim qarşınıza çıxıb sizə mane olarsa, hamınız ona qarşı qalxıb ciddi mübarizəyə girişməlisiniz. Bu uğurda mübarizənizlə **istiqlaliyyət** və "torpaq və ixtiyar"a layiq olmağınızı aləmə bildirməlisiniz.

**Yaşasın Azərbaycan istiqlaliyyəti!**
**Yaşasın Azərbaycan Məclisi-Məbusanı!**
**Yaşasın torpaq və ixtiyar!**
**Yaşasın Azərbaycan köylüləri!**

*Azərbaycan*
*İctimaiyyuni-İnqilabiyyun Firqəsi [Sosialist-İnqilabçılar Partiyası]*

### BAKI XƏBƏRLƏRİ

İngiltərə su nəqliyyat vəsaiti [vasitələri] idarəsi bütün mal göndərəcək zəvata [şəxslərə] elam edir [bildirir] ki, göndəriləcək mallar üçün məhəlli [yerli] gömrükxanadan vəsiqə alınmalıdır. Bundan sonra mallar göndərilə bilər. Bütün mallara gömrük vergisi baqi qalır. Fəqət, ərzaqdan gömrük alınmayacaqdır.

**General Tomsonun cavabı**

Britaniya Maliyyə şöbəsinin müdiri Bələdiyyə rəisi namına [adına] bu məzmunda bir məktub göndərmişdir:

*"Mən sizin məktubunuzu təşrini-saninin [noyabrın] 27-sində aldım. Məlum edirəm ki, biz Bakıda Dövlət Bankı əmanət kassası və Ticarət Bankının açılmasına çalışırız. Dövlət Bankı, siyasi əhvala baxmayaraq İngiltərə kontrolu altında fəaliyyətə başlayacaqdır. Biz ehtimal ediriz ki, bu işdə bizə hamı müavinətdə bulunacaqdır [kömək edəcəkdir]."*

**Gömrükxana idarəsində**

İşbu günlərdə Balakən gömrükxanası müdiri tərəfindən alınmış məktuba Azərbaycan Gömrüyü müdiri Lopato cənabları böylə cavab göndərmişdir:

*"Gömrükxana fəaliyyətlərini dayandırmaq mümkün deyildir. Əhaliyə məlum ediniz ki, gətiriləcək bəzzaziyyə [arşın malı, parça] və ərzağa gömrük vergisi ləğv edilmişdir. Böylə malları əcnəbiyə aparmamaqdan ötrü gömrük vergisi təyin edilmiş. Maliyyə Nəzarətinin göstərdiyinə məbni [əsasən] Daxiliyyə Nəzarəti və Zaqatal nahiyəsi müdirlərinə müraciət edirəm. Nəticə barəsində teleqrafən xəbər veriniz."*

Göndəriləcək mallara baxmaq barəsində Azərbaycan Gömrük müdiri Lopato cənabları su nəqliyyat vəsaiti müdiri mayor Braun cənabları ilə müsahibədə bulunmuşdur. Müşarileyh [adı çəkilən şəxs], bütün mallara baxmağa gömrük məmurunun ixtiyarı olmasını təsviblə [təsdiq edərək], bu barədə Port İdarəsinə məlumat göndərmişdir.

**Ərzaq məsələsi**

* Ərzaq naziri həzrətlərinin səfəri nəticəsi olaraq yarın şəhərimizə 30 vaqon taxıl gətiriləcəkdir. Əlavə, bu günlərdə Şamaxı qəzasından da taxıl gözlənir.

* Ərzaq Nəzarəti ilə Ukrayna nümayəndəliyi miyanında [arasında] nefti taxıla mübadilə etmək barəsində müzakirat [müzakirələr] davam edir.

**Mərkəzi Ev Komitəsində**

Mərkəzi Ev Komitəsi cənbindəki [nəzdindəki] İaşə Məntəqələri şöbəsi, Bələdiyyə İdarəsi cənbindəki Tibb və Hifzüssihhə [səhiyyə] şöbəsinə böylə bir kağız göndərilmişdir:

*"Axır vaxtlarda başqa-başqa nöqtələrdən əksərən müsri [yoluxucu] xəstəliklərə düçar olmuş bir çox qaçqınlar, aclıq və başqa xəstəliklərdən zəif düşmüşlər vaporlarla [paroxodlarla] Bakıya gəlirlər. Şəhərdə müsri xəstəliklərin artması ehtimalı önünü almaqdan ötrü körpülərdə iaşə məntəqələri açmalıdır. Bələdiyyə İdarəsinin Tibb və Sihhiyyə şöbəsi, Bələdiyyə Məclisi Tibbiyyə Komisyonu ilə işbu barədə müzakiratda bulunub, sizə təklif edir ki, öz nəzəriyyatınızı [təkliflərinizi, fikirlərinizi] təcili surətdə xəbər verəsiz. Körpülərdə iaşə məntəqələri açmaq və yaxud başqa yerlərdən iaşə məntəqələrini körpülərə köçürmək barəsindəki bütün nəzəriyyatınızı Bələdiyyə İdarəsi cənbindəki [nəzdindəki] Tibb və Sihhiyyə şöbəsinə göndərəsiniz."*

**Ev təşkilatlarının seçkiləri**

Kanuni-əvvəlin (dekabrın) 8, 11 və 13-ündə iki, üç və dördüncü uçastokda olan ev komitələri nümayəndələrinin ümumi iclası vaqe olub, uçastok komitələrinə və Mərkəzi Ev Komitəsinə üzvlər intixab ediləcəkdir [seçiləcəkdir]: kanuni-əvvəlin 8-ində 3-üncü uçastok, 11-ində 2-nci uçastok və 13-ündə 4-üncü uçastok. Seçkilər hamısı Nikolayevski küçədə, Realnı məktəbin binasında saat 4-də vaqe olacaqdır. Təyin edilən vaxtdan bir saat keçdikdən sonra iclas hər halda qanuni hesab ediləcəkdir. Məzkur [deyilən] iclaslarda iştirak etməkdən ötrü hər ev komitəsi öz ümumi iclasında bu qərar üzrə nümayəndə intixab etməlidir: Hər 50 nəfər bir nümayəndə seçməlidir. 50 nəfərdən 25 nəfərə qədər artıq olduğu halda bir nəfər dəxi intixab olunmalıdır. 50 nəfərdən az olsa da bir nəfər nümayəndə seçməlidir. Ev komitələri nümayəndələrə mandat verməlidir. Mandatsız nümayəndələr iclasa buraxılmayacaqlardır. Nümayəndə intixabında neçə nəfər iştirak etdiyi mandatda göstərilməlidir. Uçastok komitələri seçkiləri ilə bərabər Mərkəzi Ev Komitəsinə də üzvlər intixab ediləcəkdir. Mərkəzi Ev Komitəsinə hər 10 min adama bir üzv seçiləcəkdir.

**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Bakı, 7 kanuni-əvvəl***

"Skeptisizm": eramızdan əvvəl IV əsrin sonlarında meydana çıxan fəlsəfi cərəyan. Obyektiv gerçəkliyin dərk edilməsi imkanına şübhəylə yanaşır, varlıqlar və hadisələr haqqındakı biliklərin həmişə şübhəli olacağını önə sürür. Fəlsəfi spektisizmdən başqa elmi, dini və s. skeptisizm də var. Gündəlik həyatda: hər şeydən şübhə etmə, qərarsız olma, tərəddüddə qalma mənasında işlədilir.

***Tarixi günümüz***

"2 rəbiüləvvəl 1337": Burada tarix, hicri təqvimlə göstərilmişdir; miladi təqvimlə 7 dekabr 1918-ci ilə uyğundur.

***Parlamandan nə tələb olunur?***

"5) Əhalinin bu gün əhvali-sihhiyyəsi...": Qəzetdə, bu abzasın qabağında "5)" nömrəsi yaddan çıxmışdır.

***"Prometey"***

"Zira bir ölkənin tərəqqisi üçün xidmət edən amillər...": qəzetdə "amillər" yerinə "alimlər" getmişdir.

***Təbrik: Azərbaycan Məclisi-Məbusanı güşadı münasibətilə…***

"Qubernator: Vəkilov": İbrahim ağa Vəkilov nəzərdə tutulur.

"Söhüb camaatının müvəkkili...": qəzetdə, rusca "Сёгюб" yazılışının hərfi qarşılığı olaraq – "Syoqyub" kimi getmişdir.

"Suqub kənd camaatı vəkilləri...": Qubanın Söhüb kəndi nəzərdə tutulur. Söhüb kəndinin təbrik teleqramı iki dəfə çap edilmişdir. Birinci teleqramda kəndin adı "Syoqyub", ikinci teleqramda "Suqub" kimi getmişdir.

"Mucuq kənd camaatı vəkilləri...": Mucuq kəndinin adı qəzetdə təhrif edilmiş formada, "Myuguc" kimi getmişdir.

"Talabı camaatının vəkilləri...": Talabı kəndinin adı qəzetdə "Talıblı" kimi getmişdir.

"Sərkərli kənd camaat vəkili...": Sərkərli kəndinin adı qəzetdə "Zərgərli" kimi getmişdir.

***Azərbaycan vətəndaşlarına, zəhmətkeş köylülərə!***

Qəzetdə "istiqlaliyyət" sözləri və yazının axırıncı dörd cümləsi tünd rənglə vurğulanmışdır.

***Bakı xəbərləri: Ərzaq məsələsi***

"Ərzaq naziri həzrətlərinin…": o dövrdə Ərzaq naziri vəzifəsini Nəsib bəy Yusifbəyli ifa edirdi.










# Sürət, həyəcan və möhtəşəm Azərbaycan Qran-prisi

## Ölkəmiz dünyanın birnömrəli avtomobil yarışında növbəti dəfə nümunə göstərdi

**Aprelin 28-30-da Bakı planetin bir nömrəli avtomobil yarışına 7-ci dəfə evsahibliyi etdi. "Formula-1" Dünya Çempionatının 4-cü mərhələsi olan Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışdı.**





Gərgin keçən mübarizə sürət həvəskarlarının böyük marağına səbəb oldu. 500 milyondan artıq tamaşaçı kütləsinə malik yarışı müxtəlif ölkələrdən yüzlərlə azarkeş paytaxtımızda tribunalardan izlədi.

Pilotlar ümumu məsafəsi 306 kilometr və 20 çətin döngəsi olan trekdə 51 dövrə vurdular. Təhlükəsizliyin yüksək səviyyədə təmin olunduğu, müasirliyi ilə tarixiliyini özündə birləşdirən Bakı Şəhər Halqası ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edirdi. 30 mindən çox tamaşaçının yarışları yerində izləməsi üçün hər cür şərait yaradılmışdı.




Maraqlı və gərgin keçən yarışın yekununda "Red Bull Racing" komandasının pilotu Serxio Peres Bakı Şəhər Halqasında "Formula-1" üzrə dünya çempionatının dördüncü mərhələsi - Azərbaycan Qran-prisinin qalibi olub. Onun komanda yoldaşı Maks Ferstappen ikinci, "Ferrari"nin sürücüsü Şarl Lakler isə üçüncü pillədə yer alıblar. Qeyd edək ki, S.Peres 2021-ci ildə də Azərbaycan Qran-prisinin qalibi olub.

Xatırladaq ki, Azərbaycan Qran-prisinin ilk günündə "Formula-1" pilotları sərbəst yürüş və sıralanma yürüşlərində mübarizə aparıblar. Hər iki yürüşdə pilotlar 1 saat ərzində 6 kilometrlik Bakı trekində yarışıblar. Sərbəst yürüşdə "Red Bull Racing" komandasının pilotu Maks Ferstappen bütün rəqiblərini qabaqlayıb. "Ferrari"nin pilotu Şarl Lekler və "Red Bull Racing"in digər sürücüsü Serxio Peres ilk üçlüyü tamamlayıblar. Sıralanma turunu isə "Ferrari"nin pilotu Şarl Lekler qalib kimi başa vurub. "Red Bull Racing"in üzvləri Maks Ferstappen ikinci, Serxio Peres isə üçüncü yerdə qərarlaşıblar. Bu qələbə sayəsində monakolu pilot cari mövsüm ilk, Bakı Şəhər Halqasında ardıcıl üçüncü poul qazanıb. Həmçinin bu, onun karyerasında qazandığı 19-cu nailiyyətdir. Aprelin 29-da isə sprint üçün təsnifat və sprint yarışları təşkil olunub. Təsnifat yarışında "Ferrari" komandasının pilotu Şarl Lekler birinci olub. "Red Bull Racing"in pilotları Serxio Peres və Maks Ferstappen ilk üçlüyü tamamlayıblar. Sprint yarışı isə S.Peresin qələbəsi ilə yekunlaşıb. Ş.Lekler ikinci, M.Ferstappen isə üçüncü olublar.

"F-1" üzrə dünya çempionatının cari mövsümü 24 mərhələdən ibarətdir. Qran-prinin dördüncü mərhələsinə Bakı evsahibliyi edib. Altı kilometr uzunluğu olan və saat əqrəbi istiqamətinin əksinə hərəkət edən trek məşhur almaniyalı memar Hermann Tilke tərəfindən hazırlanıb. Azadlıq meydanından başlayan trek Hökumət Evinin ətrafı ilə fırlanaraq Qız qalasına çatmaq üçün İçərişəhər ətrafında 2,2 kilometr dairə vurur və Neftçilər prospektinə çıxaraq başlanğıc yerində sona çatır.

Bununla da Azərbaycan Qran-prisi göstərdi ki, Bakı "Formula-1" üçün unikal məkandır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Bakıda minifutbol üzrə beynəlxalq turnir başladı

**Dünən Azərbaycan Minifutbol Federasiyasının (AMF) təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə minifutbol üzrə beynəlxalq turnirin açılış mərasimi keçirilib. Tədbirdə Ümummilli Liderin idmana diqqət və qayğısını əks etdirən videoçarx nümayiş olunub.**












Dövlət himni səsləndikdən sonra çıxış edən gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanda idman siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanda beynəlxalq turnirlərin sayı ildən-ilə artır. Azərbaycan Prezidenti idmançılarımızı daim diqqətdə saxlayır. Dövlət tərəfindən göstərilən qayğı Azərbaycan idmançılarının beynəlxalq yarışlarda yeni qələbələr qazanmalarına zəmin yaradır.

Daha sonra çıxış edən Azərbaycan Minifutbol Federasiyasının fəxri prezidenti, "Zirə" Futbol Klubunun Müşahidə Şurasının Sədri Orxan Məmmədov qonaqları salamlayaraq deyib ki, Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq turnirin təşkil edilməsini özümüzə borc bildik. Ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Ulu Öndər Heydər Əliyevin idmançılarımızdan gözlədiyi məhz qalib olmaq, dövlətimizin adını ucaltmaq idi. İnanırıq ki, bu turnir, ilk növbədə, dostluq mühitində keçəcək və yaddaşlarda qalacaq.

Dünya Minifutbol Federasiyasının (WMF) prezidenti Filip Juda isə çıxış edərək Azərbaycanın Avropa çempionluğundan sonra bu idman növünə marağın daha da artdığının şahidi olduqlarını deyib. Qeyd edib ki, belə mötəbər beynəlxalq turnirin təşkil edilməsi bu idman növünün təbliğat işlərinin yüksək səviyyədə aparıldığının təsdiqidir.

Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını söyləyən F.Juda idmanın inkişafına dövlət səviyyəsində göstərilən diqqətin dəfələrlə ümumdünya idman təşkilatları və federasiyaları tərəfindən qiymətləndirildiyini vurğulayıb.

Tədbirdə eyni zamanda müxtəlif idman federasiyaları, həmçinin ölkəmizdəki Türkiyə, Ukrayna və Çexiya səfirliklərinin rəhbərləri də iştirak ediblər. Çıxışlardan sonra açılış mərasimi bədii proqramla davam edib. Yekunda turnirdə mübarizə aparan ölkələr meydana dəvət olunublar. Turnirin açılış oyununda Azərbaycan və Çexiya yığmaları üz-üzə gəlib.

Qeyd edək ki, beynəlxalq turnirə mayın 6-da yekun vurulacaq.

*"Azərbaycan"*

# Azərbaycana maraq artıb

## Bakıda "Formula-1" yarışlarının izləyicilərinin sayı əvvəlki illərə nisbətən xeyli çoxalıb

**Bakıda qələbəlikdir. Dünyanın müxtəlif yerlərindən insanlar paytaxtımızda keçirilən "Formula-1" Azərbaycan Qran-prisini izlədilər. Bakı bulvarında, İçərişəhərdə, "Fəvvarələr" meydanında insan əlindən tərpənmək olmurdu.**

Xatırladaq ki, "Formula-1" Azərbaycan Qran-prisinə maraq bu il daha da artıb. 500 milyondan çox izləyicisi olan avtomobil yarışmasını canlı izləyənlərin sayı bu il əvvəlki illərə nisbətən xeyli artıb. Dünyanın müxtəlif yerlərindən Bakıya gələn turistlərin diqqətini daha çox qədim tarixi abidələrimiz, Qız qalası, İçərişəhər, Bakı bulvarı, Üç Alov qüllələri çəkərək onları heyran edib. Dünən şəhərimizin qonaqları ilə söhbət etmək imkanımız oldu. Yuri Klimçuk Ukraynadan gəldiyini dedi:

- İlk dəfədir ki, Bakıya gəlirəm. Əvvəllər Azərbaycan haqqında müharibə ilə bağlı həyəcanlı fikirlər eşidirdim. Ermənilərin torpaqlarınıza təcavüz etməsindən xəbərdar idim. Uzun illərin işğalından sonra ordunuzun qəhrəmancasına torpaqlarınızı işğaldan azad etməsi xəbərini aldıq. Azərbaycana olan marağım daha da artdı. Bu günəşli şəhərə gəlmək çoxdankı arzum idi. Özüm avtomobil həvəskarıyam.







Nəhayət, bu il Bakıya gəlib "Formula-1" Azərbaycan Qran-prisini izləmək, bu ecazkar şəhəri görmək haqqında qərar verdim. Bakının gecələri, dəniz mənzərəsi, rəngarəng işıqları, mehriban və gülərüz insanları məni valeh etdi. Bənzərsiz Azərbaycan yeməkləri, İçərişəhərdə gördüyüm milli geyimlər, qoyun dərisindən hazırlanmış "cigid" papaqları diqqətimi çəkdi. Yoldaşım üçün Azərbaycan kəlayağısı, oğlum üçün papaq aldım. Özümü qayğısız bir dünyada hiss edirəm. Qınamayın, elə zənn edirəm ki, cənnətə düşmüşəm.

Eduard Bigen Litvadan gəldiyini, illərdir Bakını görməyi xəyal etdiyini deyir. Sovet dönəmində Rusiyanın Çita vilayətində azərbaycanlılarla birlikdə hərbi xidmətdə olmuşam. Azərbaycanlılardan "haralısan" soruşanda hamısı "bakılı"yam, - deyə cavab verirdilər. O vaxtdan məndə Bakıya gəlmək həvəsi yaranmışdı. Bakı deyildiyi qədər də varmış. Özümü möcüzələr adasında hiss edirəm. Dünən "Dron" şounu izlədim. Olduqca möhtəşəm bir tədbir idi. Göy üzünə Azərbaycan bayrağı sərilmişdi. Ölkənizlə qürurlanmaqda tam haqqınız var.

Burada turistlərin rahatlığı üçün hər cür şərait yaradılıb. Amma məni ən çox cəlb edən insanların mehribanlığıdır. Yaxınlaşıb kimdənsə bir söz soruşursan, sənə bacardığı köməyi göstərməyə çalışır. Şirvanşahlar sarayında, Qız qalasında qədim tarixinizlə maraqlandım.

Müşahidə etdiyim daha bir şey haqqında da danışmaq istəyirəm. Gecələr Üç Alov qülləsi və şəhərdəki bəzi yüksəkmərtəbəli binalar, eləcə də "Dron" şou zamanı bayrağınız işıqlanan zaman insanların ona sevgisini müşahidə etdim. Bayrağa olan sevgini vətənə olan sevgi, bu bayraq uğrunda şəhid olanların xatirəsinə sayğı olduğunu qəbul etdim. Bu, məni çox düşündürdü. Siz qalib xalqsınız. Siz öz haqqınız uğrunda mübarizə aparmağı bacarırsınız. Burada gördüklərimi gedəndən sonra dostlarımla bölüşəcəyəm. Demək istədiyim bir söz də var: Bakıdan ayrılmaq barədə düşünmək belə istəmirəm.

Cəmilə Açilova Türkmənistandan gəlib. Cəmilə xanım deyir ki, Bakıya gəlmək mənim üçün o qədər də asan olmadı. Buraya Türkiyədən keçərək gəlmişəm. Bakını görmək uşaqlıq arzum idi. İllərdir Bakıda keçirilən avtomobil yarışması haqqında eşidirdim. Pandemiya səbəbindən problemlər yaşadıq. Bu il Bakıya gəlmək arzumu nəhayət ki, gerçəkləşdirə bildim.

Bəri başdan deyim ki, Azərbaycanla bağlı bütün xəbərlərə, xüsusilə müharibədə qazandığınız uğura çox sevindim. Aşqabadda Azərbaycan səfirliyinə gedib zəfər münasibətilə Azərbaycan xalqını təbrik etdik. Sevinirəm ki, indi Bakıdayam. Özümü dogma evimdəki kimi hiss edirəm. Əgər imkan olsa, türk dünyasının mədəniyyət paytaxtı Şuşaya da gedəcəm. Qəhrəmanlıq dastanı yazan oğullarınızın keçdiyi yoldan mən də keçmək, füsunkar təbiəti olan Şuşanın gözəlliklərini, eləcə də ermənilərin törətdikləri vəhşilikləri gözümlə görüb dərs dediyim şagirdlərimə danışmaq istəyirəm.

Yuri Safonov Moskvadan gəlib. Yuri deyir ki, Bakı möcüzələr şəhəridir. 1989-cu ildə də burada olmuşam. O zaman Bakı yaddaşımda uğultulu küləyi, adamın üzünə yapışan sərt qum dənələri ilə yadımda qalmışdı. Mağazaların piştaxtaları boş idi.

Təyyarəmiz Bakıya eniş edəndə elə zənn etdim ki, başqa bir şəhərə düşmüşəm. Burada sanki möcüzə baş verib. Bakı gözəlliyi ilə ağlımı başımdan aldı.

Milli mətbəxiniz çox fərqlidir. Yeməklərin dadından doymaq olmur. Mağazalarınız doludur. Bakı bulvarı çox gözəlləşib. Vətəninizlə fəxr etməkdə tam haqqınız var.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

